AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

**ƏHMƏD CƏFƏROĞLU**

# DOĞU ELLƏRİMİZ AĞIZLARINDAN TOPLAMALAR

**(Qars, Ərzurum, Çoruh elləri ağızları)**

**BAKI – 2018**

**Elmi redaktoru və**
**nəşrə hazırlayanı:** **Almaz HƏSƏNQIZI**
filologiya elmləri doktoru

**Əhməd Cəfəroğlu.**
**Doğu ellərimiz ağızlarından toplamalar (Qars, Ərzurum, Çoruh elləri ağızları),** Bakı, Elm və təhsil, 2018, 312 səh.

Kitabda siyasi təzyiqlər üzündən vətənindən didərgin düşərək İstanbulda yaşamaq məcburiyyətində qalan dünya şöhrətli türkoloq, professor Əhməd Cəfəroğlunun (1899-1975) Qars, Ərzurum, Çoruh vilayətlərindən topladığı folklor materialları verilmişdir. Həmin mətnlər 1941-ci ildə toplanmış və Türk Dil Qurumu tərəfindən ilk dəfə 1942, ikinci dəfə 1995-ci ildə İstanbulda nəşr edilmişdir. Bu kitab ikinci nəşr əsasında hazırlanmışdır.

folklor.az

F 4603000000 / N-098-2018 Qrifli nəşr

© Folklor İnstitutu, 2018

## İÇİNDƏKİLƏR

**Mühacirətdə folklor materiallarının toplanması özəllikləri (A.Həsənqızı)** ........................................... .8
**Oxuculara (İ.Dilmen)** ............................................... 18
**Ön söz (Ə.Cəfəroğlu)** ............................................... 20

**I BÖLÜM. QARAQOYUNLU URUĞU AĞIZI**
Benamaz..................................................................36
Söz ........................................................................ 44
Qızla anasının türküsü................................................ 45
Qarı türküsü.............................................................. 46
Aşıx Abbasdan........................................................... 48
Qızlar türküsü ........................................................... 49
Manilər .................................................................... 50
Dua.......................................................................... 50
Aşıx "Tüccar"dan ...................................................... 51

**II BÖLÜM. QARAPAPAX–TƏRƏKƏMƏ URUĞU AĞIZI**
Lətif şah və Telli Mehriban hekayəsi.......................... 53
Aşıx Qəribdən............................................................ 98
Qarapapax türküsü .................................................... 98
Aşıx Şenniyin türküsü................................................ 99
Ərdəhan döyüşməsi................................................... 100
Qarapapax ağıtı........................................................ 103
Atla deyişmə............................................................ 106
Deyişmə................................................................... 107
Qızın yaş dastanı...................................................... 110
Daşdama.................................................................. 112
Döndərmə................................................................ 113
Aşıx Gülüsdandan.................................................... 115
Vaqufun sözdəri....................................................... 115
Mərdan dağıynan Meydan dağı ................................. 116
Qarapapaxlarda gəlin təbriki .................................... 121

Nanay ........................................................................ 122
Üşüdüm ...................................................................... 124
Qarapapax təkərləmələri ........................................... 124
Manilər ...................................................................... 125
Nağıl.......................................................................... 127
Qarapapax tapbacaları............................................... 130
Məsəl.......................................................................... 133
Deyişmə...................................................................... 133
Bağlama...................................................................... 133
Noruz türküləri .......................................................... 134
Noruz bayramı türküsü.............................................. 135
Dil .............................................................................. 135
Çovannan ağasının deyişi.......................................... 137
Mahnı ......................................................................... 139
Daşdamalar................................................................. 139
Sayacı türküsündən.................................................... 142
Türkülər...................................................................... 143
Ata sözü...................................................................... 144

**III BÖLÜM. DÜNBÜLLÜ-ÇARUHÇU URUĞU AĞIZI**

Dünbüllüllərin kötüyü................................................ 145
Dastan......................................................................... 145
Yaycı gözəlləməsi....................................................... 146
Küllük gözəlləməsi .................................................... 147
Hacı İmranın dastanı.................................................. 148
Eşgiya dərviş dastanı.................................................. 148
Türkülər...................................................................... 149
Deyişmə (pambix nanayı) ......................................... 151
İydir türküsü .............................................................. 151
Dünbüllü türküsü ....................................................... 152
Əmrah......................................................................... 153

## IV BÖLÜM. QACAR URUĞU AĞIZI

Əhmət vəzir .................................................................. 154
Söz .................................................................................... 157
Qacar hayatı........................................................................ 159
Türkü.................................................................................. 160
Araz türküsü ........................................................................ 160
Türkü.................................................................................. 161

## V BÖLÜM. TÜRKMƏN URUĞU AĞIZI

Sərəncə .............................................................................. 162
Kərəmdən ............................................................................ 169
Türkmən türküsü.................................................................. 171
Üş qız türküsü...................................................................... 171
Qaracaoğlandan .................................................................. 172
Türkü.................................................................................. 173
Hayatım .............................................................................. 175
Desdene .............................................................................. 176
Xacı bəy dasdanı.................................................................. 176
Türkü.................................................................................. 177
Türkü.................................................................................. 178
Gəlin türküsü ...................................................................... 180
Türkülər.............................................................................. 180
Aşıq Abbasdan.................................................................... 184
Bar türküsü ......................................................................... 184
Manilər ............................................................................... 187

## VI BÖLÜM. AYRIM, AFŞAR VƏ BAYAT URUĞU AĞIZI

### 1. Ayrım uruğu ağızı

Molla Nəsrədin nağılı ......................................................... 188
Ayrım türküləri.................................................................... 196
Deyişmə.............................................................................. 201
İt türküsü ............................................................................ 201

### 2. Afşar uruğu ağızı

Afşar türküləri ..................................................................... 202

**3. Bayat uruğu ağızı**

Aşıq Abbasdan........................................................ 205
Türkü...................................................................... 206

**VII BÖLÜM. YERLİ QARS URUĞU AĞIZI**

Daraxlı quş ............................................................ 207
Halvaçı gözəl.......................................................... 207
Horavel – kotan türküsü........................................... 214
Nənni...................................................................... 215
Manilər .................................................................... 216
Əmrahın türküsü ..................................................... 217
Behbudovun vaxtında .............................................. 220
Mənilər .................................................................... 220
Yağış duası .............................................................. 222
Məsəl...................................................................... 222
Axqonun türküsü .................................................... 222
Nəcibin türküsü........................................................ 223
Mənilər .................................................................... 227
Müdaminin türküləri ............................................... 233
Müşürün türküləri ................................................... 235
Deyişmə.................................................................. 237
Nanay türküsü.......................................................... 238
Çocux təkərləmələri................................................ 240
Zəfər oyunu ............................................................ 243
Məktip mənisi.......................................................... 244
Bayatılar ................................................................. 245
İrəvanın türküsü ...................................................... 246

**VIII BÖLÜM. ƏRZURUM VİLAYƏTİ AĞIZI**

Ahmət bəzircan....................................................... 248
Məsəl...................................................................... 257
Dastan..................................................................... 259
Türkü...................................................................... 260
Aşıx Kərəm............................................................. 261
Çobannar dastanı .................................................... 261

Ərzurum ........................................................................ 263
Sərəncəm ...................................................................... 264
Dəgirmançıdan şikayət.............................................. 277
Pirə dastanı ................................................................. 278
Siçan dastanı ............................................................... 278
Ərzurum haqqında bir aşığın dastanı .......................... 279
Aşıx Kərəmin Pasın köylərini dolaşması ..................... 280
Dəliqanlı dastanısı........................................................ 280
Ağıt ............................................................................... 282
Farə türküsü Sümmanidən........................................... 283
Hüdayidən .................................................................... 283
Yanıx Kərəm ........................ 284
Qoşma .......................................................................... 285
Qoşma .......................................................................... 285
Yüzük oyunu şarkısı ..................................................... 286
Peşrüv (Təkərləmələr)................................................. 290
Heyvan çağırma nidaları .............................................. 292

## IX BÖLÜM. ÇORUH VİLAYƏTİ AĞIZI

Hayatım ........................................................................ 293
Dastan........................................................................... 294
Hüzurinin şeirləri ......................................................... 295

## QARS VİLAYƏTİ ƏTRAFINDA ADLAR

Qadın adları ................................................................. 305
Kişi adları ..................................................................... 308

# MÜHACİRƏTDƏ FOLKLOR MATERİALLARININ TOPLANMASI ÖZƏLLİKLƏRİ

Məlumdur ki, sovet dönəmində xalqın azadlıq və hürriyyət arzularını alovlandıran, əsarət, köləlik buxovlarından qurtulmağa səsləyən ədəbi əsərlər ya senzura tərəfindən yasaq edilmiş, ya da məcburiyyət üzündən bəzən hətta Azərbaycanın öz tədqiqatçıları tərəfindən sovet ideologiyasına uyğunlaşdırılaraq təhrif edilmiş, yanlış təbliğ olunmuşdur. Mühacir tədqiqatçı Süleyman Abdülkadir "Azərbaycan yurd bilgisi" dərgisinin elə ilk sayında dərc olunmuş "Türk qövmlərinin xalq ədəbiyyatında rus istilasının inikası" adlı məqaləsində müstəmləkə buxovları daşıyan bütün türkdilli xalqların folklorunu nəzərdən keçirərkən diqqəti bu problemə yönəldərək qeyd etmişdir: "...türk xalq ədəbiyyatı və xəlqiyyatı öz münəvvərlərimiz tərəfindən ihmal olunmuş, ancaq kölə millətə mənsub olan müstəmləkəçiyə qeyrətlə toplana bilmişdir. Bu ədəbiyyatı müstəmləkəçiyə nəql edənlər rus istilasına dair xalqın tərənnüm etdiyi dastan və türkülərin milli bir sirr sifətilə saxlamış, yaxud "rus məmuru" zənn etdikləri müstəmləkəçinin xətrini qırmayacaq bir surətdə təhrifə məcbur olmuşdurlar"[1].

Mühacirətdə folklor örnəklərinin toplanması və nəşri sahəsində Əhməd Cəfəroğlunun redaktorluğu ilə 1932-1934-cü illərdə 36, 1954-cü ildə isə bir sayı nəşr edilən "Azərbaycan yurd bilgisi" dərgisinin fəaliyyəti təqdirəlayiqdir. Redaktor dərginin hansı zərurətdən doğduğunu şərh edərkən, onun məhz Azərbaycanı bütün yönləri ilə tanıtmaq, xalqımızın elmi və mədəni irsinin təbliği məqsədindən yarandığını elə birinci sayında ciddi arqumentlərlə dilə gətirmişdir. Xalqı azadlığa, hürriyyətə səsləyən, rus müstəmləkəçiliyinə qarşı yönələn

---

[1]Suleyman Abdülkadir. Türk kavımlarının halk edebiyatında rus istilası inikası, "Azerbaycan yurt bilgisi", İstanbul: yıl 1, I, sayı 1, s. 22

əsərlərin diqqətdən kənarda qalmasına, toplanıb nəşr edilməməsinə, tədqiqatına imkan verilməməsinə təəssüf edən Ə.Cəfəroğlu “Azəri ədəbiyyatında istiqlal mücadiləsi” adlı tədqiqatında yazmışdır: “Milli Azərbaycan ədəbiyyatında, adəta başlı-başına, müstəqil bir cərəyan təşkil edən istiqlal mücadiləsi ədəbiyyatı, təəssüf ki, uzun bir zaman qeyri-müntəşir qaldığından[2], kiçik bir tədqiqə belə məzhər olmamışdır. Rus istilası ilə bərabər doğan bu ədəbiyyat rus məmurlarının hədsiz təzyiqedici davranışları üzündən əvvəlləri yalnız *şifahi ədəbiyyat* mahiyyətində özünü mühafizə edə bilmiş və dolayısı ilə bütün bəkarətini tutamamışdır”[3] (seçmə bizimdir – A.H.).

Müəllif bütün cidd-cəhdlərə rəğmən, aparılan sovet təbliğatına, onun müxtəlif üsullarla insanları susmağa məcbur etməsinə baxmayaraq, çar dönəmlərindəki kimi, yenə də xalqın azadlıq sevgisinin, istiqlal arzusunun əbədi yaşadığını, bunun sübutunun isə məhz yaratdığı əsərlər olduğunu və onların təzyiqlər ucbatından çox vaxt şifahi şəkildə yaşadığını diqqətə çatdırmışdır. Eyni zamanda, məqaləsinin yazılma səbəblərindən danışarkən, Əhməd bəy rus müstəmləkəçiliyi əleyhinə çoxlu materiallar əldə etdiyini və əsas məqsədinin onları dəyərləndirmək olduğunu qeyd etmişdir.

Mühacirət folklorşünaslarının araşdırmalara ümumtürk və dünya ədəbiyyatşünaslığı kontekstində yanaşmasının nəticəsidir ki, hələ 1940-cı ildə dinləyicilər qarşısında məruzə kimi hazırlanan “Folklorumuzda milli həyat və dil bakiyələri” adlı tədqiqatında Ə.Cəfəroğlu Anadolu folklorunu toplayıb, digər türkdilli xalqların yaradıcılığına əhəmiyyət verilməməsinin, müqayisələrin aparılmamasının yolverilməz olduğunu söyləyirdi: “Araşdırıcılar əksəriyyətlə, Anadolu türklərinin iş-

---

2 çap olunmadığından

3 Ahmet Caferoğlu. Azeri Edebiyatında İstiklal Mücadelesi izleri, “Azerbaycan Yurt Bilgisi”, İstanbul: 1932, yıl 1, sayı 8-9, s.291

ğal etdikləri mümtaz mövqe dolayısıyla, ancaq bu sahəyə aid folklor növlərini toplamağa qeyrət etmiş, həmcins digər türk qövmlərinin eyni növdən olan folklorları ilə münasibətdə olaraq müqayisə etməmişlər. Halbuki bu kimi araşdırmalarda əsl nəzər-diqqətə alınması lazım gələn nöqtə türk qövmlərinin çox geniş sahəyə yayılması keyfiyyəti olmalıdır”[4].

Ə.Cəfəroğlu peşəkar bir alim kimi elə problemlər qaldırmışdır ki, onlar hər zaman araşdırmalarda diqqətə alınmalıdır. Alimin folklor materiallarının toplanması və araşdırılması sahəsində təklif etdiyi tələblər bu tədqiqatın yazıldığı illərdə sovet ölkəsinin tərkibindəki türkdilli xalqların tədqiqatçıları üçün imkansız idi, senzura buna yol verməzdi və həmin vacib problem bu gün də aktual olaraq qalmaqdadır.

Bundan əlavə, Ə.Cəfəroğlu on bir il (1940-1951) ərzində Türkiyənin bir çox bölgələrini gəzərək müxtəlif dialektlərə aid folklor materialları toplamış və bu nəhəng külliyyatı sistemləşdirərək, ”Quzey Doğu ellərimiz ağızlarından toplamalar. Ordu, Girəsun, Trabzon, Rizə və yörəsi ağızları” , “Güney Doğu ellərimiz ağızlarından toplamalar. Malatya, Elazığ, Tunceli, Gaziantəp ve Maraş vilayətləri ağızları”, “Anadolu elləri ağızlarından dərləmələr. Van, Bitlis, Muş, Karaköşə, Əskişəhir, Bolu ve Zonquldak elləri ağızları”, “Doğu ellərimiz ağızlarından toplamalar. Qars, Ərzurum, Çoruh elbaylıqları ağızları” və s. adları ilə silsilə kitablar şəklində nəşr etdirmişdir. Aydın olur ki, o, Türkiyənin Ərzurum, Qars, İqdır, Çoruh, Sivas, Toqat, Trabzon, Girəsun, Ordu, Rizə, Kayseri, Niğdə, Kırşəhər, Əskişəhər, Bitlis, Van, Zonquldaq, Ankara, Muş, Qarakeşə, Amasya, Yozqat, Qaziantəp, Bolu və başqa şəhərlərini qarış-qarış gəzmiş və onun bu nəhəng fəaliyyəti saysız-hesabsız folklor nümunələrinin nəşri ilə tamamlanmışdır. Tədqiqatçılarin təxmini hesablamalarına görə, Əhməd Cəfər-

[4]Ahmet Caferoğlu. Folklorumuzda milli hayat ve dil bakiyeleri, C.H.P, Konferanslar serisi, Kitap 16, İstanbul: 1940, s.21-22

oğlunun bu illər ərzində topladığı materiallar 18 dastan, 18 dua, 107 lətifə qrupu, 7 hekayə, 42 mahnı, 8 layla, 181 oyun, 29 təkərləmə, 738 türkü, 4 yanıltmac qrupu və 141 məsəldən ibarətdir[5].

Ə.Cəfəroğlu topladığı xalq ədəbiyyatı nümunələrini dünya folklorşünaslıq ənənələrinə sadiq qalaraq, ədəbi dilə uyğunlaşdırmadan, müxtəlif şərti işarələrin köməyilə (uzun, qısa səslər, sağır nun və s.) dialektdə olduğu kimi yazıya almış, anlaşılmayan sözlərin lüğətini vermişdir. Bu isə həm dialektləri tədqiq etmək, həm də canlı danışıq dilinin təravətini qorumaq baxımından çox vacibdir. Təəssüf ki, Azərbaycanda folklor materiallarının nəşrində Ə.Cəfəroğlu ənənəsinə təsadüf edilmir. Halbuki dünya folklorşünaslığı bu xüsusiyyəti daha uzun illər bundan öncə diqqətə almış və xalq ədəbiyyatı nümunələrinin nəşrlərində tətbiq etmişlər.

Çox maraqlı bir fakt da diqqəti cəlb edir ki, yorulmaz elm fədaisi hətta həbsxanalarda məhbuslarla görüşərək xalq ədəbiyyatı örnəklərini toplamış və dərc etdirmişdir. Onun tələbəsi olmuş, türk yazıçısı Yusif Bəyzadə xatirələrində Əhməd Cəfəroğlunun toplayıcılıq fəaliyyətilə bağlı yazır: "Əvvəlcə xalqın, kəndlilərin qaynaşdığı səs-küylü bazar yerlərini gəzər, qulağımızı bölgənin ləhcəsindəki xarakterik səslərə alışdırırdıq. Kəndindən, yaşadığı mühitdən kənara çıxmamış cahil adamlar, xüsusilə yaşlı qadınlar tapır, danışdırır və yazırdıq. Aydın həbsxanasına getmişdik. Müəllimim müdirdən səkkiz-on nəfər oxuma-yazma bilməyən dustaq istədi. Bir otağa toplandıq. Dil materialı yığacağımızı, bizə nağıl, hekayə, yerli mahnılar, şeirlər söyləmələrini xahiş etdik… Saz çalanlarının olub-olmadığını soruşduq. İki nəfər sazını götürüb gəldi…"[6]

---

[5] Mirzə Ənsərli (Ləmbəli). Gəncəli professor Əhməd Cəfəroğlu, Bakı: Qartal, 1996, s.17

[6] Yusif Bəyzadə. Müəllimim Əhməd Cəfəroğlu, "Vətən səsi" qəzeti, Bakı: 12 sentyabr 1991, № 35 (71)

Belə bir fakta nə sovet, nə də müstəqillik illərində Azərbaycanda təsadüf edilmir, son illərdə yazılan monoqrafiyalarda sosializm dönəmində yasaq edilən bir sıra janrlara diqqət artsa da, həbsxanalarda yaranan xalq ədəbiyyatı örnəkləri toplanılmamış və öyrənilməmiş qalmaqdadır.

Mühacir tədqiqatçılardan Mirzə Bala Məmmədzadə "Kalevala"nı yazıya alan Elias Lennortun (1802-1884) fin xalqı üçün bu əvəzsiz fəaliyyətindən sonra dünya alimləri tərəfindən Homer qədər bir yüksək mərtəbəyə ucaldığını qeyd etməklə folklorun toplanması və təbliğini millətin hər bir üzvünün ümdə vəzifəsi kimi dəyərləndirmişdir. Mirzə Bala Məmmədzadənin Almaniyanın Münhen şəhərində nəşr olunan "Qafqaziya" dərgisində 1952-ci ildə (sayı 8, s.10-12) dərc etdirdiyi "Dədə Qorqud" adlı məqaləsində Sovet Sosialist Respublikalar İttifaqı adlanan ölkədə türkdilli xalqlara münasibətin digərlərinə görə daha kəskin olması aydın görünməkdədir: "1948-ci ilin dekabr ayında toplanan XII ümumi yığıncaqda çar istilasına qarşı mübarizə aparan türküstanlı xalq qəhrəmanlarını tərənnüm edən bir əsər haqqında bir rus kommunisti belə deyirdi: "Sabiq rus imperatorluğunun kənar əyalətləri üçün Rusiya ilə birləşmək nə deməkdir? Bu hadisə milli fəlakətmi, yoxsa irəliyə doğru bir addım idimi? Marksizm elmi bu mənada doğrudur. Bu məmləkətlərdən, məsələn, Qazaxıstan… əgər Rusiya ilə birləşdirilməsəydi, Çin, yaxud da Kokand tərəfindən parçalanıb udulacaq, nəticədə ingilis müstəmləkəçiləri üçün yağlı bir tikəyə çevriləcəkdi. Belə olduğu təqdirdə, yəni, daha doğrusu, bu belə də qəbul olunmalıdır, bütün dastan və qəhrəmanlıq hekayələrini, bütün folkloru və onun qəhrəmanlarını, eləcə də bütün ədəbiyyatı yalnız bu nöqteyi-nəzərdən mütaliə etmək lazımdır – xalq ədəbiyyatını yerli feodallara qarşı mübarizədə Rusiya ilə birləşmək üçün çarpışan qəhrəmanlar əks etdirməlidir"[7].

---

[7] Mirza Bala Mehmetzade. Dede Korkut, "Kafkasya", Münih: 1952, №8, s.11

Göründüyü kimi, sovet təbliğatçıları folklor qəhrəmanlarını əsl həqiqətdə olduğu kimi – millətlərin azadlığı, hürriyyəti üçün mübarizəyə qalxaraq, xalq tərəfindən əbədiləşdirilməsi kimi deyil, imperiyaya lazım olduğu şəkildə təbliğ edilməsini tələb edirdilər ki, nəticə etibarı ilə bu da xalq ədəbiyyatının saxtalaşdırılmasına gətirib çıxarırdı. Mirzə Bala: "Türküstan üçün deyilmiş olan bu sözlər, bir qayda olaraq, bütün qeyri-rus millətlərinə şamil edildi"[8], – yazaraq, Azərbaycanın da milli mənəvi sərvətlərinin qeyri-obyektiv təbliğinə qarşı etiraz səsini ucaltmışdır.

Fransada mühacir ömrü sürən Ceyhun Hacıbəylinin "Qara-bağın dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsərinin xalq ədəbiyyatı örnəklərinin təbliğində mühüm əhəmiyyəti xüsusi nəzərə çatdırılmalıdır. Müəllif bu tədqiqatı "La Dialecte et la folk-lore du Karabagh" adı ilə 1933-cü ildə "Asiya jurnalı"nın ("Journal Asiatique") CCXII sayında nəşr etdirdirmişdir. Otuz üç bölmədən ibarət olan bu kitabda alqışlar, qarğışlar, hərbə-zorbalar, andlar, təriflәmələr, xalq məzhəkələri, paremik ifadələr, bayatı və bayatışəkilli şeirlər toplanmışdır[9].

Bundan başqa, şair Almas İldırım (1907-1952) Azərbaycan bayatılarını toplayaraq, Türkiyənin Elazığ şəhərində iki dəfə ayrıca kitab şəklində nəşr etdirmişdir ki, bu da mühacirətdə xalq ədəbiyyatına olan diqqəti göstərən faktlardandır. Türkiyənin Elazığ şəhərində 1947-ci ildə ikinci dəfə işıq üzü görən bu kitaba şair "Bayatıların səsləndiyi ölkə" adlı kiçik bir müqəddimə yazmışdır. Bu üç səhifəlik yazını yalnız nisgilli şairin deyil, qürbət acılarını çəkən bütün mühacirlərin fəryadı kimi dəyərləndirmək mümkündür

Qeyd etmək lazımdır ki, Almas İldırım topladığı bayatıların informatorları haqqında geniş məlumat verməsə də, yaz-

[8] Mirza Bala Mehmetzade. Dede Korkut, "Kafkasya", Münih: 1952, №8, s.12
[9]Ceyhun bəy Hacıbəyli. Qarabağın dialekti və folkloru (Qafqaz Azərbaycanı), Bakı: Ozan, 1999

dığı kiçik müqəddiməyə belə bir xatırlatma əlavə etmişdir: "Kitaba qoyulan bu bayatıları toplarkən, bu yolda özündən də faydalandığım, qürbətin qəhri üzündən saçları ağarmış, zavallı bir azəri anasının yaşlı gözlərini məchul bir nöqtəyə dikərək söylədiyi bir bayatını yazdıqdan sonra o da mən də susdum… susmaq… əvət… o da başqa bir cür fəryad…

Əzizim vətənə sarı,
Yol gedər vətənə sarı.
Çıxaydım dağlar başına,
Baxaydım vətənə sarı"[10].

Müəllif bayatıları özü kimi qürbətə düşən vətən həsrətli analardan – Azərbaycan türklərindən toplamışdır ki, bu da kitabın dəyərini artırmaqdadır.

Almaniyanın Köln şəhərində yaşamaq məcburiyyətində qalan Behruz Həqqinin uzun illərdən bəri davam edən toplama fəaliyyəti də çox əhatəlidir. Xüsusilə bir məqam diqqət çəkməkdədir. Behruz bəy Vətəninin azadlığı, hürriyyəti yolunda mücadiləyə qalxan və bu yolda dəfələrlə ağır zindan həyatı sürməyə məhkum edilən mücahidlərdəndir. Tədqiqatçı ağır mənəvi, fiziki işgəncələr içərisində olanda da fəaliyyətini dayandırmamışdır ki, bunu onun topladığı örnəklərin altındakı "Tehran zindanı", "Təbriz zindanı", "Sənəndəc zindanı" "Bəndərabbas zindanı", "Qızılqala zindanı" sözləri də təsdiq etməkdədir.

Behruz bəyin bu barədə xatirələri İran adlanan ərazidə ağır yaşam mücadiləsi verən soydaşlarımızın ürək parçalayan çətin durumu ilə yanaşı, bu insanlardakı sınmayan iradəni, sonsuz həyat eşqini, xalqına, vətəninə məhəbbəti əks etdirməkdədir: "...hərbi məhkəməyə aparıb bir neçə gün oyun-oyuncaq işlərə şahid olandan sonra edam hökmü verərək məni zindana qaytardılar. İnanırdım ki, insan o vaxtadək ki bir icti-

---

[10] Bayatılar. (Azerbaycan halk manileri). Derleyen: Elmas Yıldırım, Elazığ: Turan Basım Evi,1947

mai iş görə bilir – diri adlana bilər. Elə buna görə də ağır vəziyyətdə olmağıma baxmayaraq, uzun illərdən bəri sevdiyim ağız ədəbiyyatının toplanmasına başladım”[11].

Behruz bəy bu fəaliyyətində onun kimi ağır şəraitdə əzab çəksə də, yardım etməkdən çəkinməyən məhkumları saygı ilə xatırlamışdır ki, bu insanlar, doğrudan da, böyük hörmətə layiqdirlər.

Əli Volkan, Xavər Aslan, Nemat Rahmati və başqalarının toplamaları, həmçinin mühacirət mətbuatının fəaliyyəti ayrıca qeyd edilməlidir.

Beləliklə, Azərbaycanın mühacir ziyalılarının folklor materiallarını toplama fəaliyyətini aşağıdakı kimi xülasə etmək olar:

– Mühacirətdə Azərbaycan folkloru Vətəni təbliğ etmək məqsədilə toplanmış, müxtəlif dillərə tərcümə edilmiş və yayımlanmışdır;

– Sovet senzurasının yasaqlarına məruz qalan folklor mətnlərinin unudulmasının qarşısını almaq üçün belə əsərlərə xüsusi diqqət yetirmişlər;

– Sovet siyasi rejiminin təhriki ilə təhrifə məruz qalan folklor örnəkləri bərpa edilməyə çalışılmışdır;

– Mühacirətdəki folklorşünaslar dünyanın müxtəlif ölkələrində nəşr olunan Azərbaycan folklor örnəklərilə bağlı münasibət bildirmişlər;

– Folklor materiallarının toplanması ilə bağlı əsas istiqamətlər müəyyənləşdirilmişdir;

– Hər cür basqıdan azad ölkələrdə nəşr edildiyindən mühacirətdə toplanan folklor materialları daha çox öz orijinallığını mühafizə etmişdir;

---

[11]Behruz Həqqi. Azərbaycanın Qurvə və Gərus-Bicar türklərinin ağız ədəbiyyatından örnəklər, Bakı: Adiloğlu, 2008

– Mühacirətdə folklor materialları, demək olar ki, dünya standartları səviyyəsində, bütün lazımi şərtlərə uyğun olaraq toplanmış, informator haqqında bilgilər tam şəkildə öz əksini tapmışdır.

– Toplama fəaliyyətilə mühacirlərin xanımları da yaxından iştirak etmişlər ki, bu da həmin problemə ümummilli məsələ kimi çox ciddi əhəmiyyət verildiyini sübut etməkdədir;

– Mühacirətdə Güney və Quzeyə parçalamadan – Bütöv Azərbaycan folkloru materialları toplanmışdır ki, bu da onların dəyərini artırmaqdadır.

– Mühacirətdə Azərbaycanla yanaşı, İraq-türkmən folklorunun toplanmasına da diqqət yetirilmişdir və s.

❖

Görkəmli türk alimi Osman Fikri Sərtqayanın Ə.Cəfəroğlunun ölümünün iyirminci ili münasibətilə çıxışında çox maraqlı bir fikir vardır. O deyir: “Min il öncə Kaşğarlı Mahmud Orta Asiyanı addım-addım gəzdi. Ondan “Divanü-lüğət-it türk” var. Yüz il öncə V.Radlov Güney Sibiri addım-addım gəzdi. Ondan on cildlik “Proben”imiz var. 50 il öncə Cəfəroğlu Anadolunu addım-addım gəzdi. Ondan ... on cildlik Anadolu ağızları dərləmələri var”[12].

Fikrimizcə, bu müqayisə Ə.Cəfəroğlunun toplayıcılıq sahəsindəki fəaliyyətinə verilən ən böyük dəyərdir.

Əhməd Cəfəroğlunun topladığı materiallar içərisində Azərbaycan turklərinin sıx məskunlaşdığı Ərzurum və Qars bölgələrinə aid örnəklər milli folklorumuzun yayılma arealını, toplanan örnəklərin variant və versiyaların öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bu da “Doğu ellərimiz ağızlarından toplamalar. (Qars, Ərzurum, Çoruh elləri ağızları)”

---

[12] Sərtkaya Osman Fikri. Ölümünün 20. Yıl dönümünde Hocam Ahmet Caferoğlu, “Türk dili ve Edebiyatı Dergisi”, 1996, şubat, sayı 530, s.258

kitabının vətəndə nəşri məsələsini gündəmə gətirir. Həmin materiallar, müəllifin verdiyi məlumata görə, 1941-ci ildə toplanmış, ilk dəfə İstanbulda 1942-ci ildə nəşr edilmişdir.

Kitabda toplanan örnəklər rəngarəngliyi ilə seçilir. Buraya bayatı, sayaçı sözləri, atalar sözləri, əfsanələr, rəvayətlər, nağıl, dastan, aşıq şeirləri, xalq oyunları və s. ilə yanaşı, Azərbaycanda hələ də toplama zamanı nəzərə alınmayan materiallar (məsələn, heyvanlara müraciət formaları, bölgəyə xas qadın və kişi adları, at, köpək və başqa heyvanlara aid mətnlər və s.) daxil edilmişdir. Ə.Cəfəroğlunun hərəkət üçün çox çətin və əlverişsiz yollarla yorulmaq bilmədən kənd-kənd, oba-oba gəzərək topladığı bu materiallar məhz böyük əhəmiyyətinə görə alimin ölümündən sonra da Türkiyədə dəfələrlə nəşr edilmişdir.

Oxuculara təqdim edilən bu kitab İstanbulda 1995-ci ildə İstanbulda işıq üzü görən ikinci nəşr əsasında hazırlanmışdır. Mətnlərin əslinə müvafiq olaraq tərtibinə diqqət yetirilmiş, anlaşılmayan sözlərin ədəbi dildə qarşılığı verilmişdir. Ə.Cəfəroğlunun işlətdiyi şərti işarələrin köməyilə materialların əslinə müvafiq olaraq dialekt xüsusiyyətlərinin saxlanılmasına çalışılmışdır. Folklor materialı kimi çap olunması səbəbindən bu nəşrdə həmin şərti işarələr saxlanılmamışdır.

İnanırıq ki, Əhməd Cəfəroğlunun topladığı materialların vətəndə nəşr olunması təşəbbüsü rəğbətlə qarşılanacaq və davam etdiriləcəkdir. Bu, ömrünü vətənə həsrətlə mühacirətdə keçirmək zorunda qalan, bir an da olsun istiqlal savaşından geri çəkilməyən, zəngin elmi irsi ilə dünya türkologiyası tarixinə imzasını qoymuş böyük bir alimin mənəvi haqqıdır.

**Almaz Həsənqızı,**
filologiya elmləri doktoru

## OXUCULARA

Yurudumuzun ayrı-ayrı bölgələrində xalq ağzında yaşayan dil varlığımızı araşdırıb ortaya çıxarmaq, Türk Dil Qurumunun yaranmasından bəri üzərində durub çalışdığı bir məsələdir.

1932-ci ildə başlanan dialekt öyrənmə fəaliyyəti bu sahədə birinci böyük araşdırma olmuşdu. Dövlət və kültür qüvvələrinin səfərbər edilməsiylə bütün ölkədə yerinə yetirilən bu bənzərsiz tədqiqatın iki cildi nəşr edilmiş (üçüncüsü çapda olan) və "Söz dərləmə" dərgisinə təsirini göstərmişdir.

1933-cü ildə yazı dilimizdəki alınma sözlərə xalq dialektlərində işlənən əsl türk qarşılıqlar aramaq üçün açılan müzakirə, toplama materialları və kitab qaynaqlarından tamamlanaraq, 1934-cü ildə "Darama dərgisi" ortaya qoyulmuşdur. Bu çalışmalar davam etdirilərək, 1935-ci ildə cib lüğətləri çıxarılmış və termin qarşılıqları verilməklə təkmilləşdirilərək 1937-ci ildə çap olunmuşdur. Bu gün varlıqlarının və eyni zamanda, dilin ən əsas qaynağı olan xalq içindəki araşdırmalar bununla sona çatmış deyil, bəlkə, ancaq başlanmış deməkdir. Söz təhlillərilə birlikdə başlamış olan xalq yaradıcılığı – xalq ədəbiyyatı (Folklore) tədqiqi də xeyli inkişaf etdirilərək mətnlər sıraya qoyulmuşdur. "Söz dərləmə" dərgisi çalışmaları tamamlandıqdan sonra bunlar üzərində də toplama və hər kəsin görə biləcəyi təhlillərə başlanacaqdır.

Yenə xalqın ağzından dialektdəki söz yaratma fərqliliklərini toplamaqla bir də cümlə yaratma (sintaxe) tədqiqi aparılmış, qrammatika çalışmaları içərisində yerini tapması üçün bunun nəticəsi də sırasını gözləməkdədir.

Qurumun fəaliyyəti davam edərkən başqa elmi dairələrimiz də bu istiqamətdə dəyərli addımlar atırlar. Ankara Xalq Evində ata sözləri və xalq yaradıcılığı üzrə araşdırmalar aparıldığı kimi, Ankara Universiteti xalq ədəbiyyatı çalışmalarının da bir çox nağıllar, dastanlar və türkülər toplama yolunda

lazımi irəliləmələri olduğunu sevinclə öyrənirik. Bunların arasında çalışqan tədqiqatçı, İstanbul Universiteti türk dili üzrə professor, filologiya elmləri doktoru Əhməd Cəfəroğlu arkadaşımız nəticələri nəşr etdirərək göz önünə qoymuşdur.

Hələ 1933-cü ilin yayında ilk olaraq dialektlərdəki qarşılıqların öyrənilməsi çalışmalarında Quruma köməklik edən dəyərli professor Ə.Cəfəroğlu son illərdə bölgə-bölgə Türkiyəni dolaşaraq ayrı-ayrı ellərimizin dialektlərindən toplamalar yığmış və bunları ədəbiyyat fakültəsi nəşrləri arasında ortaya çıxarmışdır.

1941-ci ildə professor şərq ellərimizdə araşdırmalar aparmaq üçün yola çıxmışdır. Fakültə hesabına olan incələmələr sırasında Türk Dil Qurumuna da bir pay ayrılması üçün göstərdiyi dəyərli və böyük istək bu gün hər kəsin ixtiyarına verilən, bizi sevindirən bu gözəl əsəri yaratmışdır.

Professor qısa bir zaman içində şərq ellərimizin müxtəlif urukları üzərində apara bildiyi təhlilləri bu kitabda toplamış, beləliklə, bizə çox dəyərli və usta əlindən çıxan bir araşdırma örnəyi bağışlamışdır. Həmçinin şərq uruklarımızın digər tərəflərdə yaşayan türk dialektləri ilə bağlı deyimlərini yazıya keçirən bu əsərin dəyərini hər bir dilsevərin asanlıqla anlayacağı şübhəsizdir.

Professorun yenə bu sahədə etdiyi nəşrlərdə tutduğu yolu pozmamaq üçün özü seçdiyi yazı işarətləri saxlanılmış və əsərin digər nəşrlərilə uyğunluğuna toxunulmamışdır.

Bu dəyərli əsəri ilə Qurumun bu istiqamətdəki çalışmalarını tamamladığı və gələcəkdə xatırlanacağımız bir elmi məhsulu nəşr edib ortaya qoymaq yolunu bizə açdığı və əsərin istər hazırlanmasında, istərsə də nəşrində böyük zəhmət və fədakarlıq göstərdiyi üçün professor Ə.Cəfəroğlu arkadaşımıza sayğı və təşəkkürlərimi bildirir, bu gərəkli yol üzərində ona və bütün dil tədqiqatçılarına hər gün artan müvəffəqiyyətlər diləyirəm.

**İ.N.Dilmen**
Türk Dil Qurumunun Baş katibi

## ÖN SÖZ

Türk Dil Qurumu himayəsilə nəşr edilən bu əsər Anadolunun müxtəlif dialektlərinə dair altı ildən bəri topladığım və indiyə qədər iki cildi İstanbul Universiteti tərəfindən nəşr edilən "Anadolu dialektolojisi üzərinə malzəmə" adlı əsərimin davamından başqa bir şey deyildir. Yalnız içərisinə aldığı ağızlar[13] malzəməsinin Anadolu ellərinin digər ağızlarına nisbətən azəri ağızlarına doğru olduqca böyük bir yaxınlıq göstərməsi və uzun illərdən bəri bu elimizin "Şərq vilayətləri" adı ilə adlanması səbəbindən bu əsərə "Doğu ellərimiz ağızlarından toplamalar" adının verilməsi uyğun görülmüşdür. Bu yeni seriyanın ilk cildində toplanan material şərq ellərimizdən ancaq Qars, Ərzurum və qismən də Çoruh elinin Yusufeli ağızlarını təmsil etməkdədir. Əslində isə, bu ağızların heç birisinə tam olaraq toplanmış və dəyərləndirilmiş nəzərilə baxılmamalıdır. Ellərin böyüklüyü qoruduqları ünsürlərin təkamülü və sahənin coğrafi mövqeyi göz önündə tutularsa, bu ağızların toplanmasındakı əksikliklər öz-özündən meydana çıxmış olar. Çünki hər eli əhatə edən kütlə heç bir vaxt öz çevrəsi içinə qapanıb kənardan gələn təsirlərdən özünü qoruya bilmədiyi kimi mütəmadi gəlib keçən və yerləşən bir çox türk və hətta yabançı urukların da təsirlərini öz üzərində az-çox hiss etmişdir. Hər bir türk qəbiləsi ilə uruk, boy və tayfasının yerli etnoloji və linqvistik həyat varlığı üzərində təsiri olduğu qədər sahənin coğrafi durumu da, şübhəsiz, yerli ağızın xarakteri üzərində təsir göstərmişdir. Bu baxımdan ağız, folklor və sairəsi öyrənilən hər bir elimizin mövqeyinin də daim göz önündə tutulması lazım gəlməkdədir. Mərkəzdən uzaq bir yerdə olan və içərisinə yeni tayfalar cəlb etməyən bir elimizin etnoqrafik və linqvistik həyatilə bir keçid mövqeyində bulunan və bir çox ehtiyaclar səbəbindən yeni tayfa və uruklara bir yaşayış yeri vəziy-

[13] "Ağız" deyərkən Ə.Cəfəroğlu "dialekt" sözünü nəzərdə tutmuşdur.

yətində bulunan başqa bir elimizin həyatı arasında çox fərq vardır. Birincisinin həyatı məhdud və müəyyən adət və ənənələrə bağlı, dar bir çevrə içərisində keçdiyi kimi zamanla bir çox orijinal ünsürlərini də qeyb etmiş və vaxtilə bütün əhaliyə aid mərasim, oyun və əyləncə kimi xarakteristik həyat təzahürləri artıq, əhəmiyyətsiz sayılaraq çocuqlara dövr edilmişdir. Bu kimi ellərin folklor xəyalı çox sönük olub, yerli dialektləri isə əski tipik xarakterini də müəyyən qədər qeyb etmişdir.

Əksinə, coğrafi durumu əlverişli olan bir el öz çevrəsinə cəlb etdiyi bir çox yeni türk boy və urukları sayəsində fövqəladə zəngin və rəngarəng folklora, adət və ənənələrə malikdir. Bu qəbil ellər hər biri ayrıca həqiqi həyat qaynağıdır. Burada qəbilə həyatı şərtlərində yerinə yetirilən mərasim və əyləncələrlə olduqca zəngin xalq ədəbiyyatı janrları və bu ədəbiyyatı ifadə edən ləhcə örnəkləri törənmişdir. Əsərin mövzusunu təşkil edən bu milli həyat qaynağına indiyə qədər dialektlərini toplamağa çalışdırğım otuza yaxın Anadolu elinin içərisində ən çox malik olanı Qars elidir. Bu bölgə dialekt baxımından indiyə qədər heç araşdırılmamışdır. 1942-ci ilə aid araşdırmamda ən çox yer, əhəmiyyətini nəzərə alaraq, bu elə verilmişdir.

❖

Birinci qanun ayının 3-ü[14] 1920-ci ildə Gümrü müqaviləsilə təkrar ana vətənə bağlanan Qars eli qoynunda yerləşən müxtəlif etnik ünsürlər baxımından olduqca zəngin dialekt və folklor janrlarına malikdir. Bura Şərq sərhədmizin sonu olması və coğrafi durumu səbəbindən, bir tərəfdən Azərbaycan, digər tərəfdən də Ermənistan və Gürcüstan türklərinə bir mərkəz vəzifəsini görmüşdür. Elin zəngin düzləri və çölləri illərdən bəri sərhəd olduğu türk uruklarının məskəni olmuş, köçəri həyat yaşayan və heyvandarlıqla məşğul olan tayfa, uruk və

---

[14] Dekabr ayının 3-ü

boylara bir keçid, bəzən də daimi yaşayış yeri olma vəzifəsini görmüşdür. Bu üzdəndir ki, bura Türkiyə Cümhuriyyəti sərhədləri içərisinə alınınca ətrafındakı bir çox türk urukları da istər-istəməz bu sahənin öz əhalisi içərisinə qarışmışdır.

Qars elinin əsl öz yerli oturaq əhalisi və müxtəlif türk urukları xaricində bir də son zamanlarda müxtəlif səbəblərlə buraya köç edən azəri türkləri də vardır. Bunların əksəriyyəti bir çox kəndlərə dağıldığı kimi, qəsəbələrdə də yerləşmişlər. Bu üzdəndir ki, Qars eli dialekt etibarı ilə fövqəladə rəngarəng və eyni zamanda təsəvvür edilməyəcək qədər zəngin və çeşidli folklora malikdir[15].

Qars elinin dialekt baxımından və sıra gözləmədən şərti bir təsnifini aparmaq lazım gələrsə, belə bir mənzərə alınmış olar:

**A. Yerləşmiş türk urukları ağızları**

1. Qaraqoyunlu uruğu ağızı;
2. Qarapapax, yaxud tərəkəmə uruğu ağızı;
3. Dünbüllü yaxud Çarıxçı uruğu ağızı;
4. Qacar uruğu ağızı;
5. Türkmən uruğu ağızı;
6. Ayrım uruğu ağızı;
7. Afşar uruğu ağızı;
8. Bayat uruğu ağızı;
9. Yerli öz Qars uruğu ağızı;

10 Muğan türkləri ağızı.

B. **Yeni gəlmə türk uruklari ağızı**

1. Axıska ağızı;
2. Axalkələk ağızı;

3.Qazaxlı ağızı;

[15] Ankara Universiteti Dil, Tarix və Coğrafiya fakültəsi Xalq ədəbiyyatı üzrə dosenti Pertev Boratav bu yolda fövqəladə böyük bir fəaliyyət göstərərək Qars elinin, bilxassə xalq hekayə və masallarını toplamaqla məşğuldur.

4. Qarabağlı ağızı;

5. İrəvanlı ağızı;

6. Borçalı ağızı;

7. Gəncəli ağızı;

8. Göyçay ağızı;

9. Makulu ağızı;

10. Naxçıvanlı ağızı.

Son on dialekt ümumi xarakteri baxımından əsl, digər Azərbaycan dialektlərilə bir küll təşkil etdiyindən və bu dialektdə danışanların özləri də mühacir mövqeyində olduqlarından onlarla bağlı materialların toplanmasına lüzum görülməmişdir. Yalnız bu dialektlərin olduqca bariz bir surətdə Qars eli dialektləri üzərində təsiri olduğu göz önündə tutulmalıdır. Qars elinə həmişəlik yerləşən digər uruklarla öz yerli Qars əhalisinə gəlincə, bunlar haqqında daha aydın mülahizə söylənməsi üçün haqlarında qısaca məlumat veriləcəkdir. Əsərdə hər bir uruğun dialekti haqqında müəyyən təsəvvür yaranması üçün onlar bir-birindən ayırd edilmişdir.

## QARAQOYUNLU URUĞU

Anadolunun digər ellərindən xaricdə olan bu uruğun Qars elində ancaq bir neçə kəndi vardır. Qaraqoyunlu adını daşıyan kənd ən böyüyüdür. Həsən xan Türkdən əldə etdiyim məlumata görə, Qars elindəki qaraqoyunlular aşağıdakı on iki boya ayrılmaqdadı:

1. Xan Yağıplı (Yaqublu);

2. Toxtamışlı (öz ifadələrinə baxılarsa, bu söz top və qamış kəlmələrindən yaranan mürəkkəb sözdür);

3. Mirili;

4. Musalı;

5. Kolalı;

6. Dodalı;
7. Halaşlı;
8. Rəhim oğlanları;
9. Baloğlannarı;
10. Göyçə bulaxlı;
11. Geşimli;
12. Qiraşbağlı.

Bu boylar haqqında ayrıca geniş bir məlumat əldə edilməmişdir. Nə kimi səbəblərdən və hansı tarixdən buraya gəlib yerləşdikləri haqqında xalq arasında dolaşan heç bir rəvayətə də təsadüf edə bilmədim.

Qaraqoyunluların bir qismi İran və Qafqaz Azərbaycanında yerləşmişdir. Bəzi yerlərdə sadəcə "türkmən" adı altında tanınmaqdadır.

## QARAPAPAX, YAXUD TÜRKMƏN URUĞU

Eyni uruğa verilən iki addır. Yerli Qars və axıskalılar bu uruğa sadəcə "qarapapax" adı vermişlər. Xalq içərisində bu ad həmin uruğun yalnız oturaq qisminə verilməkdədir. Əksinə, bu uruğun köçəri olanlarına isə tərəkəmə[16] deyilmişdir. Aşağı-yuxarı yüz il bundan öncə qismən Qafqaz, qismən də İran Azərbaycanından gəlib Qars eli ilə Aleksandropol qəzasının Ağbaba nahiyəsində və Gürcüstanın Axalsık və Axalkələk qəzalarında yerləşmişlər. Ruslar bunlara "qaraqalpaq" adını vermişlərsə də, Qafqaz Azərbaycanı türkləri arasında daha çox "tərəkəmə" adı ilə şöhrət tapmışlar.

Hansı tarixdə Azərbaycana gəlib yerləşdikləri haqqında dəqiq bir məlumatımız yoxdur. Bunların daha qıpçaqlar zama-

[16] Vamberi H. Yanlış olaraq bu uruğu tərəkəmə şəklində yazdığı kimi qarapapxları da ayrıca bir uruq olaraq qəbul etməkdədir (Das Türkenvalk, Leipzig, 1885, s.592)

nında buralara gəlmiş olmaları ehtimalı və Türküstan sahəsindəki qarapapaxlarla əski rus salnamələrində "Çornıye Klobuki" deyə keçən qövmün eyniliyi Zəki Validi tərəfindən irəli sürülməkdədir[17]. Məncə, məsələ ciddi araşdırmaya möhtacdır.

Əsilləri etbarı ilə Azərbaycan türklərindən sayılan tərəkəmələrin Ermənistan və Gürcüstanda yerləşənləri müəyyən zamandan sonra Azərbaycan mühiti içərisində ərimiş və bu üzdən öz uruklarının adlarını belə mühafizə edə bilməmişlər. 1926-cı il rus statistikasına görə Ağbaba nahiyəsində yerləşmiş olan qarapapaxların sayı ancaq 6311 nəfərdən ibatərdir. Qafqaz daxilindəkilər isə yerli əhali içərisinə daxil edilmişdir[18].

Çıldırda qarapapax, yaxud tərəkəmə olmayan türklərə, sadəcə, "çinçavat" deyilməkdədir. Bəzən də sırf bir həqarət olaraq bunlara "Bezbaş" da deyilir ki, bu da onlara, böyük bir ehtimalla, başlarına çox vaxt bez bağladıqlarına görə verilmişdir. Axıska, Ərdəhan və Axalkələk yerlilərinə də Qars və ətrafındakı əhali "Gağavan" adını verməkdədir. Kəlmənin əsl mənası "meyvəçi" olduğundan, yəqin ki, onlara bu ad sırf meyvə yetişdirmə ilə məşğul olmaları səbəbindən verilmişdir. Yenə də həqarət olaraq bəzən yerli əhali Azərbaycan mühacirləri üçün də "çinçavad" təbirini işlətməkdədir.

Köçəri tərəkəmələr içərisində ayrıca yerli əhali tərəfindən "mürid"adılə tanınan daha bir zümrə vardır. Bu zümrəni əsas tərəkəmə uruğundan ayıran başlıca xüsusiyyət yerinə yetirdikləri dini ayindir. Bir növ şaman ayinlərini xatırladan bu dini mərasimdə kişilərlə qadınlar bir məclis quraraq pərvanə tək dönüb çay içərlər. Və davul yerinə tənəkə çalaraq əsasən Seyid Həmzə Ni-

---

[17] A.Zeki Validi. Azerbaycan etnoğrafisine dair, "Azerbaycan yurt bilgisi", II, 1933, s.102

[18] G.F.Lyayster və G.F.Çursin. Qeoqrafiya Zakavkazya – Mavərayi Kafkasya coğrafiyası, (Ляйстер А.Ф., Чурсин Г.Ф. География Закавказя – tərtibçi) 1929, s. 321-322

garinin və başqa şairlərin çox vaxt mənasını bilmədikləri şeirlərini söylərlər. Aralarında ən böyük günah saqqal qırxmaq olduğu üçün həmişə uzun saqqal daşıyırlar. Yerli əhali bunlara çox mənfi bir nəzərlə baxmaqdadır. Bunları islam və türk saymazlar. Dağınıq halda müxtəlif tərəkəmə kəndlərində yerləşmişlər.

Bütün Qars elindəki tərəkəmə kəndlərinin sayı aşağı-yuxarı yüz on dördə çatır. Dialektləri Azərbaycanın Gəncə dialektinə çox yaxındır. Bunlar da mətndən də anlaşıldığı kimi təkhecalı kəlmə sonunda "b" yerinə "v"yə və "b"ləri "f"ye, feli birləşmələrdəki "b"ləri yenə "f"yə və kəlmə ortasındakı "c"ləri "j"yə çevirməkdədirlər[19]. Əsərin mətn qismində bu dialektə aid bol material vardır.

Qars eli tərəkəmələri, yaxud qarapapaxlar əslən türkmən olduqlarını qəbul etməkdədirlər. Aralarında ayrıca oğuz boyu təqdimatı belə mövcud deyildir.

Tərəkəmələr fövqəladə zəngin xalq ədəbiyyatına malikdirlər. İçlərində düzgün və olğun bir ifadə ilə saatlarca və hətta günlərlə nağıl və dastan söyləyənlər bulunmaqdadır. Əski və yeni çox xalq aşıq və şairlər vardır. Müxtəlif zamanlarda yetişmiş və bu dialektdə nəğmə və şeirlər yaratmış olan bir çox tərəkəmə şairi Fəxrəddin Çelik tərəfindən müəyyən edilmişdir. Nəzər-diqqətə alınacaq bu tərəkəmə şairləri əsasən bunlardır:

1. Bağdad (XVI əsr qadın xalq şairlərindəndir. Əsli etibarı ilə Çıldırdandır).
2. Xəstə Qasım (XVIII əsrdə yaşamış. Əsli etibarı lə zarşatlıdır).
3. Qurbani (XVIII əsr Qars şairlərindəndir).
4. Bala bəy (XIX əsrdə yaşamışdır. Zarşatlıdır).
5. Hoca İrfani (XVIII-XIX əsr el şairidir. Çıldırlıdır).
6. Sadayi ((XIX əsr Çıldır el şairidir).

---

[19] Ətraflı məlumat üçün bax: Djafaroğlu Ahmet. 75 Azerbajğanische Lieder "Bajaty", Berlin, 1930, s.27

7. Şenlik (XIX –XX əsr el şairidir. Çıldırlıdır, böyük bir şöhrətə malikdir. Oğlu da şairdir).

8. Rəsul (XIX-XX əsr Çıldır el şairlərindəndir).

9. Xasta Hasan (XIX əsrdə yaşamışdır).

İndi həyatda olan başlıca el şairlərindəndən zikr edilənlər: Hüseyn, Gülüstan və Hicranidir. Gülüstandan bəzi parçalar mətnlərdə mövcuddur.

## DÜNBÜLLÜ, YAXUD ÇARIXÇI URUĞU

Əsil adları Dünbüllü olduğu halda Qars əhalisi bunlara yerləşdikləri kəndin adı ilə "Çarıxçı" adını vermişlər. Dünbüllü olan Qüdrətullah İydirlidən əldə etdiyim məlumata görə bunlar əsilləri etibarı ilə xoylu olub vaxtı ilə buraya hicrət etmişlər. Hicrət etdikləri tarix də özlərinə məlum deyildir. Bunların ən irəli gələni Əli Qızıllı oğlu bəy adlı birisi olmuşdur. Bunun idarəsi altında Xoyu tərk edərək İqdıra gəlib yerləşmişlər.

Ruslar İqdırı işğal edincə bunlar da yenidən digər bir yerə köçməyə məcbur qalmışlar. Tərk etdikləri sahəni isə ermənilər işğal etmişlər. Əski yerləri olan İqdıra bir daha dönə bilmədiklərindən Çarıxçı kəndində yerləşməyi daha uyğun bilmişlər. Son köçləri əsnasında İrəvan iranlıların hakimiyyəti altında idi. Uruk başçıları da Əhməd xan Dünbüllüdür. Hakkari və Qars qalasını yapan bunlardır. Mənşələri haqqında özlərindən əldə etdiyim məlumatlardan anlaşılır ki, bu türk uruğunun adı Dünbüllü və əsli etibarı ilə Xoy türklərindəndir. Bu gün Qars elində yerləşdikləri kəndlər bunlardır:

1. Yuxarı Çarıxçı;
2. Aşağı Çarıxçı;
3. Küllük;
4. Çiti;
5. Yuxarı Ərəbgir;

6. Aşağı Ərəbgir.

Ən sıx kəndləri Yuxarı və Aşağı Çarıxçı kəndləridir. Digərləri isə çox kiçikdirlər.

Qars eli dünbüllüləri beş əsas boya ayrılmaqdadırlar:

1. İqdırlı boyu;
2. Dədəxan;
3. Sabirxan;
4. Hacı baba;
5. Gödəklər.

Əhalisinin sayı haqqında səhih bir məlumatım yoxdu. Dialektlərinə aid material da o qədər zəngin təmsil edilməmişdir.

## QACAR URUĞU

Anadolunun digər sahələrində yerləşənlərdən başqa bu türk uruğuna Qars elində ancaq bir kənddə təsadüf edilməkdədir. Qacar Tohançalı adını daşıyan bu kənd yüz evdən ibarətdir. Əsas mərkəzlərini İran təşkil etməkdədir. Bir qismi də Qafqaz Azərbaycanı ilə Mosul elində yerləşmişdir.

## TÜRKMƏN URUĞU

Qars eli türkmənlərini başlıca iki coğrafi məkana ayırmaq mümkündür. Bunlardan birinci məkana daxil olanlara Ərdəhan, ikinci məkana daxil olanlara isə Qars türkmənləri adı verilə bilər. Ərdahan sahəsindəkilər daha artıq köçəri olub çox qaba bir dialektə malikdir. Qarsdakılar isə, əksinə, oturaq olub yerli Qars əhalisinin dialektlərinə yaxın, düzgün bir dialektdə danışmaqdadırlar. Yerli əhali ilə sıx təmasları nəticəsində öz dialekt xüsusiyyətlərini mühafizə edə bilməmişlər. Öz söylədiklərinə baxılarsa, əsilləri etibarı ilə Çepnidirlər. Aralarında İqdır, Bayındır və İmrəli kimi boy bölümlərinə də rastlanmaqdadır.

Qars elində yerləşən türkmən kəndlərinin sayı qırx beşə yaxındır. İçlərində əski öz dialekt xüsusiyyətlərini mühafizə edənlər də vardır[20].

## AYRIM URUĞU

Hansı tarixdən etibarən Qars elinə gəldikləri haqqında məlumatımız yoxdur. Daşıdıqları uruk adı üzərinə bunları "Əl-Rumi", yəni Rum elindən gəlmə sayanlar olduğu kimi yenə "ayrım" kəlməsinin sadə təhlili üzərinə bunların digər türklərdən ayrılmış bir uruk olduğunu iddia edənlər də vardır[21]. Səlcuqların məğlubiyyətindən sonra bu günkü Gəncə və Qarabağ civarında yerləşdikləri söylənməkdədir. Bir qismi XVI əsrin sonlarına doğru İrana keçərək Ərdəbil sahəsində yerləşmiş və "şahsevənlər" adını almışdır. Qafqaz Azərbaycanında yerləşənlər bir neçə qismə ayrılmışlar.

Qars elində yerləşən ayrımlar aşağı – yuxarı altmış altı kənddən ibarətdir. Əksəri İqdır qəzasının Duzluca sahəsində yerləşmişdir. Mərkəzləri Pernevitdir. Daşıdıqları soy adları da öz uruklarının adı olan ayrımdan yaradılaraq ayrımlı olmuşdur. Özlərinə məxsus və diqqətə dəyər bir dialektə malikdirlər.

## BAYAT URUĞU

Yayılışı səlcuqlar hərəkatı ilə sıx bağlı olan Bayat uruğu digər türk urukları ilə bərabər Xəzər dənizinin cənubundan keçərək Azərbaycanda, Türkiyə və İraqda yerləşmişdir. Bu gün onlara İzmir ərazisində, Adanada Kozan dağlarında və

---

[20] Anadolunun cənubunda yerləşənlər üçün bax: Ali Rıza, Cenupta Türkmen oymakları, I, İstanbul, 1931-1932, II-III, Ankara, 1934; IV-V Adana, 1934-1939

[21] Olduqca diqqət çəkən etnoqrafik məlumat K.Karakaşlının "Об Айрумах" ("Ayrımlar haqqında") məqaləsi vardır. "Известия о-ва обследования изучения Азербайджана», VIII, 1929

İslahiyə nahiyəsində rastlanmaqdadır[22]. Mosulla Bağdad arasında yerləşən bayatlar, şübhəsiz, bu böyük uruğun bir qolu olduğu kimi Qars elinin Bayat Tohançalı adlı kəndində yerləşənlər də vardır. Mazandaran, Tehran və Xorasan ərazilərində yerləşən bayatlar vaxtilə "qızılbaş" adını almışlar[23]. İrandakı yayıldıqları sahə haqqında daha çox məlumata Məsud Keyhanın "Coğrafiyayi-müfəssəli İran" əsərinin (11, s. 86-276) təsadüf etmək mümkündür.

## AFŞAR URUĞU

Anadolu türkmənlərinin ən böyük uruğunu afşarlar təşkil etməkdədir. İran[24] və Qafqaz Azərbaycanında olduqca çoxdurlar. Anadolunun müxtəlif yerlərindəkilər xaric Qars elində afşarlara çox az təsadüf edilməkdədir. Ən çox yerləşdikləri sahə Ərdahanın Hoçuvan nahiyəsinin mərkəzi olan Hasköydür. Burada 40-50 ailədən çoxdurlar. Bəzi afşar ailəsi dağınıq halda İqdırın Daşburun nahiyəsinə səpələnmişdir. Mənim topladığım material bu afşarlara aiddir.

Bunlar öz əsas varlıqlarını mühafizə edə bilməmişlər. Bu üzdən oğuz türklərinin dəyişik bir uruğunu təşkil etməkdədirlər. Hətta Qars elindəkilərin bir qismi ilə Badıllı, yəni Bəgdili uruğu yerli kürdlərlə qarışmış vəziyətdədir. Başqa-başqa olan bu iki uruk arasındakı evlənmə nəticəsində kürd dili afşar uruğu dialektinə çox təsir göstərmişdir. Mənim dialektlərindən material topladığım afşar bu cins afşardır. Dialekti qə-

---

[22] Fuat Köprülü. Oğuz etnolojisine dair tarihi notlar, "Türkiyat mecmuası", 1, s.198-205

[23] Baharlı. Azərbaycan, Bakı, s.38

[24] Məsud Keyhan. Coğrafiyayi-müfəssəli-İran, Tahran, 1311, s. 86, 92, 253-254

dim kürd türkcəsi dialektinə uyğunlaşmaqda olduği kimi kürdcə də yaxşıca danışmaqdadır.

Qars eli afşarları arasında boy ayrılmasına da təsadüf etmədim. Bunlar daha çox soya görə ayrılmışdırlar. Ən əsas soylarını Zilli və Pirabadi təşkil etməkdədir. Antitoros ətəklərində yaşayan afşarların dialektinə dair indiyə qədər nəşr edilən yeganə materialları Hamit Zübeyr toplamışdır[25].

## YERLİ QARS ƏHALİSİNİN ÖZÜ

Bu təbir altında daha qədimdən bəri bu sahədə yerləşən türk əhalisi nəzərdə tutulmuşdur. Düzdür, onlar müxtəlif müharibələr səbəbindən qismən Anadolu içərilərinə, qismən də Qafqaz Azərbaycanına hicrət etmişlərsə də, sonda təkrar bu sahəyə gələrək yerləşmiş və müəyyən qədər əski dialekt xüsusiyyətlərini mühafizə edə bilmişlər. Bunların dialektləti aşağı-yuxarı Ərzurum dialektinin eyni olmaqla bərabər əhəmiyyətli bir surətdə müxtəlif urukların və o cümlədən, gəlmə Azərbaycan mühacirlərinin təsiri altında qalmışlar. Bu üzdəın Qars elinin yerli əhalisinin dialektlərini də başlıca bir neçə bölümə ayırmaq mümkündür. Bunlar aşağıdakı kimi təsnif edilə bilər:

1. Qars kəndlərinin dialekti;
2. Zarşat əhalisinin dialekti;
3. Ərdahan əhalisinin dialekti;
4. Poshof əhalisinin dialekti;
5. Bardız əhalisinin dialekti;
6. Şüregel dialekti və s.

---

[25] Afşar Türk ağıtlarına dair, "Türk yurdu", 1928, sayı 5-199, s. 21-24. Burada toplanan material əski ərəb hərflərilə olduğundan bütün dialekt xüsusiyyətləri o qədər də dəqiq deyil. Anadolu afşarlarının yayılması ilə bağlı bax: Vamberi H. Das Türkenvolk, Leipzik, 1885, s.607 və Krayliç və Ravlig. Türkmen aşiretleri, İstanbul, 1834, s.233, 164-172

Bu kiçik dialektlər arasındakı fərqlər əhəmiyyətsiz olduğundan bunların şərhinə lüzum görülməmişdir.

## MUĞAN TÜRKLƏRİ

Bunlar daşıdıqları ada baxılarsa, Azərbaycanın Muğan düzündən gəlmə olub Qars elinin Arpaçay qəzasında Başkediklər nahiyəsi daxilində Astahana adlı bir kənddə yerləşmişlər. 300-400 evdən ibarətdirlər. Dialektlərinə dair material toplanmamışdır. Astahana kəndində əski Muğan türkləri bəylərindən bir də Şəmsi adında bir nəfər yaşamaqdadır. Bu qədər müxtəlif türk boy və uruklarını içərisinə alan Qars eli, şübhə yoxdur ki, dialektinə görə də bir çox fərqlərə malikdir. Eyni şərqinin, yaxud nağılın bir çox uruklar içərisində söylənişi və hər bir uruk tərəfindən mənimsənilməsi ilə yanaşı, zamanla onlara yeni ünsürlər əlavə olunmuş, həmçinin dialekt etibarı ilə də əski bəkarətini mühafizə edə bilməməsinə gətirib çıxarmışdır. Bu səbəbdəndir ki, bu elə ait toplanan materiallarda eyni kəlmə bir neçə tələffüz şəklində əks olunmuşdur. Məsələn: "ev, əv, öy"; "çavdar, çodar"; "ovuç, oyuç, öyüç" və başqaları kimi. Bunların yazıya alınmasına əlimdən gəldiyi qədər diqqət edilmiş, kəlmənin o və ya bu dialektə görə təshihinə lüzum görülməmişdir.

## ƏRZURUM AĞIZI

Əsərin əsas ağırlığını təşkil edən Qars eli xaricində ayrıca buraya Ərzurum və Çoruh elinin Yusufeli dialekti də daxil edilmişdir. Bu iki elin dialekti birinciyə nəzərən daha çox tamamlanmaya möhtacdır. Hələ Çoruh eli sanki əl vurulmamış bir haldadır.

Xarakter etibarı ilə Ərzurum dialekti mənim topladığım materiallara görə, aşağı-yuxarı əsl Qars eli əhalisinin dialekti-

nə yaxındır. Yalnız bu iki dialekt arasında gözə çarpan xüsusiyyət Ərzurum dialektindəki "k" yerinə "ç", "g"lərin "c" ilə "gy" arasında tələffüz edilməsidir. Əsas fərq təşkil edən bu xüsusiyyət xaricində digər bir çox kiçik nöqtələr də göstərilə bilərdi. Fəqət hər iki dialektdə qalın köklərə artırılan şəkilçilərin incə olması aralarıındakı sıx yaxınlığı göstərən dəlillərdəndir. Məsələn, hər iki elin dialektində "həmşirə" mənasında işlədilən "bacı" kəlməsi mənsubiyyət şəkilçisi ilə "bacisi", yaxud "dolu" kəlməsi "doli" tələffüzü ilədir. Bu baxımdan, mən əlimdəki materiala əsasən bu iki dialekti, bəzi fərqlərə rəğmən, bir qrupda yerləşdirmək tərəfdarıyam.

Ərzurum eli dialektinə aid materiallar da digər ellərdə olduğu kimi indiyədək kifayət qədər toplanmamışdır. Bu dialektə dair indiyə qədər aparılan araşdırmalardan dr.Sadəddin Buluçun "Anadolu ağızları biblioqrafiyası"[26] adlı məqaləsində bəhs edilmişdir.

## ÇORUH ELİ AĞIZLARI

Topladığım material, bir az yuxarıda söylədiyim kimi, yalnız bu elin Yusufelinə aid olduğundan burada bu bölgənin bütün dialektləri haqqında hər hansı bir fikir yürüdülməsinə imkan yoxdur. Yalnız bu qədərini söyləyə bilərəm ki, buranın dialekti xarakter etibarı ilə Qars və Ərzurum ellərindən tamamilə fərqlidir. Bura, deyəsən, daha çox Qara dəniz sahilinin bu ərazidəki dialektlərilə bir qrup təşkil etməkdədir. Qəti bir qənaət ancaq gələcəkdə toplayacağım materiallarla müəyyənləşdiriləcəyindən burada irəli sürülən fikirlərin ehtiyatla qeyd olunduğu nəzərə alınmalıdır.

---

[26] Sadeddin Buluç, Anadolu ağızları biblografiyası, "Türkiyat macmuası", VII-VII, s. 321-333

Materialların hazırlanmasında müraciət etdiyim metod, ümumiyyətlə, canlı ağızdan toplanma zamanı hər kəsin tətbiq etdiyindən fərqli deyildir. Hər yerdə dialekti təsbit edilən adamların yerli və əslən türk olmalarına diqqət yetirildiyi kimi öz eli çərçivəsindən kənara çıxmayanlara üstünlük verilmişdir. Danışıq cihazlarının normal olması da bu kimi toplamalarda əsas olaraq qəbul edilmişdir. Dialekti toplananların əksəriyyəti məsələnin ruhuna vaqif olmadıqları üçün daim ya utancaqlıq göstərir, ya da ədəbi dildə danışmaq istəyirlər. Buna görə də nağılların bir qismi nağılların baş hissəsi daha çox ədəbi bir şivəyə, ortası həqiqi yerli dialektlər, sonu isə hər iki hissəni birləşdirən bir ədaya malikdir. Bir nağıl içərisində eyni kəlmənin müxtəlif tələffüzlə keçməsi bununla əlaqədardır. Bəzən sürətli tələffüzlə bir-birinə birləşən bir neçə kəlmənin müəyyənləşdirilməsi imkansız hal alır. Bu kimi çətinliklərin aradan qaldırılması yerli dialektləri bilən arkadaşların yardımı vasitəsilə olmuşdur.

Toplanan dialektlərin bütün incəliklərinin yazı ilə ifadə edilməsinin çox müşkül olması hər kəsə məlumdur. Lakin heç olmasa, əsas xüsusiyyətlərin təsbiti üçün məcburən bəzi fonetik işarələrdən istifadə olunmuşdur.

❖

İllərdən bəri türk ziyalılarının əhəmiyyət vermədiyi, fəqət gerçəkdə milli kültür varlığımızın ən zəngin qaynağını təşkil edən Anadolu dialektləri ilə folkloru, təəssüf ki, indiyə qədər metodik bir surətdə toplanmamışdır. Və ancaq bəzi Avropa şərqşünaslarının səyahətləri zamanı topladıqları çox az bir material ilə kifayətlənilmişdir. Türk dili araşdırmalarının əsasında dayanan bu sahənin əhəmiyyətini nəzərə alan İstanbul Universiteti ilə Maarif Vəkilliyi, nəhayət, həmin işin də yerinə yetrilməsini öz vəzifəsi sayaraq bu yoldakı altı ildən bəri davam edən fəaliy-

yətimi əlindən gəldiyi qədər himayə etmişdir. Türk Dil Qurumunun da bundan belə bu işə layiqincə önəm verəcəyinə əminəm.

1941-ci ildə etdiyim səyahəti İstanbul Universiteti ilə Türk Dil Qurumuna borcluyam. Burada bu iki elm ocağına fəaliyyətimə göstərdikləri diqqət və himayəyə görə təşəkkürlərimi bildirməyi özümə şərəfli bir vəzifə sayıram.

Belə ki, bu iki elm ocağı qədər mənə bu çox ağır və yerinə yetirilməsi təsəvvür edilməyəcək qədər çətinliklərlə dolu çalışmalarımda istirahətimin təminatı baxımından yardımçı olan Ərzurum lisəsi müdiri Rəşat Özbayoğluna, Qars lisəsi müdiri Semih Atadəmirə, material toplanmasında fəaliyyətimə böyük diqqət göstərən hörmətli general Sahab Gürlərə, fəaliyyət zamanı mənə arkadaşlıq edən Ərzurum Lisəsi tarix müəllimi A.Şerif Beyguya, Fahreddin Çeliyə, Qars Xalq Evi rəisi Hüseyn xan Talınlıya, dr. Kamil Arrana, Qars bələdiyə rəisi Mehmet Bağatıra ayrı-ayrı təşəkkür etmə mənim üçün candan gələn bir istəkdir.

**Əhməd Cəfəroğlu,**
**professor**

# BİRİNCİ BÖLÜM

# QARAQOYUNLU URUĞU AĞIZI

## BENAMAZ

Vaxdın, zamanın birində üş kşi[27] getmiş İrəvan tərəfinnən düyü pişməyə. Bu üş kişinin iksi namaz qılanmış, bi dənə qılmıyanmış. Bu ikisi namaz qılanda aftafa götürəllərmiş dəstəmaz almağa. Sora əvdasxanəyə[28] getdiyi zaman da aftafa götürəllərmiş.

Bu namaz qılmıyan da aftafa götrərmiş. Ağalar bir gün sormuş ayləsinin yanında, demiş:

– Namaz qılarmısız?

Olar da yəminnən[29] söyləmiş ki:

– Qılarıx.

O namaz qılmıyannan da sormuş:

– Sən də qılarmısan?

O da deyif ki:

– Mən beş vaxt namazımı qılaram. İçim nə qədər sıxı olsa, gənə qılaram.

Ev saabı demiş ki:

– Sağ ol, bavana irəhmət, dədənə irəhmət. Demiş:

– Namaz neçerketdi[30]?

Bu demiş:

– Qırx erkətdi.

Bu buları güdüf, arxadaşları əvdəsxanyə gedəndə aftafanın suyiylə təmizlənillərmiş. Bu namaz qılmıyan da aftafanı aparıf suyu bir yerə tökərmiş ki, desinnər bu da namaz qılır.

---

[27] kişi
[28] abdəstxana
[29] and verərək
[30] neçə rükətdir

Ev saabı gedif görüf kü, bu suyu elə bir yerə töküfdü, gəlif, deyif ki:

– Sən deyirsən ki, mən namaz qılıram bə, yalançı. Söylə, baxalım doğrusunu. Namaz neçərkətdi?

Bu deyif ki:

– Bayax da dedim ki, qırx erkətti namas.

Elə deyəndə ev saabının arvadı ağaş götürüf üçün də qovuf.

Arvat deyif ki:

– Özüüz bilmirsiz, gedin, beş ermənidən, beş musurmannan xəvər alın. Namaz qırx erkət olarmı?

Bular düyü pişdikləri mərəndiyi[31] aldılar, yola düşdülər. Yolda bu iki namaz qılan yoldaşları bu namaz qılmıyan yoldaşına dedi ki:

– İt oğlu, – dedi, – bilmirdin, deyərdin on yeddi erkətdi, ya beş erkətdi, bu qırx erkəti niyə yalan dedin?

O namaz qılmıyan da qılannara dedi ki:

– İt oğlu itdər, ağamız arvadı qırx erkətə irzı olmadı, az bildi. On yeddi erkətə qail olarmıdı, on yeddi erkət azdı.

Bular gəlillər molluya şikayəd edillər. Deyillər ki:

– Bu yoldaşımız namaz az söylədi, ağamız bizim fəhlə haqqımızı vermədi.

Molla da deyir ki:

– Benamaz, sən namazı yalan söylüyüfsən. Orda buların haqqını şəriətcə evindən, malından verəcəksən.

Alır, buların haqqını verir. Onunnan benamazın uşağı aj qalır. Bu benamazın arvadı əriynən döyşür. Deyir ki:

– Sənin evin yıxılsın. Sən o dünyaa nə cəvaf verəssən? Sənin tayların namaz qılır. Sən namaz qılmadınnan uşağımızın urzasını şəriyət aldı, verdi namaz qılannara. Ya məni boşuyacaxsan, ya namaz qılacaxsan.

---

[31] Düyü biçmək üçün kişik bir alət

O da deyir ki:

– Mənim saqqalım bu yerə gəlif, örgənməmişəm, təzdən mən haradan örgənəcəm?

Bunu oğlannarıynan arvadı evdən qavullar. Ağlıyır, alla-taala tərəfinnən əl götürür. Deyir ki:

– Mimari mismara döndərən allah, sayili, dilənçi borşdan qutaran allah, axuyu balasına göndərən allah, məni ya bir ölüm, ya bir zehin, namaz örgənim.

Gejə yatır bir xaravanın birində, evə qomullar. Yuxsunda görür kü, deyillər:

– Get, sən Məşət Şükürə nökər ol. Həm haqqını al, həm də namaznı qıl, allahına şükür elə, ölür günün gəlir.

Bu namazını, ev saabı namaz qılanda bu da səjdə edər, qılarmış. Bu örgənif bir sənənin içində namazı. Haqqını da alıf ağasınnan, evinə də gəlif. Gəlif bir həftə namaz qılıf evində. Bunun oğlannarı da ölüf, arvadı da ölüf. Bu gedif namaz örgətdii adamın ot tayasına od verif, yandırıf.

Ot saabı deyif ki:

– Mənim ot tayamı niyə yandırdın?

Bu deyif ki:

– Allah sənin evini yıxsın. Sən mənə namaz örgəttin, mənə namaz düşmədi. Arvadım da öldü, uşaxlarım da öldü. Evim də yıxıldı. Mənə namaz düşmədi.

Bu başını alır, başqa məlməkətə[32] gedir, gedir o məlməkətdə hər bir tərəfini dolanır. Qatıx satır, saqqız satır. Baxır ki, bir zəngin qarı[33] var bir Şiddi koyunda[34]. Baxır ki, qarnın qapısında beş-altı nökər çalışır. Ona deyf ki:

[32] məmləkətə
[33] arvad
[34] kəndində

– Sənin ərin yoxdu, bu qədər dünya malını, paranı[35] hardan alıfsan?

Bu deyif ki:

– Mən ərə getməmişəm. Bu dünya malını özüm qazanmışam. Allah da verifdi

Həmən benamaz namaz örgənif. Axırında evin yıxan buna, qarya deyif ki:

– Mənə gələrsənmi?

Deyif:

– Gəlmənəm.

Deyif:

– Niyə gəlməzsən? Sənin qoynun ərnən yatmax istəmirmi?

Deyif:

– İstiyir, mən öz nəfsimə düşman oluram.

Bu benamaz demiş ki:

– Niyə öz nəfsinə düşman olufsan, səbəbbiyyətini de.

Qarı deyif ki:

– Səbəbi budu. Mən elə adama gedərəm ki bu var imannan baravar, heş allahın işinə qarışmıya.

Haman benamaz deyif ki:

– Mənnən allahın nə işi. Allah göydə, mən yerdə.

Arvat deyif ki:

– Allahın işinə qarışmasansa, mən gələrəm.

Bu da qol çəkir ki, mən allahın işinə heş qarışmazam. Arvat gəlif, benamazı da alıf, bir zaman yeyif-içif, safa sürüflər.

Bir müddətdən sonra arvat deyif ki:

– Mənim Aladağda dədəm evi var, gedək dədəm evni görməyə.

Benamaz deyif:

– Gedək.

---

[35] pulu

Gedif, bir çox yeyif-içəcək, şirni alıf, gətrif. Gediflər orvadın dədəsi evni görməə. Orda yeyif-içif, bir zaman dədəsinin evində arvadıynan baravar qalıflar.

Bür gün arvadı deyif:

– Ərim, gedək, evmiz saabsız qalıf, nökər-naif indi evmizi dağıtdı.

Bu da deyif ki:

– Mən sənə baxıram, arvat, gedirsən, gedək.

Savaxnan bunnar atdarı minif, yola düşüflər, üz çevüfüflər evlərnə doğru gəlməə. Az gəliflər, çox gəliflər. Bir zaman baxıflar ki, yağış yağır.

Əri deyif:

– Arvat, sür, yağış yağır. Bizi isdadacax.

Arvat o zaman briynən[36] heş danışmıyıf. Atı çapıf evinə. Gedif, yetişif ərinnən əvvəl, atdan düşüf, atı verif nökərrərə. Nökərrərə deyif ki:

– Mənim o benamaz ərim gələndə heş qoymayın yaxına gələ. Tapançaynan vurun.

Əri də gəlif üş aat[37] sora yetirif arvadının minarasına atdan düşüf. Nökərrəri səsliyif:

– Gəlin, atı tutun, – deyif.

Nökərrər haman tapançaynan buna güllə atıflar. Deyiflər ki:

– Arvadın dedi, söz budu. Onnan ər olmaz, vurun, ölsün, qoymuyun yaxına gələ.

O ağlıyıf, deyif:

– Qoyun mən bir arvadımı görüm, ağzınnan bir cavaf alım, onnan sora gedim.

Bular buraxmıyıflar, deyiflər olmaz.

---

[36] heç kimlə
[37] saat

Gedif koyluları[38] minnətçi gətirif arvada. Koyluları yolluyuf arvadın evinə. Koylular bu arvada çox minnət eliyiflər. Deyiflər:

– Heç olmazsa, bir müddət baş yastığa qoyfusuz baravarrıxda, ərindi. Sən onun sözünü al, o da sənin sözünü alsın, görək nədən oldu. Əvvəl özün getdin, indi də qoymuyursan.

Arvat deyif:

– Saba günorta üstü evimi camahatnan çağracam gələ.

Saba günortaya qədər arvat qoyun öldürüf, öküz öldürüf, düyü gətitdirif, düyü pilovu bişitdirif, çörəh yapdırıf, çay qoyduruf, gizir[39] bağıtdırıf, deyif:

– Günortadı. Camahat uşaxdan böyügə mənim o benamaz ərimi də götsünnər, gəlsinnər.

Camahat gəlif, yerbəyer xalının, xalçanın üstündə oturuflar, əri də başda. Çalışannar pilovlar çəkiflər nimçələrə, çörəhləri qoyuflar sinilərə. Hazır oluf, bir dənəsi gəlif, deyif ki, orda da bir axunt varmış:

– Axund əmi, bir Quran oxu, ərtmək[40] gətirək.

Axunt Quranı oxuyuf, tafşırıf o ocxadan[41] gedən öllərə.

Qurannan sora çörək gəlif, pilov gəlif, axund deyif ki:

– Pismilla irəyhmanirrəhim, buyurun.

O zaman hər kəs yemək yeməə başlıyı.

Yeyif qurtulduxdan sonra çörəyi, pilovu yığışdırıblar. Arvat girif içəri, deyif:

– Camahat! Məni bağışlayın, böyükləriniz dədəmdi, uşaxlarınız da qardaşımdı. Mənim bu benamaz ərimin üzünnən səsimi camahat eşitdi, üzümü də camahat gördü. İndi mən munu evimə qoymuyacağımı deyjəm. Bu da qol versin

[38] kəndliləri
[39] gözətçi
[40] yemək
[41] ocaq

ki, mənim vaxtım zamanın birində ikimizin arasında, bir söz oldu, onu danmasın, mən deyim.

Benamaz qol verdi, dedi ki:

– Qulaxlarım kar olsun, əyər dediyim sözü dansam.

Arvat dedi:

– Camahat qulağ asın. Bu məni istədi. Mən dedim, gəlmənəm. Bu dedi ya sən ərnən yatmax göönün[42] istəmirmi? Mən dedim istiyi, mən o adama gəlləm ki, o Allahın işinə qarışmıya. Bu da dedi ki, Allah yerdə, mən göydə. Mənim Allahın işində nə işim.

Bu deyif ki, indi ki sən Allahın işinə qarışmasan, mən malım, varyatımla gəlləm. Bular qərəl[43] qoyuflar, nikah kəsiflər, bu gəlif, o da alıf.

Deyif:

– Bu benamazdan xəvər alın. Dədəm evinnən gələndə niyə dedi ki: "Arvat, atı sür, yağış bizi isdadacax?"

Deyif:

– Camahat, xəvər alın, görün o bu sözü deyif, demiyif?

Xəvər alıflar, benamaz deyif ki:

– Bəli, doğrudu, demişəm.

Arvat deyif ki:

– Bu Allahın işi deyilmi, sən qarışırsan, yağış yağır yerinə, yurduana. O yağışın hərəsini bir məleykə gətirif yerə qoyur.

Arvat deyif ki:

– Söz tamam.

Nökərrəri səsliyif, hamsı əli qılışlı, deyif ki:

– Bunnan sora hər kəs danışsa, onun boynu vurlacax. Deyin:

– Axund əmi, məni boşa.

Axund deyif ki:

[42] könlün
[43] qərar

– Qızım, qoy bir ərinnən də bir xəvər alım.
Axund deyir:
– Oğlum, arvadın boşanır, sən də boşyursanmi? Şəriətin işidi xəvər almax.
Kşi deyif ki:
– Axund əmi, əyə boşanmasa, boşanmanam.
Axund deyif:
– Qızım, nə deyirsən?
Deyif:
– Axund əmi, ərşi alladan Cəbəil yensə də, genə boşanajam.
Benamaz deyif:
– Axund əmi, boşa. Əvvəl başdan mənim evmi yıxan namaz oldu. Mənim evim də vardı, uşağım da vardı. Atmış yaşında namaz örgəndim, axırım belə oldu.
Qalxıflar, hamı çıxıf eşiyə. Deyif:
– Camahat, sizə mənim də bir sözüm var, halallaşax, deyim, gedim.
Deyif:
– Camahat, gedin dünyada yeyin, için. Allahın işinə qarışmıyın. Gördünüz ki, əvvəlində mənim evmi namaz yıxdı, axrında da qulağınızla eşitdiniz. Allahın işinə qarışmax yıxdı, – deyif, halallaşıf getdi.
Gedif, dəstəmaz alıf, namaz qılıf, eşedini[44] oxuyuf, özünü dəryıya atıf.
Bu da benamazın sonu.

***Hasan Xanoğlu Türk***
***(İğdır, Qaraqoyunlu kəndindən)***

[44] kəlimeyi-şəhadət

## SÖZ

Deyir, əzizim, incə belə,
Su gəlir incə belə.
Sənək qulfun[45] qırılsın,
Nə mnifsən[46] incə belə.

---

Əzizim, o nə sədaydı gülşannan[47] gəldi sərimə,
Deyir, bülbülnən gülün xar davasıdı.
Annıyannar deyir, eşq havasıdı,
Annamıyannar deyir, ağlı zayıldır.

---

Sizə qurvan,
Eləmi, sürməli gözə qurvan.
Çəkməli qıza qurvan.
Bəzanmış, toydan gəlir,
Tərrəmiş üzə qurvan.

Əzzim, dalda yeri,
Eləmi, daldadı dalda yeri,
Müxənnət gözdərim gənə axtarır,
Tez tapar gənə dalda yeri.

---

Əzzim, göy bağlar,
Göy baxçalar, göy bağlar.
Gözəllərdə bu nə qaydadı,
Ağ üstünnən göy bağlar.

---

Əzzim, kəs aranı,
Doldur ver, kəs aranı.

---

[45] qulpun
[46] minibsən
[47] gülüstandan

Ellirsən, dosluğ elə,
Eləmirsən, kəs aranı.

*Hasan Xanoğlu Türk*
*(İğdır, Qaraqoyunlu kəndindən)*

## QIZLA ANASININ TÜRKÜSÜ

**Qız deyir:**

Savahnan qalxdım, anam,
Çermiyə[48] vardım, anam,
Çöl olacax çermikdə,
Yaylıx itirdim, anam.

**Anası deyir:**

Baxça bariydi qzım,
Heyva, nariydi, qzım.
Çöl olacax çermikdə,
Kimlər varidi, qzım?

**Qız deyir:**

Baxça bariydi, ana,
Heyva nariydi, ana.
Çöl olacax çermikdə,
Mahmut variydi, ana.

**Anası deyir:**

Mahmudu görəm, qzım,
Bir suval alım, qzım.
Suvalım verməsə,
Evini taleyim[49], qzım.

**Qız deyir:**

Mahmuddu coşar, ana,
İnada düşər, ana.

---

48 bulaq
49 talayım

Bir yaylığın ucunnan,
Kötülük[50] düşər, ana.

**Anası deyir:**

Şirindi dilin, qzım,
Fitnədi felin, qzım.
Göndərrəm beş qardaşın,
Qırdırram belin, qzım.

**Qız deyir**:

İş işdən keşdi, ana,
Qarnım da şişdi, ana.
Göndərəsən beş qardaşım,
İncinməz bir telim, ana.

**Anası deyir:**

Bu qızın qarsına[51] qarsına,
Su verim bunun parçına.
Elə bir cinim çıxır ki,
Alacam təpiyin altına.

**Qız deyir:**

Xınayı gətir, ana,
Barmağın batır, ana.
Əgər çox cinin çıxırsa,
Molluyu, muxtarı gətir, ana.

***Hasan Xanoğlu Türk***
***(İğdır, Qaraqoyunlu kəndindən)***

## QARI TÜRKÜSÜ

Haravanın təkəri,
Göndər bizə şəkəri.

---

[50] Burada:inciklik
[51] İki çiyinin ortası

On iki qızdan yaxçidi[52],
Dul arvadın bekari[53].

Kado[54] pişər, duz istər,
Mənim qoynum qız istər.
Qız olmasın da, dul olsun,
Dünyada bol olsun.

Armut ağacı haça,
Əlim dolaşdı saça.
İyit ona demişəm,
Sevgisin götürə, qaça.

Armut ağacı suda,
Birin kəs, birin buda.
Elə girim qoynuna,
Ala gözlə yuxuda.

Böyün[55] ayın üçüdü,
Girmə, bostan içidi.
Dodaxların xam şəkər,
Dilin badam içidi.

Böyün ayın dördüdü,
Saray saçın hördürdü.
Dodaxların xam şəkər,
Dilin məni öldürdü.

Ay qara, qara nişannım,
Kisəsi qara nişannım.

---

[52] yaxşıdı
[53] subay
[54] qabaq
[55] bu gün

Söylədiklərim gəlmədi,
Gedirəm ərə, nişannım.

Yardan bir kağız gəlifdi,
Yarım mənə kəm baxıfdı.
Cannı atəşə yaxıfdı,
Gedərəm ərə, nişannım.

***Hasan Xanoğlu Türk***
***(İğdır, Qaraqoyunlu kəndindən)***

## AŞIX ABBASDAN

Su yolun saldı bu xərməngaha,
Qorxuram gələsən nəzərə, gəlin.
Aylar, illər həsrətini çəkdiyim,
Bir əziz qonağım olasan, gəlin.

İnci, sədəf, dür demişəm bu dişə,
Boynuu bənzətdim qarğı qəmişə.
Şeydə bülbül kimi madarım düşə,
Bir əziz qonağım olasan, gəlin.

Abbas diyər: dur gülşəni gəzginən,
Qələm götür, bu sözləri yazginan,
Öz əlimnən öz məzarım qazginan,
Bəyəm qoymıyassan məzara, gəlin.

***Ahmət Karanlık***
***(İğdır, Qaraqoyunlu kəndindən)***

## QIZLAR TÜRKÜSÜ

Gözəllər yığılıf tamam pökemnən[56],
Sənəyi dolduruf, asıf örkənnən.
Şəddiyip[57]qujmalı gərdən çəkənnən.
Əylıncədən keçər beli qızdarın.

Axşamnan qar yağıf, çıxıfdı dizə,
Kəsilif bulaxdan yolu qızdarın.
Sənəyi dolduruf, yana qoyanda,
Üşür əli, barmaxları qızdarın.

Mollalar yığılıf, Quran oxursa,
Eşiyində yanan yaxçı çoxusa,
Anası uzadıf qıza toxunsa,
Şümşət kimi oynar teli qızdarın.

İki gözəl gəlir qoşa,
Brisinə mayiləm mən.
O "çor" desə, "can" deyərəm,
Hər nə desə, qailəm mən.

Kür qırağı ada verdi,
Sağım məni bada verdi.
Sevdicəyim vədə verdi,
Dedi, sən get, gəlirəm mən.

İlqarı olmaz yalanın,
Midvarı[58] olmaz gülənin.

---

[56] hamısı
[57] sevib
[58] xəyanəti

Abdullayam, dərt bilənin,
Yüz il keşsə, quluyam mən.

***Mehmet Karanlık***
***(İğdır, Qaraqoyunlu kəndindən)***

## MANİLƏR

Bulax başı toz olar,
Üsdü dolu qız olar.
Hər nə desən, qıza de,
Gəlin hiləbaz olar.

Bulax başı tütündü,
Kimin bağrı pütündü?
Əyil, üzünnən öpüm,
Axrı[59] ölüm-itimdi.

Bulağa yağdı biyan,
İsdandı paltaryuyan.
Məhlənizə qoymurdun,
Qoynuna girdim,uyan.

***Hasan Xanoğlu Türk***
***(İğdır, Qaraqoyunlu kəndindən)***

## DUA

Hey ağalar, Mustafa aşmış[60] kitavı,
Sirin verməz heş kimə.
Sən bir qədim patşahsan,
İrəhm elə düşgünə.

---

[59] axırı, sonu
[60] açmış

Yönümüz düşdü qəzayə,
Söyünür sağlar gənə.
Qalmıyıf ürəkdə yağ,
Dolanıf, ağlar gənə.
Biz kim Məhəmmət hünbədiyik[61],
Arada yox damımız,
Hax verə muradımız.
Hindi Yağmanda, Alosmanda,
Söylənir adımız.
Ey ağalar, qalxdı sancağı şərif,
Yerisin tibilər[62] gənə.
Çəkmiş xunqar əsgəri,
Getmiş kafər üsdünə.
Al-yaşıl baydax[63] altda,
Döyüşür nərrər[64] gənə.
Necə cannar şəhid olmuş.

***Hasan Xanoğlu Türk***
***(İğdır, Qaraqoyunlu kəndindən)***

## AŞIX TÜCCARDAN

Ətrafi təyyali dəsti şənalım,
Daranmış mujların gərdənə düşdü.
Atəşin cana düştü.
Can səndə behişt oldu,
Məhəbbət sənə düşdü.
Bir don geyif, mimyey tasınnan,
Sərxoş oldux gözəllərin səsinnən.

61 hümmətiyik
62 ordu
63 bayraq
64 nərlər, igidlər

Müşgü ənbər qoxur nəfəsinnən,
Yazıx Tüccarın eşq badasınnan.
Dəsdin muş[65] eylədi, damağa düşdü.

Deyir, iman səndə bulunmaz,
Güman səndə bulunmaz.
Quran səndə bulunmaz,
Hökmü xanda bulunmaz,
Alosmanda bulunmaz,
Gürcüstanda bulunmaz,
Kəssən damarını, qan da bulunmaz.
Bu boyda, bu simada hər insan da bulunmaz,
Mələkli cənnətdi muş eylədi,
Damağna düşdü.

***Hasan Xanoğlu Türk***
***(İğdır, Qaraqoyunlu kəndindən)***

[65] nuş

# II BÖLÜM

# QARAPAPAX – TƏRƏKƏMƏ URUĞU AĞIZI

## LƏTİF ŞAHLA TELLİ MEHRİBAN HEKAYƏSİ

Vaxtı zamanında Yəməndə bir patşah oturudu. Zəngin bir patşahıdı. Bu patşah bir gün paytaxdında otureyrdi. Lələsi, vəziri də baravardı. Patşah dedi ki:

- Ey vəzirim, ey lələm, siz elə bir şəhrin içərisində elə bir bərbər bilmeyrsizmi, gətirtdirəsiz, aylığını, günnügünü kəsək də, hər vaxıt cümə günnəri, gəlsin mənim başımı və də üzümü qırxsın da getsin,

Lələynən vəzirə bu əmri verdikdən sonra vəzir dedi ki:

– Patşahım, mənim bildigim eyi[66] bir bərbər var, yalağuz[67] tükəndə oturur. Lələ də, mən də bülürəm ki, eyi bir bərbərdi.

O sahatda, o vaxtın hükümündə hızmatçılara cəllətlərdi. Əmir ettilər, iki tənə cəllət hazır oldular. Lələ əmir etdi ki:

– Şəhərin içində felan köşədə oturan bərbəri tez gedif gətirəcəksüz, taxımlarıynan baravar gətirəcəksüz.

O sahatdan cəllətdər qalxdılar, getdilər, tükənnən içəri girdilər, səlam verdilər, səlamın aldıxdan sonra dedilər ki:

– Acala[68] səni taxımlarınnın baravar padşah səni istir.

Bərbər dedi ki:

– Patşah məni neyniyəjəkdi?

Dedilər ki:

– Biz bilmirik nə eliyəjəkdi.

---

[66] yaxşı
[67] tək, yalqız
[68] təcili

Bərbəri yerinnən qaldırdılar, qavaxlarına qattılar, gətirdilər paytaxtan içəri, götürdülər patşahın ileyində[69] yeddi yerdə təməna elədi, səkkizincidə əl bağladı, qıyam etdi, qavağında durdu:

– Əmir et, – dedi, – patşahım.

Patşah dedi ki:

– Oğlum, sən tükanda ki oturursan, qaç min quruş para qazaneyrsən?

– Ey şövkətlim, – dedi, – əvəl allah sayasınnan, sonra sənin sayannan on min quruş qazaneyrəm.

– Pəkey, oğlum, mən sənə verəm on beş min quruş sənədə, sən yalquz pıçaxları kimsənin başına, yahot üzünə vurməyajaxsan; hər gün cümə günnərində yalğız gəlif mənim başımı, üzümü qırxıf gedəjəksən, tükəni kilitləyəjəksən. Oğuluşaxdan nəyin var? – dedi.

Bərbər dedi ki:

– Yeddi baş qızım var, bir də arvadım var. Daha kimsəm yoxdu.

Bərbər oturtdu patşahı iskəminin üstində, başını, üzünü çox bir gözəl qırxdı, sonra qalxdı getdi.

Hər cuma günü gəleyrdi, patşahın başını, üzünü qırxeyr, gedeyrdi.

Bir gün də cuma günü genə gəldi, başını qırxanda patşah gördü ki, başınnan ağ qıllar ileynə töküldü. Patşahın gözlərinnən yaşdar axmaya başdadı. Bu bərbər baxdı, gördü ki, patşahın gözünnən yaşdar axeyr. Bərbər dedi ki:

– Ey şevkətlim, kiççikdə qüsur, böyükdə əf[70]. Hər halda pıçaxlarım sənə əziyət verdi. Yeddi baş qız külfətim var və mənim günahlarımı əf elləginən.

Patşah dedi ki:

---

[69] önündə

[70] əfv

– Oğlum, bərbər! Sənin günahın yoxdu. Mənim ağlamağımın, gözdərimnən yaş gəlməynin səbəbi budu ki, ağ qıllar insanın başına çıxanda ölümü yaxın olmax lazımıdı. Mənim ağlamağım odur ki, mən öləndə ya bir erkək züryətim, ya bir qız züryətim yoxdu ki, bu paytaxtımda otura. Bu ölkələrmi, bu xaznalarmı, bu əsgərmi, bu əhəlmi dolandıra.

Bərbər dedi ki:

– Şövkətli patşahım, əgər izin verirsənsə, mən də bir söz söylüm.

– Pəkiy, söylə, – dedi.

Dedi ki:

– Şövkətlim, kəramət bəni-insandadı. Heş kimsə bilməz ki, kimdədi. Təkkələr aç, ajları doyur, çılpaxları geyindir, vergilərini əf eylə. İnşaallah, cənab allah bol xaznasınnan bir əvlət[71] verir.

Patşahın bu sözdər başına yerrəşdi. O sahatda ləlesinə, vəzirnə əmir ellədi, ajları doyurajaxsınız, çılpaxları geyrəjəksiz[72]. Xaznanın birinin ağzını açajaxsınız, vergiləri əf eliyəjəksiniz.

O sahatdan ləleynən vəzir qalxdılar, getdilər xaznanın ağzın aşdılar. Ajları doydurdular, çılpaxları geydirdilər. Vergiləri əf ellədilər. Pütün orda olan xalx duva ellədilər:

– Bizim patşahmız, hər nə niyyətə ki, yemək yedirdisə bizə, üstümüzü geyindirdisə, vergilərimiz əf ellədisə, hər nə diləgi varsa, ya rəb, sən diləgin qəbul elə.

Millət dağılıf gedənnən sonra patşah paytaxda oturdu; günün əvlə[73] vaxtında baxdı, gördü ki, bir dərvüş içəri girdi, yeddi yerdə təmənna ellədi, patşahın qavağında durdu. Bu dərvüşin başında yaşıl əhmədiyyə, dalında yaşıl cübbə. Patşah yer göstərdi, oturdu dərvüş. Patşah düşündü kü, bu mənim

---

[71] övlad
[72] geyindirəcəksiniz
[73] günorta

paytaxtımın ileyində nöbətçilər vardı. Bu dərvüş hancarı oldu ki, içəri gəldi. O vaxtı patşah annadı ki, bu dərvüş təkin dögül. Dərviş əlni civinə soxdu, bir qırmızı alma çıxartdı. Bu qızıl almanı patşaha verdi, dedi ki:

– Patşahım, bu almanı götürürsən, valdə sultannan baravar bir çarşamba axşamı altın sinin üstündə, almas pıçağınan orta kəsərsən, yarsını valdə sultan yer, yarsını da sən yersən, şərəhət[74] döşəgində yatarsınız. Onnan sora cənab allah bol xaznasınnan sənə bil, əvlət veri. Əmə mən gəlməmiş o şahzədənin adın qoşmıyacaxsız.

Patşah dedi ki:

– Pəkeyi, dərvüş bavam. Vəhdim[75] olsun sən gəlməmiş mən ad qoşdurmazam. Pəkey, – dedi.

Dərvüş dedi ki:

– Patşahım, bu sarayın bir tərəfi çox əgilifdi.

Patşah başını qaldırdı, baxdı dərvüş yanınnan qayıf oldu. Anrı baxdı, bəri baxdı, gördü ki, dərvüş yoxdu. Qalxdı patşah yerinnən, nöbətçiləri səsdədi:

– Oğlum, buraya kimsə gəldimi, gördünüzmü?

Dedilər ki:

– Görməmişik, patşahım, sənnən izin olmasa, adam dögül kü, quşu da qoymazıx.

Patşah o vaxdı düşündü kü, hər halda bu dərvüş təkin dögül. Patşah çarşamba gününü gözdəməyə başdadı günnəri saymağa. Çarşamba günü olduğu axşam getdi validə sultanın otağına dedi ki:

– Altın siniynən almas pıçağını mənə gəti.

Validə sultan hər ikisini də gətidi, almanı patşah çıxartdı civinnən, yarı kəsdi. Yarısını validə sultan yedi, yarısını pat-

---

[74] şəriət
[75] əhdim

şahın özü yedi. Patşahnan barabar validə sultan şərəhət döşəyində yatdılar.

Validə sultan həmlə qaldı. Doxğuz ay, doxğuz sahat, doxğuz daxqa tamam oldu; validə sultan həmlini vəz ellədi; bir şahzədə dünyaya gəldi. Patşaha müjdəçi getdi:

– Ey şövkətlim, gözün aydın olsun, validə sultan həmlini vəz ellədi, bir şahzədə dünyəyə gəldi.

Patşah əmir ellədi, ajları doyurdu, çılpaxları geyirdi, qurvannarı boğazladı.

Şahzədə bir yaşına getdi, bir yaşınnan iki yaşına ayax basdı. Axırı səkkiz yaşına çıxdı. Səkkiz yaşına çıxanda patşah əmir ellədi:

– Ey ləl, vəzir! Mənim bavam səkkiz yaşında məni oxumaya verdi, əgər bir uşax səkkiz yaşını uxarı[76] ötərsə, onun zehni qalınnaşı, daha oxuya bilməz. İndi bu şəhərin içində hası[77] xoca dərindisə, o xocayı gətirtdirin bu şahzədəyi verək oxussun.

Ləyənən vəzir dedilər ki:

– Bizim bildiyimiz bir dərin xoca var, adı Hüseyin xoca. Dərin bir xocadı, o xocayı gətirdirək.

O sahatdan əmir ellədilər, iki tənə cəllət yollandılar, bu xocanı mədrəsədən çıxartdılar, gətirdilər patşahın paytaxtına. Yeddi yerdə təmənna ellədi xoca, səkkizinci əl bağladı, qıyam ellədi, qarşısında durdu. Patşah əmir ellədi ki:

– Xocam, sən uşax oxudursanmı, mədrəsən varmı?

Dedi ki:

– Var.

Dedi ki:

– Neçə tələbən var?

Dedi ki:

---

[76] yuxarı

[77] hansı

– İgirmi tələbəm var.

– Pəkey,– dedi, – xocam, bu igirmi tələbədən neçə min quruş bir ildə aleyrsən?

Dedi ki:

– Şövkətlim, ildə beş min quruş aleyrəm. Əvəl allah, sonra səni sayannan.

Dedi ki:

– Mən sənə verəm on min quruş, yalğız o igirmi tələbəyə naxartan[78] dərs verirsənsə, mənim şahzədəmə də onnar qatarı[79] dərs verəjəksən.

– Çox gözəl, – dedi, – şövkətlim.

Onnan sonra patşah əmir ellədi:

– Xocanın xarşdığını verin, – dedi.

Verdilər xocanın xaşdığını.

– Bu şahzədənin də yeyif içəjəgini tamam verin, – dedi.

Tamam verdilər, hambalların arxasına verdilər, xocanın arxasına verdilər, xocanın otağına yolladılar. Sonra şahzədəyi xocanın arxasına qatdı, dedi ki:

– Xocam! Əti sənə, sümükləri mənə, götügünən oxut, birayaq əvəl mədrəsəsini tamam ellətginən.

Xoca dedi ki:

– İnşaallah, tezdignən oxudaram.

Patşahnan görüşdülər, allaha amanat ellədik sizi, duvadan unutmayın bizi, sağ qallıxsa, görrük bir-birimizi.

Xoca munu götürdü mədrəsəyə, diz oturdu, başdadı dərs verməyə. Gündə igirmi tələbəyə beş kərləm dərs verirdisə, muna gündə on kərləm dərs verdi. Munu beş sənənin içərisində altı sənəyə qoymadı, öz dərsinə çıxartdı. Şahzədə xocaya dedi ki:

– Xocam! Mənə dərs ver.

Xoca dedi ki:

---

[78] nə qədər

[79] qədər

– Oğlum, daha sənə verəjək dərsim tükəndi. Daha dərsim yoxdu munnan uxarı, – dedi ki, – indi sən gəl götröm bavana verem, daha dərsin yoxdu.

Xoca şahzədənin qavağına düşdü, gətidi bavasının paytaxtınnan içəri girdilər. Yeddi yerdə təmənnah ellədi, qavağında durdu. Patşah dedi ki,

– Xocam! Şahzədə oxumamaxlıxmı ellədi? Yoxsa osandımı bunu gətidin?

Dedi ki:

– Yox, patşahım. Nə oxumamazlıx ellədi, nə də osandı, yalqız mənim dərsimə çıxdı, daha mənim artıx dərsim yoxdu ki, şahzədəyə verəm.

– Pəkey,– dedi, – xocam, bu şəhərin içərisində daha sənnən dərsi üskək olan xoca yoxdumu verək onun da yanında oxusun?

Xoca dedi ki:

– Şövkətlim, dögül ki bu şəhərin içi, sənin höküm etdiyin məmləkətdərdə mənnən üksək xoca yoxdu. Başqa düvəllərin içərsini bilmirəm.

Bunnan sonra:

– Pəkey, – dedi, – şahzədənin oxuduğu yetər.

Xocanın xaşdığını verdi, xocayı yola saldı, xoca söyünə-söyünə otağına getdi.

Patşah şahzədəyə, öz ləməsinə əmir verdi ki:

– Ləməm, hindiyəcən sən mənim əmrimə baxeyrdin, indi də şahzədənin əmrinə baxacaxsan.

Şahzədəynən lələ ikisi birlikdə gəzeyrlərdi həməşə. Lələ bir gün dedi ki:

– Patşahım, sənə bir iricam var. Bizim bu şahzədənin adı yoxdu, ad qoşulmamış muna bir ad qoşax.

Patşah dedi ki:

– Heç onu ağzına alıf söyləməyin. Mənim gözdüyəjəgim var. Hər nə vaxıt gəlisə, ona ad qoşan gəli, adı qoşar, o vaxdı mən də sənə diyərəm.

Lələ üsulca geri çəkildi, çıxdı vəzirin otağına getdi. Getdi vəzirə salam verdi. O da salamını aldı. Vəzir ləliyə yer görsətdi. Lələ oturdu, dedi ki:

– Nə deyirsən, lələ?

Dedi ki:

– Bizim şahzədənin adı yoxdu. Mən getdim patşaha danışdım. Patşah "olmaz" dedi. Pəkey, nə yapalım, vəzirim, indi munun adı yox. İnsannardan ölüm uzax dögül. Bu patşah öldüsə, yerinə bu şahzədəni oturtmax lazım gəlir. Munun adı yox, nə deyək ki, munu paytaxta oturdax?

Dedi ki:

– Lələ, onnan qolayı nə var ki, elmi yamandı, yoxsa patşahmı yamandı?

Lələ dedi ki:

– El yamandı.

– Pəkey, onnan qolay dünyada nə var ki?

Bunnar, lələynən vəzir patşah bilməməcə pütün şəhərin xalxına məktüf yazdılar. Cuma günü əsnafı, əfəndisi, bəgi və baxqalı, rəncbəri pütün toflansın paytaxtın ileyinə.

Savaxdan oldu, məktufları pütün şəhərin xalxına dağıtdılar. Pütün cuma günü ayax tutan patşahın paytaxtının ileyinə gəldilər. Patşah pəncərədən baxdı ki, elə şennik toflanıf ki, paytaxtın ileyinə ki, iynəni atsan, yerə düşməz; vəzirnən ləläsini səsdədi, dedi ki:

– Bu xalx bu sarayımı basdılar. Nooldu ki, pütün millət gəlifdi?

Lələ qaxdı, getdi, sordu. Halbuki lələ əvəl xalxa tənbeh eləmişdi ki, şahzədəyə ad qoşajeyik.

Bunnar – millət dedi ki:

– Biz şahzədəmizə ad qoşmiyə gəlmişik.

Lələ dedi patşaha havar gətiri ki, biz şəhzədəmizə, deyillər ki, ad qoşajiyx.

Patşah dedi ki:

– Olmaz.

Lələ dedi ki:

– İmkanı yoxdu. Əmir versən də, qoşajaxlar, verməsən də, qoşajaxlar, – dedi ki, – şəhər xalxı getmir.

Patşah dedi ki:

– Mən qarışmaram. Get söylə nə qoşallarsa, qoşsunnar.

Lələ çıxdı şəhər xalxına dedi ki:

– Patşah əmir verdi, nə ki qoşarsız qoşun.

Şəhər xalxı da kimi dedi Həsən olsun, kimi dedi Hüseyin olsun, kimi dedi Əhməd olsun. Kimsi dedi Məhəmməd olsun. İkisinin sözü bir arya gəlmədi. O handa baxdı, gördülər ki, dərvüş bunnara səlam verdi, bunnar əleykimissəlam dedilər. Salamını aldıxdan sora, toysa toyunuz xeyirri olsun. Sünət isə, sünətiniz mübərək olsun. Bayramdırsa, bayramınız mübərək olsun.

Dedilər ki:

– Dərvüş bava, allah çox sağ eləsin səni; nə toyumuz var, nə sünətimiz var. Biz burya yalğız şahzədəmizə ad qoşmağa gəlmişik.

Dedi ki:

– Qoşsanız a.

Dedilər ki:

– Nə qoyax, dərviş bava, ikimizin sözü bir araya gəlmir.

Dərvüş dedi ki:

– Əgər irazi olusussa, o şahzədənin adını mən qoyam.

Bunnarın da hamisi irazi oldular, dedilər ki:

– Dərvüş bava, sən qoyginan.

Dərviş də dedi ki:

– Siz ki irazi oldunuz, şahzədənin adını mən qoydum Lətif şah.

Hamsı muna irazi oldu.

Geri patşaha müjdə götürdülər, dedilər ki:

– Patşahım, gözün aydın olsun; bir dərvüş gəldi, şahzədəmizin adını Lətif şah qoydu.

Patşah dedi ki:

– Aman, – dedi, – bir o dərvüşü mənim yanıma gətirin.

Çıxdılar eşiyə ki, dərvüş nejə oldu, patşah istər. O yana baxdılar, bu yana baxdılar.O xalxın içini pütün axdardılar. Dərvüşü tapa bilmədilər, dedilər ki:

– Dərvüş nejoldu?

Hamsı dedi ki:

– Dərvüşü görmədik, bilmerik ki, harya getdi.

Bunnar geri patşaha xəvər götdülər ki:

– Patşahım, dərvüşü tapa bilmədik. Harya getdigini heş görən yoxdu.

Patşah dedi ki:

– Gej tafdıx dərvüşü, tez itirdik, – əlini dizinə vurdu, – gedin, deyin şəhər xalxına hər kəs öylərinə gessinnər.

Onnar gedənnən sonra Lətif şahnan lələ qaldılar, şəhərin içinə bazarı gəzməyə getdilər. Bir az gəzdilər bazarda, baxdı, gördülər ki, oxardan[80] bir qaç atlı gəleyrlər: bu atdılar gəldilər bunnarın yanınnan keşdilər. Lətif şah baxdı ki, bunnar kimisinin əlində tülkü dərisi, kimisinin əllərində doyşan, kimisinin əllərində kəklik. Dedi ki:

– Lələ, bunnar nəçidilər, bunnar kimdilər?

Dedi ki

– Bunnar oyçudur; bu oyları vurallar, tutallar, gətirillər. Satallar, kimisini də yiyəllər. Onnan dolanallar.

---

[80] yuxarıdan

Dedi ki:

– Bunnarın nəyi var?

Dedi ki:

– İştə görürsən birinin tüyəngi, birisinin də əlində həpəngi var, birinin də iki tazısı var. Birisinin də yanında tulası var.

– Daha, – dedi, – bir şeyləri varmı?

– Birər də attarında mindikləri at var.

– Olmazmı, – dedi, – lələ, savaxdan mənim atamnan izin alasan, biz də gedək o dağlarda biz də bu oy quşdan vurax, tutax gətirək.

– Pəkey, – dedi lələ, – yaxşı olur.

Qalxdılar, geri paytaxta getdilər. Lələynən Lətif şah paytaxdan içəri girdilər. Lələ patşaha salam verdi. Patşah salamını aldı. Dedi ki:

– Patşahım, Lətif şah bu gün oyçuları gördü, çox havasdandı, illah patşah bavamnan izin alginan, biz də gedək dağlarda oy-quş ediyək, həm də gözümüz, gonlumuz açılsın.

Patşah izin verdi bunnara, dedi ki:

– Lələ, anbardan silahlar alısınız, özün bildiin kimin nəfərrərdən bir neçə adam yanına al, toylahanadan da bildiyin atdardan al, minin, gedin, oy-quş eliyin, vurun, gətirin. Lətif şahı da sax-salamat geri gəti.

Bunnar o gejə yatdılar, savaxdan oldu qalxdılar, getdilər anbarın ağzını aşdılar. Özləri istədiyi silahdan aldılar, getdilər toylaxanıya özləri bildikləri yaxşı atdardan seşdi, çıxardılar. Yaxşı tanıdıxları adamlardan da yannarına aldılar. Beş-on kişi yannarına aldılar. O gün axşamacan dağlarda gəzdilər. Heş bi şey vura bilmədilər və də tapa bilmədilər. Axşam o ki yaxlaşdı, Lətif şah gördü kü, bir qafla-qatar yolnan gəleyr. Dedi ki:

– Lələ, bu nədi, bu qafla-qatar gəleyr?

Lələ dedi ki:

– Lətif şah, bu başqa düvəllərin[81] adamlarıdı, bu yol tranzet yoludu. Pütün özgə düvəllərin bəzirgənnəri buradan gəli keçəllər, məmləkətdərinə gedəllər.

Dedi ki:

– Bunar nə götürüllər?

Dedi ki:

– Bunnar qumaş götürüllər, bunnarın götdüyü qumaşdı, gənə özgə mallardı. Hər bir maldan götürüllər, yerrərində tükənə qoyallar, öz içərisinin xalxına satallar. İştə bunnarın götdüyü budu.

Lətif şah dedi ki:

– Lələ, iştə bizim oyumuz ayağınnan gəldi qavağımıza çıxdı.

Lələ dedi ki:

– Lətif şah, mənim canım sənə qurvan olsun, olumu,– dedi, – belə şeylər?

Dedi ki:

– Olar yox ki, bir də o yanna keçər.

Çəkdilər qılıcdarını, endilər yolun üstünə, bunnarın ileyini kəsdilər. Bunnarı tamamınnan soydu soyxaladılar. Bunnarı elə soydular ki, soğan qabığı kimi, heş bir şeylərini qoymadılar. Bunnarı əldən qoydular. "Dühe, harya gedirsiz gedin", – dedilər. Bunnar keşdi, getdilər.

Lətif şahnan lələ bu soyğuntu malı şəhərin içində bir anbara gizdin qoydular, başdadılar soyğunçuluğa. Yolnan gəlif gedənnəri, bəzirgənnəri pütünnü soydular. Yolladı o anbara qoydurdular.

Xəvəri verəm sənə bəzirgənnərdən.

Bunnar getdilər öz məmləkətdərinə, öz hökümətdərinə şikayət ellədilər. Bu məmləkətdərin də ki, hökümətdəri birər

[81] ölkələrin

kağız yazdılar. Yəmən patşahına yolladılar: "Hey Yəmən patşahı! Sənin oğlun eşgiyalığa[82] çıxıfdı, bizim bu qartan soyğunçulux elləyifdi bizim bəzirgənnər. Ya olduğu kimi bu bəzirgənnərimizin malını verəjəksən, ya da odu ki, biz sənnən qavğa eliyəjik".

Bunnarın hamısı düvəllərinə şikat[83] ellədilər. Bunnarın pütünün kağızdarı Yəmən patşahına gəldi. Yəmən patşahı aldı oxudu ki: "Mənim oğlum dünyəliyi bitirifdi, qalıfdı bir axrəti". O sahatdan bir əmir ellədi, dört tənə cəllət yolladı Lətif şahı, lələyi geynəvət[84] bağleyif gətirəsiz. Bu cəllətdər getdilər Lətif şahı ləleyi geynəvət bağladılar, qavaxlarına qatdılar, gətirdilər. Lətif şah yolda ləliyə dedi ki:

– Lələ, bavam bu soyduğumuz adamların səbəvinə geynəvət ellətdi, olmuya ki, ağzınnan bi şey boynuna alasan. Əgər boynuna aldınsa, boynuna bir qarış ataram.

Lələ dedi ki:

– Məni patşah parça-parça eləsə, heş bi şey boynuma almaram, yalğız sən ağzına sahaflığ[85] eləginən.

Bunnar gəldilər patşahın paytaxtına çıxdılar. Patşah pütün düvəllərdən gələn kağızdarı bunnarın əlinə verdi, dedi ki, oxuyun.

Bunnar oxudular. Dedi ki:

– Lələ, ellədiyin işdəri gördünmü?

Dedi ki:

– Patşahım, tamamıncaz biz bu kimi işdər elləməmişik.

Patşah qəzəvə gəldi, dedi ki:

– Lələ, ya bu işin doğrusunu söylüyün, ya da ki, boynunu vurajağam.

---

[82] quldurluğa
[83] şikayət
[84] qandallamaq
[85] sahiblik

Lətif şah dedi ki:

– Hökümdar bava! Lələ özbaşına dögül, sən lələyi nəyə sıxeyrsən? Biz bu kimi bi şeylər elləməmişik. Hamısı munnarın yalandı.

Patşah düşündü kü, oğul bir, bava pir; qıya bilmədi; bunnarın suçunu boyunnarına qoya bilmədi. Xaznanın ağzını aşdı. Hər nə yazılmışdısa, düvəllərin bəzirgənnərinin mallarının bahasını yolladı. Hamısını razı ellədi. Bunnara əmir verdi ki patşah, "Daha şəhərin içinnən heş bir yana çıxmıyajaxsız", – dedi. Lətif şahnan lələ çıxdılar bir-iki gün şəhərdə dolaşdılar, gəzdilər. Lətif şah dedi ki:

– Lələ!

Lələ dedi ki:

– Buyur, Lətif şahım.

– Bax, – dedi, – mən sənə deyirəm. İndi gedəjəksən, mənim bu şəhərdə durmağa irahatdığım gəlmir. Mənə bir fərman yazsın, Yəmənin dağna çıxajam. Bu üç ay o dağda qalajağam. Bir kimsənin on paralıx bi şeyini almıyajağam. Yalğız gəlif-gedənnəri kontrol eliyif, buraxajağam keşsinnər.

Lələ dedi ki:

– Lətif şah! Biz bir dəfə getdik, nə üz ağartdıx ki, bir də gedəm patşahdan izin alam, yinə gedək. Mən gedə bilmərəm.

Lətif şah dedi ki:

– Sənin boynuna indi bir qılış vuracağam. Mamales bandası kimi boynunu düşürdərəm.

Lələ baxdı ki, olajax dögül, dedi ki:

– Lətif şah, gedəyim, – dedi.

Qalxdı getdi patşahın yanına. Dedi ki:

– Şövkətlim, Lətif şah deyir ki, çıxıf yenə dağa gedəjəm. Kimsənin on paralıx bi şeyini almıyajağam. Yalğız gəlif-gedənnəri kontrol elliyəjəgəm, mənə bir fərman yassın versin. Versə də, gedəjəgəm, verməsə də.

Patşah dedi ki:

– Lələ, sənnən bir imza allam. Elə bir imza verəjəksən ki, bir kimsənin bir çigidini aldınsa, sənin sinsiləni kəsərəm.

Lələ yanaşdı, bir imza verdi patşaha, dedi ki:

– Patşahım, kimsənin bir çigidini almıyajağam.

Yazı fərmanı lələnin əlinə verdi, lələ götdü munu Lətif şaha verdi. Lətif şah o günü yeyif-içəjəklərini beş-on kişi də yenə arxadaşlarını yanına aldı, ləlesiynən baravar, çadırrar qurdular. Yolnan gəlif-gedənnəri Lətif şah kontrol ellədi. Bunnar günüz yatallardı. Lətif şah yalğız bəklərdi[86]; gejə olanda onnar bəklərdi, Lətif şah yatardı.

Bunnar orda qalmaxda olsun.

Xəvəri hardan verəm?

Hindistan şahının bir qızı vardı. Adına Telli Mehriban deyəllərdi. Bu Telli Mehriban bir gejə öz otağında yatdığı yerdə yatağın içində yuxuda bir adam gəldi; əlinnən tutdu, yerində oturtdu. Əlində bir ivrix[87], bir tənə də istikan. İvrixdən su tökdü istikana, Telli Mehribana uzatdı, dedi ki:

– Munu içəjəksən. Bizi yoxdan var elliyən allahın eşqinə.

Aldı qız bir badam işdi, Allahın eşqinə. Bir daha doldurdu. Dedi ki:

– Munu da içəjəksən qırxdarın, pirlərin, axır zaman peyğəmbərinin eşqinə.

Aldı bu qız onu da işdi. Bir daha doldurdu, dedi ki:

– Bu badam da içəjəksən Yəmən patşahı Lətif şahın eşqinə. Abi–kəfsər bulağın başında yatan Lətif şahın eşqinə.

Elə eyninə Lətif şaha içirdi. Məgərsə bu adam Xızır aleyhissalammış. İki barbağın[88] ayna ellədi. Oğlanın camalını qıza görsətdi, qızın camalını oğlana görsətdi. Qızı yervəyer

---

[86] gözləyərdilər

[87] qrafin

[88] barmağını

yatırtdı yatağının içində. Özü getdi, savax oldu. Bu qız qaxdı yerinnən. Üçüz[89] atmış altı damarı tutuf yanmağa başdadı.

Anası savaxdan qaxdı, qızınının yanına gəldi, baxdı ki, Telli Mehriban elə bir dərdə giriftar oluftur ki, heş üzündə irəng qalmıyıf. Dedi:

– Qızım, Telli Mehriban! Sənə nə oluftur?

Dedi:

– Ana, mənnən nə xavar aleyrsən? Mən bu gejə duşumda gördüm ki, Yəmən elində Kəfsər bulağı var. Ora ziyaratmış. Oroyu gedif iziyarat elləməsəm, qırx gün sonra öləjəgəm. Oroyu iziyarat eləsəm, muradıma yetəjəgəm.

Bu söz ki dedi, anası dedi ki:

– Qızım, onnan qoloy[90] bi şey yoxdu. Sənin baveyin parasımı yoxdu ki, yoxsa adamımı yoxdu! Hamısı var bavanda. Gedər indi bavana söylərim. Bu günnən səni yollaram, bizim sənnən ayrı bir evladımız yoxdu. Biz uxarda allaha baxeyrik, yerdə də sənə baxeyrik.

Həmən anası ordan döndü geri. Getdi şahın yanına. Söylədi:

– Qızımız Telli Mehriban bu gejə bir duş görüfdü. Yəməndə kəfsər bulağı varmış, o bulax ziyaratmış. O bulağı ziyarat eləməsə, qırx gün sonra öləjəymiş. Əgər ziyarat edərsə, hər muradına yetəjəkmiş.

Bavası dedi ki:

– Get, indi Mehribana söylə, bögünnən yollayajağam.

Getdi anası Mehribana söylədi:

– Hazır olginan, bögün bavan səni yollıyajaxdı.

Bavası əmir elədi. Bir kejova[91] qayırdılar. Üstünə yeddi qat pərdə çəkdilər. Bunnarın başportunu yazdı. Əllərinə verdi.

---

[89] üç yüz
[90] asan
[91] kəcavə

Səksən atdıya qattı, qızı mindirdi kejovoya. Bunnarın xarşdığını verdi, bunnarı yola saldı. Bunnar düşdülər yola. Bunnar getdilər günnərin birisində Yəmənin torpağına çıxdılar. Köylərdən, şəhərrərdən keşdilər. Kəfsər bulağının yolunu xavar aldılar. Getdilər bir gün quşdux[92] vaxtında kəfsər bulağına yaxlaşdılar. Lətif şah baxdı, gördü kü, bir top atdı gəleyr. İçində bir ağ bi şey var harava şəklində. Bu qalxdı bavasının verdiyi fərmanı boynuna taxdı. Qılıcını belinə bağladı. Lətif şah endi bulağın başına. Bunnar da gəldi oroya. Lətif şah dedi ki:

– Sizi kontrol elliyəjəm.

Bunnarın oxuyannarı baxdı ki, boynundakı fərmana yazılıf ki, bunnar buraların kortrol məmurudu. Yanaşdı, bunnarı birər-birər kontrol ellədi. Bunnar qurtulandan sonra kejovanın divinə getdi. Dedi:

– Munu da kontrol edəjəm.

Dedilər ki:

– Orda zənnə[93] var, onu kontrol elləmə.

Hər nə qatar[94] yalvardılarsa, qəbul elləmədi. Çəkdi qılıcını belinnən kejovanın üstünün pərdəsini kəsdi. Hamısın kəsif qurtulannan sonra qızın camalını gördü. Qız da oğlanın camalını gördü. Lətif şahın ağlı başınnan getdi. Düşdü, özünnən getdi. Bu qız dedi ki:

– Geri çevirin kejovoyu.

Bunnar çöyürdülər kejovoyu, qaşdı getdilər geri. Bir az ki getdilər, bu qızın axlı başına gəldi ki, bu oğlan qalxanda nə bilsin ki, mən kimin qızıyam. Hardan gəlif, harya gedirəm. Məni axtarsın, tafsın. Əglədi, dedi kejovoyu.

– O eşqiyamıdı, – dedi, – nə adamdısa, o sizi kontrol edəndə mən qorxdum. Yeddi ilin xaracınnan qayrılmış bir qı-

---

[92] səhər çağı

[93] zənən, qadın

[94] qədər

zıl üzüyüm vardı barbağımda. Qorxdum ki, üzüyümü soyar, alı deyə, üzüyümü barbağımnan çıxardım. Orda düşüfdü. İndi ya bir adam yolloyun, ya da mən gedim üzügümü gətirəm.

Bunnarın heş biri getmədi. Dedilər ki:

– Ancax sən gedərsən, biz burada durur, səni gözdərik.

O qız dedi ki:

– Yaxşı olu, – dedi.

Kejovadan indi. Gəldi Lətif şahın yanına. Gəldi ki, Lətif şah bayılıf yater. Üzünə su vurdu. Əlini çəkdi, qolunu çəkdi. Lətif şah ayılmadı, qızın üç üz yetmiş iki damarı od tutuf yanmağa başdadı. Aldı, baxem Lətif şaha Telli Mehriban nə söylüyəjək, nə də yazajax. Telli Mehriban dedi ki:

Xəf[95] içində yatan beyxavar oğlan,
Bir ot[96] saldın şirin cana gedərəm.
Yağın bil ki, kəsdin səvri qərəlim,
Atəş alıf yana-yana gedərəm.

Eynimnən tökərəm yeşili, alı,
Gög geyər, bəklərəm yolun.
Yedgar üçün yazdım bu arzu-halı,
Sənə verif nişanə gedərəm.

Mehriban Sultan da sənə müftələ oldu,
Gözüm gördü, gönlüm intizar qaldı.
Məkəndə[97] mənzilim üç aylıx yoldu.
Xavar alsan, şəhər Hindistana gedərəm.

Bo sözdəri söylədi, bitirənnən sonra bir kağıza yazdı, Lətif şahın civinə qoydu. Lətif şahın barbağınnan üzügü çıxartdı, öz barbağına taxdı. Özününkünü də çıxartdı, Lətif şahın bar-

[95] xof, qorxu
[96] od
[97] məkanda

mağına taxdı. Oradan qalxdı, geri gəldi. Kejovonun yanına ulaşdı. Kejovoya mindi, keşti məmləkətinə getməli oldular.

Xəvəri nərdən[98] verəm, Lətif şahdan. Lətif şah birdən-birə ayıldı, axlını başına dərdi. Bulaxda əl-üzünü yaxadı; əlini soxdu civinnən mahravasını çıxartmağa əlini. Birdən əlinə kağız gəldi. Kağızı aşdı, oxdu ki, bu qız başının üsdündə duruf, mənə bu kağızı yazıfdı. Barbağımnan üzügü dəyişifdi. Əlini başına vurufdu, mənim söydüyüm qız başımın üstündə durufdu, bu xartan[99] sözdər söylöyüfdü, mən heş duymamışam. Qalxdı yerinnən lələnin yanına çadırrara getdi. Bunnarı yataxdan qaldırdı. Lələ Lətif şahın üzünə baxdı ki, Lətif şah elə dərdə girifdar oluf ki, heş üzündə irəngi qalmeyif. Dedi:

– Lətif şah, xeyir ola, nə olufdu sənə?

Dedi ki:

– Lələ, məni acala[100] şəhrə ulaşdırmağın qoloyu, mən xəstəyəm.

Lələ o saat əmir ellədi, çadırı bozdular. Atdara mindilər, Lətif şahı da öz atına mindirdilər. Bir az yol getdikcək Lətif şah eycənə fənalaşdı, şəhərə ki yaxlaşdılar, lələ dedi ki:

– İki adam göndərək.

Arxadaşları da haq verdilər lələnin sözdərinə. Getsin patşaha xəvər versinnər, Lətif şah xəstə olufdu. Xastaxanyamı götrək, yoxsana paytaxtamı götrək? Bu adamlar atı sürdülər gəldi patşaha xəvər verdilər. Lətif şah xəstə olufdu, paytaxtamı gətirək, yoxsa xəstəxanyamı endirək. Patşah əmir verdi ki, xəstəxanya endirin.

Bunnar bir dahı geri getdilər. Bunnara ulaşdılar. Lələ dedi ki:

– Nə əmir elədi patşah?

---

[98] haradan
[99] qədər
[100] təcili

Bunnar dedi ki, xəstəxanya endirin. Xəstəxanya gətirdilər, endirdilər Lətif şahı. Patşah qalxdı, yanna getdi. Getdi ki, xəstəxanya yatırıflar. Lətif şahın ağzı köprüfdü. Heş kimsəni tanımıyır. Patşah əmir elədi ki doxturlara:

– Bu oğlumun nə dərdi varsa, bu oğlumu qurtarın.

Toxdurrar[101] dedi ki

– Munu biz dögül kü, loğumanı həkim gəlsə, munu qurtara bilməz. Bu qudurufdu. Muna illəc olmaz.

Patşah dedi ki:

– Bə nə olajax oğlumun halı?

Dedilər ki:

– Başına kül ələnəndə ölü.

Patşah düşündü, vəzirnə söylədi ki:

– Bu şəhrin içində ya bir yaşdı ixtiyar nənə, ya da ixtiyar dədə. Onnar gün görmüş olullar, bəlki bu xəstəlikdən biləllər. Əyər oğlumun dərdinə dərman olullarsa, tərəzinin bir gözünə də o nənəyi qoyajağam. Ağırrığında altın verəjəgəm.

Bir adam dedi ki:

– Bizim məhlədə bir nənə var, iki yüz əlli yaşındadı, bilsə, o bili.

Patşah əmir ellədi, iki tənə cəllət yolladı:

– Nənəni, – dedi ki, – ajala alıf gətirəjəksiniz.

Bu cəllətdər getdilər, nənənin öyünü tafdılar. Qapıdan içəri girdilər. Nənəyə dedilər ki, səni patşah ister, dedilər. Halbuki nənənin nə gözündə işıx vardı, nə də qulağı eşidirdi. Nənənin qulağına eycənə bağırdılar. Nənə dedi ki:

– Neyniyəjək məni patşah.

Dedilər ki:

– Oğlu xastadı, sənə baxdıracax.

---

[101] həkimlər

Bu nənəni aldılar. Sarsarma ellədilər, arxaladı getdilər xəstəxananın içinə endirdilər. Lətif şahın bavası başının üstündə dururdu. Nəniyə dedi ki:

– Oğlum bir dərdə giriftar olufdu. Oğlumu bu dərtdən qurtarsan, dünyəliyini verif, axirətinə qarışmıyajağam.

Nənənin əlinnən tutdular, dedi ki:

– Əlimi götürün oğlanın döşünə qoyun.

Göttülər oğlanın döşünə qoydular əlini. Ordan qaldırtdı, onnan sonra dedi üzünə qoyun. Üzünə ki qoydular əlini, dedi ki nənə:

– Bu doxturrarın patşahı muna nə olduğunu bilmədilərmi?

Patşah dedi ki:

– Bilmədilər.

Dedi ki:

– Munnan qoloyu nə var? Mununku sevda şeiridi. Sazbantdan mənə bir üştelli saz gətirtdirin, indi mən munu qaldırem.

Sazı gətdilər, verdilər nənənin əlinə. Nənə sazın telinə toxundu barbağıynan. Nejə ki, telin səsi çıxdısa, Lətif şah gözünü aşdı, dedi:

– Nənə, sənin o iman dağarjığına qurvan olum. Bir o sazı mənə ver.

Sazı aldı əlinə. Aldı, baxax bavasının qavağında nə söylüyəjək:

Göz yaşınnan,– dedi,– mənə nəmə yazan var,
Arzular ismini deyər, gəlirəm.
Şirin canım yolunda olsa, min para,
Bu şirin canıma qıyar gəlirəm.

Mən də bildim, ay qız, taxsırın yoxdu,
Eşqiyin ataşı hücütümü[102] yaxdı.

---

[102] vücudumu

İxtiyar bavamı tacilə taxdı,
İxtiyar bavamı qoyar, gəlirəm.

Lətif şah deyər, minərəm eşqin atına,
Öləncən çəkərəm yar qıryatını.
Gözüm görə-görə girərəm ölüm qatına,
Acal köynəyini geyər, gəlirəm.

Sözü tamama yetişdirdi. Lətif şah yerinnən qalxdı. Patşah əmir ellədi:

– Nənəni, – dedi,– tərəzinin bir gözünə, altını da bir gözünə qoyun, dartısınca altın verin. Doxturrarın da boynunu vurun, – dedi cəllətdərə.

Lətif şah qalxdı, şəhərin içində üş gün dolaşdı, gəzdi; üş günnən sora lələsinə dedi ki:

– Bavamnan gedif bir bəzirgən başportu[103] alajaxsan. Hindistana gedəjik sənnən mən.

Lələ qalxdı, getdi Yəmən patşahının yanına, dedi ki:

– Patşahım bir başport versin, bəzirgən başportu, Hindisdana gedəjik.

Patşah yanaşdı bir başport yazdı Lətif şahnan ləliyə. Dedi:

– Lələ, Lətif şahı sağ-salamat gətirməsən, sənin yer üzünnən sinsiləni kəsərəm.

Lələ dedi ki:

– İnşallah, allahın izniynən sağ-salamat götürüf gətirrəm.

Lələ aldı bu başportu əlinə, getdi Lətif şahın yanına. Dedi ki:

– Aldım başportu.

Lətif şah dedi ki:

– Lələ, indi gedərsən beş üz dəvə kirələrsən, doğru Hindisdana. Bir də o soyğuntu mallarımızdan anbarın ağzını açar-

[103] pasport

san, beş üz dəvənin ükü qaldırası ey[104] al qumaşdardan üklətdirəsən. Doğru Hindisdana gedəjek.

Lələ qalxdı, getdi bazardan beş üz dəvə kirələdi. Dəvəni götürüf anbarın qapısının ileyinə. Anbarın ağzını aşdı. Beş üz dəvənin ükünü tamam verdi. Dəvəni yolçu ellədi. Özü gəldi geri Lətif şahın yanına. Lətif şah xəvər aldı ki:

– Dəvəni yolçu elədinmi?

Lələ dedi ki:

– Bəli, dəvə getdi.

Bunnar o günü qaldılar. Ertəsi gün yol haşdıxlarını aldılar. Getdi bavasınnan, anasınnan, elinnən gördülər. Halallıx aldılar, düşdülər yola. Getdilər, dəvəyə ulaşdılar. Lətif şah bir neçə gün getdilər, geri baxdı ki, elinin nə dağı görüneyr, nə şəhri, nə də köyü.

Lətif şahın üç üz atmış altı damarı od tutuf yanmaya başladı. Atının başını çəkdi. Dedi ki:

– Lələ, dilimə bir neçə söz gəldi, söylüyəjəm. Aldı Lətif şah:

Kəsildi nişanam, yad oldu vətən,
Gözdən itdi bizim yerin dağları.
Leylayı indizarı çünki var canda,
Hər səhər fırğan[105] eylər sünhül çağları.

Yaxın mənzilimiz əhlət daşıdı,
Canımı yandıran eşq ataşıdı.
Evli ayrılıx haqqın işidi,
Fələk bizdən cida saldı sağları.

Lətif şah da vətəninnən cidadı,
Ömür verən allah böyük barı xudadı.

---

[104] yaxşı
[105] fəqan

Vurdu hecran taftağınnan budadı,
Solufdu selmi səccərimin tağları.

Lələ dedi ki:

– Lətif şah, əgər peşman oldunsa, geri dönək.

Dedi:

– Lələ, sür, nə dönməyəkdi.

Çəkdilər dəvəyi, keçif getmədə oldular. Günnərin birində Hindisdana yetdilər. Hindisdanın qırağında dəvəyi yıxdılar. Orda oturuf çörəklərini yidilər. Çaylarını işdilər. Lətif şah dedi ki:

– Lələ, indi sən atını mirərsən, gedərsən şəhərin içinə, şəhərin içində gəzərsən, bir yaxşı tükən taparsan, orda kirələrsən. Dəvə qalxanda doğru tükənin qapısında yıxarsan.

Lələ qalxdı, atını mindi, getdi şəhərə bir ey tükəni kirələdi, atını geri mindi, gəldi Lətif şahın yanına, dedi ki:

– Taftınmı tükən?

Lələ dedi:

– Tafdım.

Dəvəyi çatdılar, getdilər tükənin ileyində yıxdılar. Daşıdı tükənə doldurdular malı. O günü şəhərin içini gəzdilər. Örgəndilər ki, malların fiəti[106] beş yüz quruşa verilən qumaşı bunnar iki yüz əlli quruşa verdilər. Onnan bir neçə gün sonra Mehribanın bir cəryası[107] baxdı ki, çarşıda bir tükənə şenlik çox dolar. Bu da şəhər xalxınnan içəri getdi, tükənə girdi, baxdı ki, orda hər malı yarı bahasına satellər. Bu tükəndə durannardan danışdı ki:

– Haralısız, bəzirgən bava?

Onnar dedi ki:

– Yəmənniyik.

Bu carya tükənnən çıxdı, yügürə-yügürə Gül baxçasına getdi. Pütün cəryalara söylədi ki:

---

[106] qiymət

[107] cariyə

– Biz çılpax gəzseydik, öz atamızın öz öyündə gəzərdik, aj gəzseydik, gənə öz atamızın öyündə gəzərdik. Telli Mehriban hindiyəcən bizə deyirdi ki, pırtı[108] bahalıdı. İndi Yəmənnən bir bəzirgən gəlifdi. Şəhərdə satılan qumaşdarı hamısını yarı fiətinə sateyr. Ya bizə paltar alsın, ya da odu ki, qalxax atalarımızın öyünə gedək.

Bunnar Telli Mehribanın otağına getdilər, bunnar söylədilər ki:

– Bizə ya paltar al, ya da qoy biz hammız atalarmızın öynə gedəjik. İndiyəçən deyirdin ki, pırtı bahalıdı. İndisə Yəmənnən bir bəzirgən gəlifdi, pütün pırtıyı ujuz sater.

Mehriban dedi ki:

– Munu kim görüfdü?

Söylədilər ki:

– Topal Pəri görüfdü.

Pəriyi səsdədi, dedi ki:

– Get söylə o bəzirgənə, Mehribanın qırx cəryası var. Birər qatdan qırx qat, ikişərdən səksən qat Mehriban bizə alajaxtı. Oğlanın arxasına versin, gəti gəlginən, burda parasını verrəm. Pırtıyı versin, parasını alsın, getsin.

Pəri qalxdı, yügürə-yügürə getdi, tükənnən içəri girdi. Dedi ki:

– Bəzirgən bava, səksən qat Mehriban pırtı istədi. Oğluyun arxasına ver, götürəjəm Gül baxçasına, ordan parasını alsın, dönsün gəlsin.

Pəri qalxdı görsətdi, ha bu pırtılardan endirdəyim, gələnnərdən endirdi, bir dənk bağladılar, Lətif şahın dalına verdilər. Qız ileyinə düşdü, götüdü, Gül baxçasınnan içəri girdilər. Orda endirdilər. Mehribana xəvər verdilər. Mehriban gəldi, bu pırtıyı hamısın qızlara dağıtdı. Dedi ki:

---

[108] parça

– Hər kəs götürün otaxlarınızda biçin, tikin. Mən də götürüm bu bəzirgənin parasın verəm, gessin.

Bunnar getdilər otaxlarına, Lətif şahı da Telli Mehriban götdü öz otağına, Lətif şaha baxdı, tanıya bilmədi. Əcəf olurmu, olmazmı, dedi. On dört hörukdən bir hörük döşünün üstünə basdı. Dedi ki, mən muna bir-iki mahnı söylərəm. Əgər odusa, qalxar sarılırız bir-birimizə. Dedi ki:

Mən səni görmüşdüm asdan donunda,
Fərmanın vardı şah baveyin boynunda.
Çox yalvardıx, üz sürtdük xəkinə[109],
Üz ircaya baxşış elləmədin bir məni.

Mehriban Sultan da baxdı bir qara,
Meyl verdim sənin kimi bir xülskərə[110].
Bir az da gəlmiyeydin bizim diyara,
Yandırerdi Kərəm kimi nar[111] məni.

Sözü söylədi, bir-birinə sarmaşır oldular. Onnar orda muradına yetdilər. Bir-iki sahat sonar Lətif şah qalxdı, getdi tükənə. Tükənə girdi ki, müştərilər pırtı alıfdılar. Lələ söylüyüfdü ki, durup Lətif şah gəlsin, heysabınızı görsün. Bunnar Lətif şahı gözdöllər. Lələ dedi ki:

– Lətif şah, harda gejikdin gəldin?

Dedi:

– Lələ, harda qaldığımı mən saznan annadıram hindi sənə:

Lələ, girdim dos bağına,
Məşəqət divanı gördüm.
Biz əziz möcüzatnan,
Söydüyüm[112] cuvanı[113] gördüm.

---

[109] torpağa
[110] xilaskara
[111] od
[112] sevdiyim
[113] cavanı

Ərvişim[114] muyları sağı solda,
Cığa pərvaz edər teldə.
Gülüşü pək, canı dildə,
Söydüyüm qızı gördüm.

Lətif şaham, məşəqət nazı,
Başında cığa pərvazı.
Hindisdan şahının qızı,
O Telli Mehribanı gördüm.

Lələ baxdı ki, pütün o yanında oturannar annadılar. Lələ dedi ki:

– Aldığınız pırtılar sizə halal olsun. Tək bu sözü bir yerdə söyləməyin. Hindistan şahı duydusa, bizi cəllət ellətdiri.

Onnar da dedilər ki:

– Bizim nə işimiz var, biz söyləməzik.

Bunnar qalxdı getdilər. Lətif şahnan lələ tükəndə işdərinə başdadılar.

Məgəmsə, Fəs patşahının bir şikilcisi[115] gəlif şəhərə. Bir getdi Gül baxçasının qavağına getdi. Baxdı, Telli Mehribanı gördü. Mehribanın xavarı olmayunca, bu qurdu aynasını. Telli Mehribanın şiklini aldı. Sandığına qoydu, keşdi geri getdi. Bir neçə gün şəhərdə dolaşdı. qalxdı bir gün məmləkətinə getdi. Fəs patşahının məgəmsə xanımı ölüfmüş. Pütün elanat elləyif məmləkətinə ki, hər kəs qızının şiklini çəkdirsin gətirsin, Kimin ki qızını bəgənsəm, alajağam. Hər kəs qızdarının şiklini çəkdirdilər, götüdülər, Özü höküm ellədigi yerdə heş bir qızın şiklini bəgənmədi. Bunnar geri getdilər, hər kəs öyünə dağıldı. Bu Hindisdannan gələn şikilci bunu duydu, bu Telli Mehribanın şiklini götüdü, patşahın əlinə verdi. Patşah aldı, bu şiklə baxdı, bəgəndi. Dedi ki:

[114] əbrişim
[115] şəkilçəkən

– Bu şiklin sahavı kimdisə və kimin qızıdısa, mənə söylə.

Dedi ki:

– Hindisdan şahının qızıdı. Mən orya getmişdim, qızın xavarı olmamaca, şiklini aldım, gətirdim, – dedi ki, – munu qoloyunda nə var ki, o bir şahdı, sən bir böyük patşahsan. Əsgərini çək, getginən gəmilərnən. Şəhərin ətrafına çıxarginən. Əgər qızı verdiysə xoşduğunan. Vermədisə paytaxtını xırxa eləginən, boğazına keçir, qızı al, gəti.

Fəs patşahı əmir verdi, o günü pütün əsgəri topladı paytaxdın ileyinə. Əsməndiyar pəlivanı saraskər qomandar ellədi. Muna annatdı ki, Hindisdana gedəjeyik. Hazırrıx görön. Qılışdarını, qalxannarını pütün aldılar; özü də qaxdı Fəs patşahının bu əsgərin ileyinə düşdü. Gəmiyə doldular, getdilər Hindisdana tərəf. Günnərin birində bir gejə Hindisdanın isgələsinə[116] yanaşdılar. Əsgəri boşaltdılar. Şəhərin ətrafını sardırdılar. Əmir verdilər ki, bütün ataşdarı yandırın. Hər əsgər bir ataş yandırdılar. Şəhərin içinin bəkçiləri[117], polisdəri ataşı gördülər, əjəyif[118] qaldılar. Əjəf bu nə ataşdı şəhərin ətrəfında yaner. O gejə qaldılar. Savaxdan baxdı, gördülər ki, şəhərin ətrafi elə sarılıf ki, quş uşmağa majal qalmeyif. Bunnar getdilər Hindisdan şahına xavar verdilər ki, şəhərin ətrəfi sarılıfdı. Hindisdan şahı söylədi ki:

– Kim tərəfindən sarılıfdı bu şəhər?

Dedilər ki:

– Bilmirik.

Bir az durdular. Fəs patşahı üç adam elçi yolladı. Dedi ki:

– Gedin, Hindisdan patşahına söylöyün, Fəs patşahı bizi yolladı, ya qızı versin xoşduğunan, ya da odu ki, paytaxtını xırxa edif boğuzuna keçirəjəm, qızı götürəjəm.

---

[116] liman

[117] gözətçiləri

[118] təəccüb

Elçilər ki qalxdılar, gəldilər Hindisdan şahına söylədilər. Hindisdan şahı da dedi ki:

– Durun, qıza danışex. Görək ki, qız nə deyir. Ona görə sizə söz verəm.

Qızına bir pusula[119] yazdı, məsələyi annatdı. Qız pusulanın dalına yazdı ki: "O bir patşahsa, sən də bir şahsan. Məni yesirmi verəsən? Sənin də əsgərin var. İleyinə çıxart. Nə vaxıt ki, əsgərin basılırsa, o vaxıt məni götürsün. Yenə də getmiyəjəm. Zehir içif özümü öldürəjəyəm". Bu pursulanın arxasına yazdı. Hindisdan şahına yolladı.

Hindisdan şahı əmir verdi, yeddidən yetmişə əsgər tofladı. Meydan quruldu. O gün axşamacan qavğa elədilər. Axşam oldu, yerinə çəkildi hər keş, Hindisdan şahının üzdə on əsgəri qalmadı. Üş gün qavğa oldu. Hindisdan şahı çox bonaldı[120]. Tellallara əmir ellədi, çarşıda bağırın, hər kim ki bu əsgəri mənim başımnan edərsə, hər nə istərsə, verəjəm. Tellallar qalxdılar, şəhərin içinə düşdülər, bağırdılar. Birisi getdi Lətif şahın tükənnin ileyində bağırdı. Lətif şah bu sözü eşitdi, qapıdan eşigə çıxdı, tellala dedi ki:

– Nə bağrersən?

Dedi ki:

– Fəs patşahı gəlifdi, Hindisdan şahının qızı Telli Mehribanı zornan götürür. Hər kim ki bu əsgəri Hindisdan şahının başınnan dəf elərsə, dünyada nə istərsə, onu verəjəkdir.

Dedi ki:

– Dur burda, mən gəlirəm.

Lətif şah tükənə getdi. Lələ baxdı ki, Lətif şahın halı heş hal döyül. Dedi ki:

– Lətif şah, nə olufdu sənə?

Dedi:

---

[119] məktub

[120] ruhdan düşdü

– Lələ, indi sənə saznan annadeyim:

Qoca lələm, sənə şikiyata gəlmişəm,
Bögün əhvalımın yaman günüdü.
Dünyənin təvdili tağayır olufdu,
Əsərri şerimin dumannı günüdü.

Hanı xan bavamın tac ilə taxdı,
Fələk burdu diyyarbadiyyar buraxdı.
Fikirri gonlumun tağayır vaxdı,
Əsərri şerimin duman günüdü.

Lətifəm, aşmaram qəmli sinəmi,
Fələk vurdu, bozdu zavrağımı, binəmi.
Tülək tərran cəngə salıf sonamı,
Əl əldən üzülör, allah, aman günüdü.

Sözünü tamama yetirdi: "Allaha amanat elədik, lələ, sizi. Duvadan unutmayın bizi. Sağ qallıxsa, görrük bir-birimizi".

Qaxdı Lətif şah qapıya çıxdı. Təllali saldı qavağına getdilər, Hindisdan şahının üzürünə çıxdılar. Təllal dedi ki:

– Şahım, bu igit deyir ki, mən gedəjəyəm bu qavğıya.

Hindisdan şahı dedi ki:

– Oğlum, nə isdiyirsən?

Dedi ki:

– Hər nə istəsəm verirsənmi?

Patşah düşündü kü, nə isdiyəjəkdi. Ya bir köy, ya bir şəhər, ya bir xazna isdiyəjəkdi. Patşah dedi ki:

– Nə istirsən verem.

Dedi ki:

– Bir qol çək, nə istəsəm verdiynə.

Patşah muna yanaşdı, bir qol çəkdi.

– Hər nə istərsən, verəjəm, – dedi.

Bunu ləməsi, vəziri imzaladılar. Lətif şah aldı imzayı qoyunna qoydu. Dedi ki:

– Mənə bir at, bir qılış, bir də qalxan verin.

Əmir oldu, tavlaya götürdülər Lətif şahı. Öz əlinnən bir at seşdi, yəhərni vurdurdu, atı eşiyə çəkdirdi. Getdi anbara bir qılışnan bir də qalxan aldı. Belinə bağladı, atı mindi, getdi meydanın başına. Fəs patşahının əsgəri baxdı ki, bögün meydana bir tək atlı gəldi. Getdi fəs patşahına xavar verdilər ki:

– Bögün meydana bir atdı gəldi.

Dedi ki:

– Tək atdıya tək atdı lazım gəleyr. Gedin enişdəm Əsməndiyar pəhlivanı çağırın gəlsin.

Getdi Əsməndiyarı gətidilər. Dedi ki:

– Bögün meydanımıza bir atdı gəlifdi. O atdının meydanına sən çıxajaxsan.

Əsməndiyar:

– Ey olur, – dedi.

Qalxdı, atını çəkdirdi meydana, qılıcını, qalxannı bağlandı. Atına mindi. Getdi meydana. Meydanın başına endi. Baxdı ki, bir gözəl dəliqanlı meydana çıxıfdı. Ayın on beşi kimi yaner. Buna bir qorxu verem, meydannan qaşsın getsin.

Buna dedi ki, buna bir-iki mahnıynan annadeym qaşsın geri getsin.

**Aldı Əsməndiyar:**

Alaylar dağıdaram, türklər bozaram,
Qan etmiyən günü qəmgin gəzərəm.
Min düşmanı bir cidama düzərəm,
Mən ki varam, bir can alı cəllət olmuşam.

**Aldı Lətif şah:**

Öz əlinnən girmə acal bəhrinə,
İndi səni qərq edərəm ğam dərgahına.
Sıtğınan sığınmışam şahlar şahına,
Cənəbi xudama sipar almışam.

**Aldı Əsməndiyar:**

Əsməndiyaram, xışmım damleyr,
Meydanıma gələn sağ qalmeyr.
Qılıcımın ujunnan qannar damlıyer,
Mən ki varam, bir can alıcı azreil olmuşam.

**Aldı Lətif şah:**

Mən Lətifəm, cana yağıyam,
Hicri mühübbət, ğəm dustağıyam.
Telli Mehribanın qurvannığıyam.
Mən hə yar yolunda ölməyə gəlmişəm.

Baxdı ki Əsməndiyar, bu söznən qorxmur, həmə qılıcını çəkdi.

– Oğlan, – dedi, – sıra mənimdi.

Lətif şah dedi ki:

– Sıreynan mala, qoyna gedəllər.

Dedi:

– Novat mənimdi.

Dedi ki:

–Novatnan dəgirməndə taxıl ügüdüllər.

Dedi ki:

– Meydan mənimdi.

Dedi ki:

– Buyura bilirsən.

Əsməndiyar pəhlivan ata bir cüt acüzəngi vurdu. Həmə Lətif şahın üstünü kəsdi. Bir qılıc atdı. Lətif şah atın qarnının atda dolandı. Qılıc boşa getdi. Lətif şah atın üstünə doğruldu.

– İndi meydan mənimdi, –dedi.

Bu da atın qarnına dolandı. Lətif şah qılıcı sallamadı. Bu atın üstünə doğruldu. Lətif şah buna bir qılış salladı. Bu atdan aşağı düşdü. Yervəyer öldü. Lətif şah atı döndərdi əsgərin bir tərəfinnən girdi, aj canavar qoyuna girən kimi. Bunnar

qırdığını qırdı, bunnar qaçdılar. Gəmiyə doldular, geri məmləkətdərinə getdilər. Hindisdan şahına müjdə verdilər:

– Sənin yolladığın pəhlivannarın əsgərinin qırdığını qırdı, qırmadığı da pütün gəmiyə doldu, qaşdı, getdilər.

Hindisdan şahı əmir elədi, o igidin gəldiyi yollara atlasnan xalı döşəyin. Bu igit Lətif şah geri döndü, gəldi paytaxdın ileyində atdan endi. Bu qırx ayax mərdivannan uxarı çıxartdılar, patşahın üzürünə çıxartdılar. O baxdı bavasının fərmannı boynuna taxdı. Baxdı, gördülər ki, Yəmən patşahının oğludu. Hindisdan şahı dedi ki:

– Hər nə istiyirsənsə, istə, istədiyindən artıx mal verəjəm.

Lətif şah dedi ki:

– Nə istəsəm, onu verəjəksiz.

Dedi ki:

– Hə, verəjeyik.

Dedi ki:

– Mən saznan söylərəm.

Dedilər ki:

– Saznan da annnarıx, sözdən də.

**Aldı Lətif şah:**

Dəli dərvişəm mən cünül dəli,
Dünyədə neynərəm xeyirsiz malı.
Yərəni, yoldaşı, əhbabı, eli,
Şah bavamı ağlar qoyuf, gəlmişəm.

Dinnə, şövkətdim, arz elem halımı,
Gör nə xayallara girif gəlmişəm.
Özüm öz canımın müftələsiyəm,
Qızın Mehribanı deyif gəlmişəm.

Bu sözü ki belə dedi, Hindisdan şahı qəzəvə gəldi, dedi ki:

– Bunun boyunnu vurun.

Ləleynən vəzir dedi ki:

– Dur, şahım. Elə bir imza verifsən ki, ey ki sənin qızını ister. Sənə deseydi ki, payıtaxdan en, mən oturajağam, biz səni endirif, bunu otutdurajaxdıx, verdiyin qola qarşılıx.

Patşah baxdı ki, mən haxlıyam, vəzirnə söylədi ki:

– Munu burda kimsəsi varsa, gətitdirin qızı verək.

Vəzir sordu Lətif şaha ki:

– Sənin burda bir kimsən varmı?

Dedi ki:

– Bir qoja lələm var.

O sahat adam yolladılar, lələni gətitdilər, lələ oldu oğlan vəkili, vəzir oldu qız vəkili. Orda nikahın kəsdilər, şərvətini işdilər. Qırx gün, qırx gejə toyunu tuddular. Lətif şahı götdülər, qızın yanna verdilər. Lətif şah bir gün qalxdı, dedi ki Mehribana:

– Mən bir bögün gedəjəgəm, şəhərin ətrəfini gəzəjəgəm. Göröm ki, bu şəhrin ətrafı hancarıdı. Bu yaxın günnərdə məmləkətimizə gedəjik.

Lətif şah qalxdı, getdi şəhərin ətrəfinnən gəzə-gəzə dəryanən qırağına getdi, baxdı, gördü kü, iki adam qayığa minif, tor töküf bu dəryadan balıx tutullar. Lətif şah dedi ki munnara:

– Olmazmı bu qayığa məni də mindirin, mən də gəzəm dəryanın üzündə.

– Olu,– dedilər.

Lətif şahı da mindirdilər, bir az dolandırdılar, geri çıxartdılar qayığı. Qayığı orda bir daşa bağladılar, bunnar balıxlarını aldılar, geri gəldilər. Bunnar balıxlarını öyünə götüdülər. Lətif şah da gəldi Telli Mehribanın yanna, söylədi ki:

– Telli Mehriban, dünyədə elə bir ey işlər varmış ki, bögün getdim dəryədə qayğa mindim, qayığı sürməsini də örgəndim. Savaxdan gənə gedif minəjəm qayığa.

O gejə yatdılar, savaxdan öydən qalxdı Lətif şah. Qayıxçılar gəlmədən bu getdi qayığın yanna, qayığı daşdan aşdı. Qayığı suya saldı, kürəy əlinə aldı, dalğa vurdu munu içəri aldı.

Qayıx sürməsini bilmirdi. Dərya munu götürdü getdi. Ö gün axşamacan götüdü. Axşam oldu, Mehriban baxdı ki, Lətif şah gəlmədi. O gejə savaxacan yolunu gözdədi, savax oldu. Telli Mehribanın bir murğu quşu vardı. Murğu quşuna dedi ki:

– Murğu quşu! Lətif şahın ya ölüsünnən, ya dirisinnən bir xavar gətirəcəksən.

Murğu quşunu çıxartdı, salı verdi. Murğu quşu getdi, havada dolandı, dolandı, baxdı, gördü kü, Lətif şah dəryanın üzərində bir qayıxda geder. Getdi Lətif şahın çiyninə qondu.

Lətif şah baxdı ki, murğu quşu məlul-məlul, boynu buxux Lətif şahın üzünə baxeyr. Aldı Lətif şah, baxax nə söylüyəjək:

Səfil murğu, nə məlul-məlul baxersən,
Qanat çal kənarə, bir xavar eylə.
Göydə uçan boz quşdara rəhim elə halımı,
Yetiş gəncı o Mehribana bir xavar eylə.

Bu nə pəhləydi qurdum özüm-özümə,
Fələk kəmənd atdı ən qərəzimə.
İrəm[121] atdır, torcu saldır izimə,
Yetiş gənci o xunkərə xavar eylə.

Lətif şah da düşdüm girdad[122] bəhrinə,
Yusif möhlətinə, Yunus qəhrinə.
Yetişəndə Hindisdan şəhrinə,
O tutrasız ləməmə bir xavar eylə.

Bir kağıza yazdı dediyi sözdəri, murğu quşu kakardına[123] aldı, götüdü, havalandı, getdi. Gül baxçasınnan içəri girdi, Mehriban Sultanın əlinə verdi. Mehriban Sultan oxudu ku, Lətif şah dəryada ğarğ olmuş, getmiş. Bavasına xavar ver-

[121] rəml
[122] girdab
[123] dimdiyinə

di, şəhər xalxını dəryanın başına tökdü, dəryanı uxarı-aşağı axtardılar, nə ölüsünü tafdılar, nə sağını. Axşam oldu, geri gəldilər. Şəhərə əmir verdi ki, gög geyif qara örtəjəksiz. Şəhərin xalxı, kəntdərin xalxı pütün yasa girdilər.

Gəl xavarı verem Lətif şahdan.

O gün bir az ki suyun üstündə getdi, dedi ki, bu dəryaya bir az yalvarram, bəlkim mərhəmətə gələ, məni bir qırağa ata:

Aman, qannı dərya, heş insafın yoxmudu?
Gözü yolda Mehribanın qalıfdı.
Bir də dəysin yarın əli əlimə.

Qannı dərya, məni eyləmə hələk,
Öz başıma mən gətdim kələk.
Ömür istəmərəm möhlət ver, fələk,
Bir də dəysin yarın əli əlimə.

Lətifin də qalmadı qaşı, kəməni,
Zulumlar yığılı verir əhdi amanı.
Hər tərəfdən kəsdim əlimi gümanı,
Bir də dəysin yarın əli əlimə.

Bunu dərya vura-vura götüdü. Fəs patşahının gəmisinə ras gəldi. Gəmicilər baxdı ki, suyun üstündə bir qaraltı gəleyr. Gəmiyi əglətdilər, bu gəminin yanna ki, gəldi qayıx, qarmağ atdılar, bunu gəminin içinə aldılar. Dedilər:

– Kimsən, hardan gəlif, harya gedirsən?

Dedi:

– Dünyədən gəlif axrətə gedirəm.

Dedilər ki:

– İnssənmi, cinssənmi, nəsən?

Dedi:

– İnsan oğlu insanam.

Dedilər:

– Sən bu suyun üstə nə gəzersən?

Dedi:

– Sizə söznən annada bilmərəm, saznan annadeym.

Dedilər:

– Sazdan da annarıx, sözdən də.

Dedi ki:

Az qala bir zalım ola yarı,
Qırdı Hindisdanı, eylədi zarı.
Bir qılıca yıxdım Əsməndiyarı,
Fəs elinnən qavğa etdim bir zaman.

Mən Lətifəm, gör cəhilligimdə neynədim,
Mindim eşqin atını haramlar evgahı boyladım.
Bəzirgənnər soydum, dənklər payladım,
Aldım al-qumaşı, satdım bir zaman.

Həmən bunnar annadılar ki, bizim fəs patşahının eniştəsini[124] – Əsməndiyar pəhlivanı vuran budu. Geri gəmiyi çöyürdülər, geri getdilər. İsgələyə çıxdılar, Fəs patşahına müjdəçi yolladılar:

– Əsməndiyar pəhlivanı vuran pəhlivanı tutuf gətdik, əmrin nə olu?

Fəs patşahı əmir elədi ki, dar ağacı qurulsun. Bunnarı geri çöyürdü kü, gedin onu gətirin. Bunnar geri getdi gətiməyə. Şəhərin xalxına elanat ellədi hamısı toflansınnar. Eniştəm Əsməndiyar pəhlivanı vuran pəhlivan tutuluf gəlir, asacağam, gəlif seyr eləsinnər.

Şəhər xalxı pütün yığıldılar. Gəldilər dar ağacının divinə. Gəlməyini gözdədilər. Bunnar gedif Lətif şahı alıf gətirdilər. Əsmər xanımın otağının ileyinnən keçirirdilər. Əsmər xanım onu gördü. Baxdı gördü kü, elə bir dəliğannıdı ki, göydəki ulduzların içində ay kimi durur. Bu oğlana vurğun oldu. Bu da

[124] kürəkənini

qaxdı bu oğlan dalınca getdi. Oğlanı götüdülər dar ağacının divinə. Əylətdilər, Fəs patşahı da orda oturordu. Oğlan dedi ki:

– Patşahım! Adam söylədi, eləmi asarrar? Yoxsa söylətməməcə asarrar?

Dedi ki:

– Söylədi asarrar, – dedi, – söylə, görüm.

Dedi:

– Mən mahneynən söylərəm.

Dedi ki:

– Hancarı söyləsən, mən annaram, söylə.

Aldı Lətif şah, baxax, nə söylüyəjək:

Qərq eylədi məni dəryayi-ümman,
Düşmana tutuldum, halım çox yaman.
Yetiş imdadıma həzrəti sübhan,
Fağır sinəm gör nə dara düşüfdü.

Mən sənə neynədim tanrı zalımı,
Heş xavar almeyrsən vəsfi-halımı.
Tutdum ətəyini, kəsdin əlimi,
Asdan canım gör nə təhrə düşüfdü.

Lətifəm, gör nələr gəldi başa,
Ahı-zarım çıxdı dağınan, daşa.
Əvəl fırsant məndəydi həməşə,
İndi fırsand zulumkara düşüfdü.

O vaxdı qız dedi ki:

– Şevkətli qardaşım, bu mənim nişannım Əsməndiyar pəhlivanı öldürüfdü. Bunu ver götürüm, qapmın önündə quyu var, o quyya salem. Başınnan aşağı sular dököym. Üş gün sonra gətrem. O vaxıt asax. İndi zəhmət görməməcə assax, ölüf keçər gedər. Üş gün zəhmət verək, onnan sora asax.

Pütün nas[125] muna hax verdilər. Əsmər xanımın ileyinə qatdılar. Götdü bunu qapsının ileyindəki quyya saldı. Dedi ki:

–Gedin siz, mən özüm burda qarollux çəkərəm.

Şəhər xalxı pütün getdilər. Axşam oldu, Əsmər xanım getdi, onu quyudan çıxartdı, öz otağna aldı. Dedi ki:

– Məni al, səni qurtarem.

Dedi ki:

– Mən öylüyəm, səni ala bilmərəm.

O kü pütün məsələni annatdı Lətif şah muna, dedi ki:

–Tək məni götügünən, Mehriban Soltana cariyə olum.

Lətif şah dedi ki:

– İki at gəti, bir də bir qılış gəti, mən səni götröm.

Əsmər xanım getdi iki at çıxartdı. Özü də bir ər kşi paltarı geyindi, bir qılış Lətif şaha gətirdi, bir qılış da özü bağlandı. Ükdə yünül, bahada ağır əllərinə keçəni də aldılar. Yola düşdülər. Şəhərdən qırağa çıxdılar. Savax açıldı. Bunnarın ileyinnən çovannar, yolçular irast gəldilər. Lətif şah bunnara sordu ku:

– Kimin adamısız?

Bunnar dedilər ki:

– Biz fəs patşahının adamıyıx.

Dedi:

– Mən sizə bir kağız yazıf verəcəyəm, siz onu götürüf fəs patşahına verin.

Kağıza yazdı ki:

Şah, sənə müjdələr olsun,
Ürəyinə vurdum düyünü.
Başıma pəhlə qururdun,
Gördünmü olmaz oyunu?

Yıxmışam binəni bil ki,
Verandı ömrüyün mülkü.

[125] adamlar, əhali

Yiyəməzsən kimi tülkü,
Mən kimi asdanın payını.

Lətifə atdın kəməndi,
Əsmər xanım qurdu fəndi.
Gedər tutaram indi,
O Telli Mehriban toynu.

Bunnara bu kağızı verdi, yola saldı. Bunnar götürüf fəs patşahına verdi. Fəs patşahı aldı, oxudu ku, bajımı götürüfdü. Pütün əmir verdi ki, əsgər-leşgərə toflansınnar. Paşalarna məsələyi annatdı. Əsgər olduğu kimi silah tökdü:

– Biz getməzix, – dedi, – biz onun zornu görmüşük.

Patşah geri otudu.

Gəl xavarı verəm Əsmər xanımnan Lətif şahdan. Bunnar keşdi, getdilər. Günnərin birində Hindisdana girdilər, baxdı, gördülər ki, şəhər xalxı pütün qara geyifdi. Atdarı sürdülər, lələnin otduğu tükənin ileyinə getdilər. Ləlıni sordu, baxdı, gördü kü, lələ yoxdu.

Dedilər ki, o xan geyvə[126] işdədir çarşıda. Bunnar gedif xanın ileyində atdan düşdülər. Atdarı tavlaya bağladılar, özləri də geyfənin içinə girdilər. Gördü kü Lətif şah, lələnin ağlamaxdan gözdəri qapanıfdı. Lələ Lətif şahı tanımadı. Lətif şah lələyə dedi ki:

– Bir elə xalvat odan varmı bu arxadaşım irahat eləsin.

– Var, – dedi.

Götdü Əsmər xanımı bir otağa qoydular. Lətif şah tənbeh elədi ki, mən gələnçən nə isdəsə, verin.

Lətif şah çıxdı, getdi Gül baxçasınnan içəri girdi. Mehriban Sultan munu gördü, tanıdı. Çıxdı munun qavağına, əlnə aldı bir zehir şüşəsini. Aldı, baxalım ki, Lətif şaha nə deyəcək:

[126] dükan

Gəl göröm nə xayaldasan,
Məni gözdən salan yarım.
İxralı[127] puç beybafasan,
Ehdibarı yalan yarım.

**Aldı Lətif şah:**

Gəl sən vəsm elem halım,
Budu başa gələn, yarım.
Qərğ oldum dəryayi-ümmana,
Məni götdü talan yarım.

**Aldı Mehriban Sultan:**

Baş əymərəm intimasa,
Dərvişdər əlində hasa.
Məni qoydun qəmli yasa,
İtgin düşüf gələn yarım.

**Aldı Lətif şah:**

Tərgilə, töhmətdər vurma,
Maşuqana xəcələt vermə.
Qədəhi dəstində tutma,
Sağı kimi dolan yarım.

**Aldı Mehriban Sultan:**

Mehribanam, qəm sağrısı,
Əlimdə zehir ağısı.
Daldeylərdə canım yağısı,
Üzə şirin gülən yarım.

**Aldı Lətif şah:**

Lətif şaham, qəm mədəni,
Bindiməg olmaz nadanı.

---

[127] ilqarı

Uğrunda can sərf edəni,
Ehdivarsız bilən yarım.

Bunnar bir-birinə sarmaşar oldular. Bunnar yatmada oldu. O gejə qaldı, Əsmər xanım baxdı Lətif şah gəlmədi. Savaxdan qalxdı Əsmər xanım getdi lələnin yanına. Annadı ki, Lətif şahın lələsi budu. Dedi ki:

Mən o varam, bir qan ayaxlı zənnəyəm.
Varıf gizdin sirim eldə bəyan olmasın.
Məni öz elimnən dida giryan eyliyən,
Göröm ilinətən şad oluf gülməsin.

Varmı mənim kimi bir baxtı qara,
Hardan meyil verdim o beyli qara.
Məni qoydu çıxdı kənara,
Heş kəsdələr mənim kimi olmasın.

Əsmər xanım da elindən oldun cida,
Canımı saldın bir yanar oda.
Diləgim budu sənə tağdırı xuda,
Göröm mənim axım Lətif şaha qalmasın.

Lələ o vaxdı annadı ki, munu gətirən Lətif şahdı, ajığı tutdu. Lələ dedi ki:

– Vay, bajı, gəldiyin yollara qurvan olum, bu gələn Lətif şahıdımı?

– Lətif şahıdı, – dedi.

Dedi ki:

– Qızım, oxur, yazarrığın varmıdı?

Dedi ki:

– Var.

– İndi bir pusla yazginən Lətif şahı taftırıf, gətitdireym.

Qız pusulanı yazdı, lələinin əlinə verdi. Lələ xızmatcılarnın birsinnən yolladı:

– Gül baxçasında, – dedi, – Lətif şahın gizdin əlinə ver. Mehriban Sultan görməsin, geri gəlginən.

Bu xızmatcı götüdü, Gül baxçasınnan içəri girdi, Lətif şah bunu gördü. İleynə gəldi. Bu puslanı Lətif şahın əlnə verdi, geri gəldi. Lətif şah pusulanı açıf oxuyurdu Mehriban xanım dalınnan gəldi. Mehriban Lətif şahdan əvvəl pusulanı oxudu. Mehriban dedi ki:

– Lətif şah, o nədi ki, oxuyursan?

Dedi ki:

– Bi şey yox.

Dedi:

– Mən sənnən əvvəl oxudum, – dedi ki, – nədisə mənə bəyan edəjəksən.

Lətif şah baxdı daha olajax dögül, dedi:

– Əyləş, qız, sənə saznan annateym.

Dedi:

– Annat, baxem.

**Dedi:**

Bir mişgilin mavalına batmışam,
Heş kimsə dərdimnən xavardar dögül.
Pürhan-pürhan[128] yar ataşı çəkərəm,
Aça bilməm, söylənəcək sır dögül.

**Aldı Mehriban Sultan:**

Mən də bildim bir mişgilin mavalına batıfsan,
Tamam söylədigin şər dögül.
Açıf gizdin sirin mənə eyləsən bəyan,
Xoş, geniş dünyə başına dar dögül.

**Aldı Lətif şah:**

Fəs elinnən gətdim Əsmər xanımı,
O qutardı dar ağacınnan canımı.

[128] pünhan-pünhan

Əmr et bavana tökdürməsin qanımı,
Əl götüməm, extivarsız[129] yar dögül.

**Aldı Meriban xanım:**

İndi mən bavama bir namə yazaram,
İrca, minnət elər, maveynin düzərəm.
Əsmər xanımnan qulluğunda gəzərəm.
İki şikar bir igidə ar dögül.

**Aldı Lətif şah**:

Lətif şah da arzını yetirdi deme,
Şükür olsun, Əsmər xanımnan gəldi namə.
İndiyəcən mən batmışdım bu ğəmə
İnnən geri mənim dərdim bir dögül.

**Aldı Mehriban Sultan:**

Mehriban Sultan diyər, yerdə qoymam deyini,
Allah güldürməsin qəvli xayını.
Mənnən əvvəl tutax onun toyunu,
O ğərifdi, mənim halım zar dögül.

O vaxdı Mehriban bavasına bir namə yazdı, Lətif şah gəlifdi, bir də bir qız gətirifdi. Pütün olduğu kimi məsələni annatdı. Bavası əmir verdi, şəhər xalxı yasdan çıxdı. Əsmər xanımı da gətirdi. Qırx gün qırx gejə öz qızınnan daha ey onun toynu tuttu. Bir neçə gün qaldıxdan sonra Lətif şahın ana-bavası axlına gəldi. Telli Mehriban, Əsmər xanım, lələ, Lətif şah dördü birrikdə outrollardı. Lətif şah dedi ki:

– Lələ, indi bizə getmək fərz oldu. İndi sizə saznan annadacağam.

Lələ dedi ki:

– Annat baxım, Lətif şah.

Lətif şah dedi ki:

[129] etibarsız

Gönül quşu vətənini arzular,
Yadıma düşüf sila[130], söydügüm.
Qürvət qəhri kar ellədi canıma,
Yana-yana döndüm külə, söydügüm.

Xan bavamdı bu dizimin dirəgi,
Cəsətdə titrər cismim, ürəgim.
Bu yerrərin duz, ətməgi, çörəgi,
Haram olsun innən belə, söydügüm.

Lətifəm də, deyir bir arzumnan qan,
Mansur təkin darlıx görüfdü bu şirin can.
Bir sən, bir mən, qoca lələm, Əsmər xanım,
Tərtif[131] görün düzək-düzək yola, söydügüm.

Söz tamama yetişdi, Mehriban Sultan yerinnən qalxdı, bavasının yanna getdi, dedi ki:

– İzin ver, Lətif şah durmor. Bizi götürəcək öz anasının, bavasının yanna.

Mehribanın bavası izin verdi, hər nə qadar öz qızına eləmişdisə də cehiz, Əsmər xanıma onnan artıx ellədi.

Qırx dəvə yüklədi, bunnarı yola saldı. Munnar getdilər.

Günnərin birisində Yəmən torpağına çıxdılar. Lətif şah ana-bavasına müjdəçi yolladı. Gəldi müjdə verdilər ana-bavasına. Ana-bavası əsgərnən munnarı qarşıladılar. Onnar orda bir-birinnən görüşdü. Döndülər gəldilər paytaxtın ileyində endilər. Bavası da qırx gün, qırx gejə toy tutdu. Onnar orada muradına yetdi. Cümlə həsrətdər də muradına yetsin.

***Kiraz Maçavel***
***(Axıska, Qoyundərə kəndi).***

[130] vətən
[131] tərtib

## AŞIX QƏRİBDƏN

Qürvət eldə baş yasdığa gələndə,
Qayət yaman olur işi qərivin.
Gələn olmaz, gedən olmaz yanına,
Bir ağrıyanda başı qərivin.
Nəğlət[132] oxun qürvət elin adına,
Yetəmədim ləzzətinə, dadına.
Haçan qoyum qardaş düşəndə yadıma,
Axar gözdərinnən qan-yaşı qərivin.

Anam yoxdu, yaxa yırta, saç tökə,
Bajım yoxdu, ala gözdən yaş tökə.
Qardaş yoxdu, qavrım üstə daş tökə,
Bir çalıdı məzar daşı qərivin.

***Kiraz Maçavel***
***(Axıska, Qoyundərə kəndi).***

## QARAPAPAX TÜRKÜSÜ

Ay dolaner batmağa,
Yuxum gəlmer yatmağa,
Əllərim alışıf şux məmə oynatmağa,
  Ölmöydüm, Allah, ölmöydüm,
  Bir daxı o yarı göröydüm,
  Görüf də, sora ölöydüm.
Eşdiyanın üzündə,
Ceyran otdar düzündə.
Mən yarımı tanıram,
Qoşa xal var gözündə.

---
[132] lənət

Ölmöydüm, Allah, ölmöydüm,
Bir daxı o yarı göröydüm,
Görüf də, sora ölöydüm.
Heyva atdım, nar gəldi,
Kətən köynək dar gəldi.
Gün bajadan düşüfdü,
Eylə bildim ki, yar gəldi.
Ölmöydüm, Allah, ölmöydüm,
Bir daxı o yarı göröydüm,
Görüf də, sora ölöydüm.

***Kiraz Maçavel***
***(Axıska, Qoyundərə kəndi).***

## AŞIX ŞENNİYİN TÜRKÜSÜ

Ey fələk, sən bir adamı yara möhtəc eyləmə,
Bülbülü güldən ayrıf, xara möhtəc eyləmə.
Yüz yirmi dört peyğənbər Mustafanın üzü,
hörməti üçün, ya Allah,
Sən bir adamı xəsdə düşürüf, tərə möhtac eyləmə.

Biz gün olur fani dünyədən sürəllər köçüm mənim,
Dəng[133] olur turab içinə tökülür saçım mənim.
Sən də bir ədil padışahlar padışahısan, aff elə
suçum mənim,
Öldürsən, özün öldür, zalım gülə möhtəc eləmə.

Deyər Şenniyim, haqqın divanında üzüm qaradı,
Eyip[134] peyğənbər kimi var cəsətim başdan-başa yaradı,

[133] uyğun
[134] Əyyub

Qula gizdin[135] sirim, ya xudam, sənə əşgərədi[136],
Dərdə dərmən verən sənsən, toxtorlar[137]
möhtəc eləmə.

***Kiraz Maçavel***
***(Axıska, Qoyundərə kəndi).***

## ƏRDƏHAN DÖYÜŞMƏSİ

Dinlə, bəyim, bu qavğanın işini,
Şadıvanda[138] bir əcəyif hal oldu.
Dağlar sədələndi[139], toplar açıldı,
Nas[140] ağlaşdı, didəm yaşı sel oldu.
Ağlama gözdərim ahı-zar indi,
İmdadam yetişən mevla var indi.
Yalağuz[141] çamın gədiyinnən göründü,
Mizam[142]təkbir aldı, gəlhagəl oldu.
Gəlhagəl olanda yürüdü əsgər,
Dört bin[143]qoşun idi tama xülüsgər[144]
İbrahim paşaydı onnara sərəsgər[145],
Əsdi qazax[146] tamam müşgül hal oldu.
Müşgül hal olanda paşa çəkdi qoşunu,
Diz üstündə endi dağın döşünü,

---

[135] gizli
[136] aşkardır
[137] həkimlər
[138] Ərdəhanda bir kənd adı
[139] sədalandı, səsləndi
[140] xalq (camaat)
[141] yalnız
[142] nizamlı əsgər
[143] min
[144] xilaskar
[145] əsgər başçısı
[146] kazak

Hər kəş qoltuğuna aldı başını,
O gün axşamacan çalhaçal oldu.
Çalhaçal olanda əsgər pozuldu,
Qaçax verdi şoş[147]yoluna düzüldü.
O sırəydi hər tərəfə qazet yazıldı,
Alındı Ardahan, qızıl gül oldu.
Qızıl gül olanda şirin söhbət açıldı,
Tifil olannar çiçək kimi biçildi,
Yaralı sağ bir-birinnən çeçildi.
Axtı qoç igidin gülgəz[148] qanı göl oldu.
Seyredifnen gülgəz qana baxmasın,
Analar ağlaşır ki, heş vayna[149] çıxmasın.
El talanı, Ardahanın yağması,
İgirmi dört sahat alhaal oldu,
Alhaal olsa da, gəlmədi imdat,
O sahat arayı kəsdi kafər saldat.
Sarf oldu biri-birinə, qopdu qiyamət,
Çox kimsələrin məzər yeri çöl oldu.
O çöllər qaraldı topun narından,
Urum da qorxdu nasın tarımarından,
Qalxdı Hənəklərdən[150], köçdü yerinnən,
Ülkü[151] aldı, öz başına dəloldu[152].
O ülküydü, Orağazı[153]qırdılar,
Nə dindirdi, nə də möhür verdilər.
Çünkü bu işləri belə gördülər,
El qaçanda hər tərəfə yol oldu.

---

[147] şosse
[148] təmiz
[149] fəryad
[150] kənd adıdır
[151] ürkmək
[152] dəli oldu
[153] kənd adıdır

Yol gəldi Məryəmə[154], görüm bu işi,
Yan-yana düzdülər beşyüz əlli gişi,
Birdən eylədilər tavur atəşi,
Onnar o məkəndə sini-sal[155] oldu.
Sini-sal etdilər dünya üzünnən,
Qan töküldü Ölçəklinin[156] gözünnən,
Gəldi, geşdi Bəyrəxatın[157] düzünnən,
Şoş ətrafi tirpan dəvmiş[158] çel[159] oldu.
Çel kimi töküldü insanın leşi,
İrabatta[160] daha qalmadı ər gişi.
Zən əhlinin[161] dadı[162] nərəyə yetişi?
Çox gözəlin kirşani kül oldu.
Yandı fani dünyə, kül oldu pütün,
Hax yardım eyləsin, bu işdər çətin,
Daha kimsə bula bilməz ləzzətin.
Yeməy üçün yetişmişi kal oldu.
Ləzzəti nə olur kalı yeyəndə,
Sadıx qullar ğəm donunu giyəndə,
Əməyi puç, dizi sıyrıx deyəndə,
Eycə yağın bilin, Kənarbel[163]oldu.
Kənarbelin ağayanı gəzəni
Qalmadı daha içində oxur-yazanı,
Əldən getdi tamam saltanat düzəni.
Eycə salamatı qoyunna mal oldu.

---

154 Çıldırda kənddir
155 şəhid
156 Ardahanda kənddir
157 kənd adı
158 yetişmiş
159 əkin biçərkən yanlara tökülməsi
160 yer adı
161 zənən, qadın
162 fəryadı
163 kənd adıdır

Dəvriş ağa da yandı, baş qomandatın[164] əlindən,
Məni də vurğunan gəndi dilinnən,
Saldatın qurğusunu sökdü belinnən.
Nəacıba[165] qarşı gələn pul oldu.
Pul dedi neçədi saldatın biri,
Mərəmi[166], İsayı qoymadı diri,
Qorxmadı ölümnən, dönmədi geri,
Aslı şəhid desələr, rəsül oldu,
Çox vardı para, başın malı mətəhi[167],
Kənməkən qaldı əlvan odası, otaxı,
Doxsan beş qatdu varda saxlamışdı yatağı,
Üzü qumaş çarşafınan şal oldu.

***Kiraz Maçavel***
***(Axıska, Qoyundərə kəndi).***

## QARAPAPAX AĞITI

1. Yaza nə qaldı,
   Getdi qış, yaza nə qaldı.
   Divit[168]qələmin nə suçu var,
   Mürvət yazana qaldı.

2. Qarğamışa,
   Qar yağar qarğamışa.
   Yüz bin[169] alxış neynəsin,
   Bir allah qarğamışa.

---

[164] komanda
[165] nanəcib
[166] Məryəmi
[167] matağı
[168] mürəkkəb
[169] min

3. Sarı yardan
Su gəlir sarı yardan.
Fələyin öz qaydasıdı,
Ayri[170] yarı yardan.

4. Fələk, sən nə fələksən?
Başıma gəttin kələk sən.
Dar günümdə imdad eləməsən,
Gen günümdə nəymə gərəksən?

5. Bir gün aş,
Hava bin buluttu, bir günəş.
Atım cansız hücüdüm[171]yara,
Bını dellər[172] bin dağları bir gün aş.

6. Mərd oynar,
İgit barmağı mərd oynar.
Dindirməyin mən fağırı,
Ürəyimdə böyük dərd oynar.

7. Bu dağa dolu düşər,
At gedər, nalı düşər.
Sən dərtti, mən yaralı,
Görək hangımızın yolu düşər.

8. Çən ayrı,
Duman ayrı, çən ayrı.
Eşinnən[173] ayrı düşən,
Gəzər hər zaman ayrı.

---

[170] ayırır
[171] vücudum
[172] deyirlər
[173] həyat yoldaşından

9. Bu dərt məni nayıf[174] eylər,
Öldürməz, zayıf eylər.
Düşman görsə, şad olur.
Dos görsə, hayıf eylər.

10. Ordubada
Yol gedər Ordubada,
Qoşunda sərkər layıx,
Vermiyə orduyu bada.

11. Bu dağlar, Kərəmi dağlar,
Gülün yox ki, dərəm dağlar.
Ülüzgar belə əssə,
Ürəgim vərəm bağlar.

12. Gedirəm, Qazax, sənnən,
Almadım mazax[175] sənnən.
Bileydim ayrı düşdüyüm,
Heş getməzdim uzax sənnən.

13. Bu yol Pasenə gedər,
Dönər, tərsinə gedər.
Duysalar ki, bir qərif ölüftü,
Hər keş onun yasına gedər.

***Kiraz Maçavel***
***(Axıska, Qoyundərə kəndi).***

---
[174] sadəlövh
[175] intiqam

## ATLA DEYİŞMƏ

Ardahannan gəlerdim, gəldim Narmanda Nəcif bəyin ciftliynə[176]. Bir zəyif atım vardı. Samannan arpa paraynan istədim. Dedilər ki:

– Arpa yoxdu.

Bir küçük[177] çəpikdə[178] çavdar samanı gətdi. Verdilər atımın öyünə[179]. Atım yidi. Onun da hamsını yimədi, yarsını yidi. Ordan mindim atımı. Sürdüm, gəldim, çıxdım Karşemin üstündə yoxuş dağa. At altımda durdu. Atı endim, ileymə[180] qatdım. At getmədi.

Hər nə elədimsə, at getmir. Baxdım ki, olacax döyül. At ta souxdan öləjək, mən də. Dedim ki, heş omasa, bir-iki mahnı söylüm, bəlkə, bu at gedə.

**Dedim:**

– Əyləş, köhlən, əyləş, dərdinnən qanem,
Layıx görərmisən neçə bir baş ucunda
souxdan ölem.
Gedək Əzruma, sənə çul alem,
Vurum, dalına, mineym hər yana.

**At dedi ki:**

– Dur, bir də mən söyləjem:

Yalançının olmaz, – dedi, – imanı,
Öyündə yoxdu bir öyüç arpıya güməni,
Leyimə tökdün, Nəcif bəyin çiftliyinə
bir övüç çavdar, samanı,
Bir su da vermədin ki, içem qana-qana.

---

[176] bağına
[177] kiçik
[178] qabda
[179] önünə
[180] qabağıma

**Sora başladım mən:**

Gələjəyə tədərigin görmüşəm,
Bəhlə düzündə qoca qordu[181] qurmuşam
Güz olanda harmanını dövmüşəm,
Qodunan arpanı devrem sənə.

**At dedi ki:**

Yeniyə eylədin məti[182],
Onnan da əl çəkdirdin zatı.
Hirtif, Ketüfan, Tortan[183], kürtlərin atı,
Orda da dən qoymaz qandırem sənə.

***Kiraz Maçavel***
***(Axıska, Qoyundərə kəndi).***

## DEYİŞMƏ

**QIZ:** Mən bir ala ceyran olsam,
Dağlara düşsəm, neynərsən?
Çöllərə düşsəm, neynərsən?

**OĞLAN:** Qız, yavaş,
Sən bir ala ceyran olsan,
Çöllərə düşəjək olsan,
Mən bir nüsübət[184] oyçu ollam,
Ceyranı vursam, neynərsən?

**QIZ:** Sən bir nüsübət oyçu olsan, oğlan,
Ceyranı vurajax olsan,
Mən bir quş olsam,
Havada uşsam,neynərsən?

---

[181] tarla
[182] mədhi
[183] yer adları
[184] müsibət

**OĞLAN:** Sən bir quş olsan, ay qız,
Havada uçajax olsan,
Mən bir doğan olsam,
Quşunu tutsam, neynərsən?

**QIZ:** Sən bir doğan olsan, oğlan,
Quşu tutajax olsan,
Mən bir nar ağacı ollam,
Bağlarda pitsəm, neynərsən?

**OĞLAN:** Sən bir nar ağacı olsan, ay qız,
Bağlarda pitəjək olsan,
Mən o bağa bağmançı ollam,
Narını yisəm, neynərsən?

**QIZ:** Sən o bağa bağmançı olsan,
Narımı yiyəjək olsan,
Mən bir ağılı şahmar ollam,
Əlini çalsam, neynərsən?

**OĞLAN:** Sən bir ağılı şahmar olsan,
Əlimi çalajax olsan,
Mən bir hajleyləy ollam,
Şahmarı vursam, neynərsən?

**QIZ:** Sən bir hajıleyləy olsan,
Şahmarı vurajax olsan,
Mən bir oyuç darı ollam,
Yerə səpilsəm, neynərsən?

**OĞLAN:** Sən bir oyuç darı olsan, ay qız,
Yerə səpiləjək olsan,
Mən bir qırx cücəli touğ ollam,
Darını yesəm, neynərsən?

**QIZ:** Sən bir cücəli touğ olsan,
Darıyı yiyəjək olsan,
Mən bir qonur gözdü tülkü ollam,
Cücəni qırsam, neynərsən?

**OĞLAN:** Sən bir qonur gözdü tülkü olsan, ay qız.
Mən bir alaca tazı ollam,
Tülküyü boğsam, neynərsən?

**QIZ:** Sən bir alaca tazı olsan,
Tülküyü boğacax olsan,
Mən bir qızıl alma ollam,
Sandığa girsəm, neynərsən?

**OĞLAN:** Sən bir qızıl alma olsan, ay qız,
Sandığa girəjək olsan,
Mən o sandığa kilid ollam,
Almayı yisəm, neynərsən?

**QIZ:** Sən o sandığa kilid olsan,
Almeyi yiyəjək olsan,
Mən o öydə bir gəlin ollam,
Sallanıf gəzsəm, neynərsən?

**OĞLAN:** Sən o öydə gəlin olsan, ay qız.
Sallanıf gəzəjək olsan,
Mən bir qosqodur[185] oğlan ollam,
Belini sarsam, neynərsən?

***Kiraz Maçavel***
***(Axıska, Qoyundərə kəndi).***

---

[185] gənc

## QIZIN YAŞ DASTANI

Ana irəhninnən[186] dünyəyə gələndə,
Yengi[187] tifiləni təzə qız olu.
Üş yaşınnan dört yaşına varanda,
Qoyma qomşulara, o bir söz olu.

Gözəl ossa, beş yaşınnan öyülü,
Yeddisində qonça güldən təz olu[188].
Səkkizində hilal qaşdar əyili,
Vəzüfü[189] bədirrəni[190] xumar göz olu.

Dokquzunda tərif gələr mətinə[191],
On yaşında minər eşiqin atına.
On birində dolar, şişəy[192]ətinə,
Cismi bilorlanı, əmlig quz olu.

On ikidə gərdən qırar, sallanı,
On üçündə günəş üzü allanı.
On dördündə cığaları telləni,
Hər bir əzəsində[193] yüz min naz olu.

On beşində niqab atda bəsdəni,
On altıda adı-şanı səsdəni.
On yeddidə elçi-elçi isdəni.
Fiyat[194] vuru, müştərisi yüz olu.

---

186 bətnindən
187 yeni
188 təzə olur, yəni tər olur
189 vəchi –üzü
190 bədirlənir
191 mədhinə
192 balıq əti
193 əzasında
194 qiymət

On səkkizdə girər gəlin çağına,
On dokquzunda gedər yar otağına.
İyirmisində bülbül qonar bağına,
Açılı gülləri, bahar, yaz olu.

İyirmi üçündə sucalanı[195]camalı,
İyirmi beşdə bular hər bir kamalı.
Otuzunda kətxudadı, deməli,
Fəhmi əhlləni[196]xoş məcaz olu.

Otduz üşdə doğru söylər lisanı,
Otduz beşdə heş osandırmaz insanı.
Qırx yaşında hər sevdadan osanı,
Zayıflar dərisi, əti az olu.

Qırx üçündə söylər gizdin sirini,
Qırx beşində gözdən salar ərini.
Əllisində "nənə" deyər torunu,
Toylar nutbağında[197]həp aşbaz olu.

Əlli beşdə gözdən düşər əməyi,
Altmışında heş yeelməz yeməyi,
Altmış beşdə giyər kətən köynəyi,
Donu çitdən, əntərisi bez olu.

Yetmişində var axılnı itiri,
Səysənində əzaları batırı.
Doxsanında bilməz gönül xətri,
Söyər qomşulara küsaküs olu.

---

195 açılmaq, dolğunlaşmaq
196 artır
197 mətbəx

Şennik doxsan beşdə söylər işdəri,
Yüz yaşında çıxar quzu dişdəri.
Baş yasdığı olu olax daşdarı
Tüsdü vurar, var əndamı his olu.

***Gülüsdan Çobannar***
***(Zarşat, Goş kəndindən)***

## DAŞDAMA

Şennik Zınzalda[198] kəndlərinə gedərkən baxdı ki, üş qarı qarşıdan gəlir. Qarının biri güldü, birsi dedi ki:

– Ayıfdı, qavaxdan kişi gəlir.

O birisi dedi ki:

– Cəhənnəmə gəlsin, qara yola gəlsin.

Belə Şennik bunnara yaxın gələrkən bunun əlində bir əl ağacı vardı. Böylə gösgünə[199]basdı:

– Əyləşin bajı, – dedi, deyəndə aldı Şennik:

Böyün gözəllərə gəlhagəl oldu,
Bir gəlin də mən fağıra söyüfdü.
Qəvli[200] xayın, üzüqara, urusbu,
Demədinmi, eşidillər, ayıfdı?

Gəndinə baxmer, lağ edər bizə,
Boynu armud sapağı, məməsi küzə.
Şirkət saçını pükmüş ağ bezə,
Dazalax başına dingə[201] qoyufdu.

Süysünündə[202] leylək yuva qayırı,
Qoltuğunun tükü bir camış doyuru.

---

[198] Çıldırda kənd
[199] köksünə
[200] qəlbi
[201] baş örtüyünün qalıbı
[202] ənsə

İraiz[203] iraiz gülər ağzın ayrı,
Qazma kimi dişdərini əyifdi.

Gözdəri göz irəngi sarı,
Üzündə yoxdu Məhəmmət nuru.
Özinnən beyxəvər nursuzun biri,
Qul Şenniyin xətrinə dəyifdi.

## DÖNDƏRMƏ

1. Eləmi yatan qarı,
Dağların yatan qarı.
Kşinin öynü yıxar,
Çuvalda un satan qarı.

2. Eləmi yatan qarı,
Dağların yatan qarı.
Kşinin öynü yıxar,
Axşamnan yatan qarı.

Elə döyül, ay aşıx:

3. Eləmi, daş daşı,
Kəsək daşı, daşı daşı.
Çirkinnən bal yemə,
Gözəlnən daş daşı.

4. Eləmi, gözəl alma,
Yeməyə gözəl alma.
Əsilli çirkini al,
Bədəsil gözəl alma.

---

[203] arsız

5. Hər kimin yarı gözəl,
Həm öpər, həm qucar.
Hər kimin yarı çirkin,
Hirsinnən tütün içər.
Hər kimin ki də yoxdu,
Ah-vahnan günü keçər.

6. Eləmi təzə qarı,
Dağların təzə qarı.
Yarı çirkin olanın,
Sakqalı tez ağarı.

7. Eləmi alma məni,
Oğlan, xublara salma məni.
Gəl, gedək zərraf yanına,
Qəlb[204] olsam, alma məni.

**Döndərmə:**

Elə doyül, ay aşık:

8. Alma məni,
Oğlan, xublara salma məni.
Soyun, gəl, gir yanıma,
Əlinə al məni.

9. Eləmi, balığ üzdü,
Dəryada balığ üzdü.
Yeyir malını, gözəl yesin,
Yeməsin çarığ üzdü.

***Gülüsdan Çobannar***
***(Zarşat, Goş kəndindən)***

---

[204] qəlp, saxta

## AŞIX GÜLÜSDANDAN

Sənəm sallandı, gəldi qarşıma,
Qaldırı başını, düzüynü[205] gözdər.
Qaymax dodaxlar tərpəni dil danışanda,
Söhbət elər, şirin sözünü gözdər.

Sürməli gözdəri süzdürüf bir qıya baxarsan,
Şirin canım eşq oduna yaxarsan.
Tək də bir sallanı, qarşıya çıxarsan,
Gendən qırar cilvə nazını gözdər.

Aşıx Gülüsdan gənə söhbət elərsən,
Şirin canım eşq oduna teylərsən[206],
Girər bir tikənə bazar eylərsən,
Kənara baxar, bezini gözdər.

***Gülüsdan Çobannar***
***(Zarçat, Goş kəndindən)***

## VAQUFUN SÖZDƏRİ

Dedim can al, məni cannan eyləmə
Göründü gözümə şuğ məmələrin.
Gecənin yarısı şirin yuxuda,
Beyqafıl üsdümə yıx məmələrin.

Gözəllik çətindi, sən özün öymə,
Qaşdarın qaradı, neynirsən sürmə.
Altdan kətən köynək, üstünnən düymə,
Al sinən üsdünə sıx məmələrin.

---

[205] düzlük
[206] dağlarsan

Xudam sənə qələm verif, qaş verif,
İnci, mərcan, dürdənədən diş verif.
Yumrulanıf, köynəy atdan baş verif,
Baxanda qan eylər, qız, məmələrin.

Hamayıl taxıfsan sağı-soluna,
Cilvə vermiş şana dəyməs telinə.
Beylə müşdəri düşməz əlinə,
Sat, eyla Vaquva kar məmələrin.

***Gülüsdan Çobannar***
***(Zarşat, Goş kəndindən)***

## MƏRDAN DAĞIYNAN MEYDAN DAĞI

Varıdi, yoğıdi, Allahdan ayrı kimsə yoğıdi.
Zırza sökən,
Düymə tökən.
Axurlux qopardan,
Cin üzli,
Cinərə çehrəli,
Oso, toso,
Fisdan qaşli,
Mərcimək gözli
Yanmiş çörəyüzli,
Ölə həpisi burdeydi.

Bir gün, günnərin bir günündə şahzadə tudti lalənin[207] yaxasıni ki:

– Laləm, altın nədir, gümüş nədir, paxır[208] nədir?

Dedi ki:

– Bülməm.

Dedi ki:

---

[207] lələsinin
[208] mis

– Boynuün vururum.

Lalə başladı:

– Bən beləliynən vuramam. Bəhen[209], şahzadəm, qırq gün izin ver.

Gəzdi, dolandi, dünyayi geşdi, güdar[210] etdi, buna heç kimsə cavab vermədi. Soxaxdan[211] gəliyrdi, bir süpürgəci süpürgə bağlar ki, sata. Baxdi ki, yanında da bir qıznan, süpürgəcinin qarısi də yanında durir.

Lalə dedi ki:

– Bir su verin, içək.

Suyi qız getdi gətirdi də, lalə baxdi ki, bu elə bir tərbiyəli uşax ki, qızın anasi sordi ki:

– Siz nə arirsiz[212] ki, belə susamız?

Lalə dedi ki:

– O ki dərdimə illac edəməsin.

Ordan qızi dedi ki:

– Hələ, – dedi ki, – baxax sənin dərdin nədir.

Dedi ki:

– Bögün qırx gündür, bən dolanirim.

Şahzadə deyir ki: "Altın nədir, gümüş nədir, paxır nədir".

Qız diyir ki:

– Onnan qolay söz nə var ki, laləm sağ olsun. Altın şahzadənin gəndidir[213]. Gümüş də sizsiz. Axan bakır da bizik.

Gəlir şahzadəyə söylir ki:

– Ahan filan yerdə bir süpürgəcinin qızi buldi, daha bumudur, bu degilmidir, bülmirim.

Şahzadə diyir ki:

---

209 mənə
210 güzar
211 küçə
212 arayırsız
213 özüdür

– Budur, bulmuş, get bu qızi allahın əmriynən bəhən[214] istə.

Bavasına verir bin axça, alır bu qızi. Sonra diyir ki:

– Bən dügün edəcem.

Sora qız diyir ki:

– Bənim əgər ibriyimi doldurir, nallınarımi çevürürsə, bənim odama gəlsin.

Sora üş kərləm adam yollir ki, üş kərlə də elə diyir.

Sora da təgini verir də, adam yollir ki:

– Bənim camaşırımı hazırlasın. Meydan dağına gidirim seyrana.

Bu qız eşidir, onnan əvvəl götirir çadıri, vurir Meydan dağına.

Ertəsi günü də şahzadə Meydan dağına gedir. Çadıri vurir Meydan dağına. Bir gün ava quşa çıxir şahzadə. Baxır ki, bənim çadrımdan əvəl bir çadir var, ama ki, heş bu çadırın qapusunda heç erkək yox. Sora buni kusetlir[215], pusir, baxir ki, elə bir nazənin qız var ki, görmiye məhsüs.

Oyanni, buyanni bu qıznan alışır, gidir, gəlir, artıx hınqılım, şınqılım, bir qırx gün bu dağın başında belə bu qıznan qalillar. Sora artıx çadırlari alillar aşşaği. Amma orda sağ qolunnan bezvandını[216] da qıza yadigar verir. Sora enillər ki, aşşağıya bir daha adam yollir ki:

– Bən dügün edəcem, süpürgəci qızi hazır olsun.

O da gənə diyir ki:

– Bənim nallınarımi çevürür, ibriyimi doldurursa, bən onu odama qoyaraım.

Gənə diyir ki:

– Yox, bən nə nallınarıni döndəririm, nə də ibriyini doldururum.

---

[214] mənə
[215] gözətləyir
[216] bazubənd

Baxir ki şahzadə, olmir. Bu heş dügini yaxın qoymir. Gənə adam yollir ki:

– Bənim camaşırlarımı hazırlasın ki, bən gidirim Meydan dağına seyrana.

Bu qız camaşırları yollir şahzadənin, gəndi gidir çadıri vurir andan əvəl Mərdan dağa. Ama əvəlki dağdan ki endi ya. Doqquz ay sora bir oğlan çocuği oldi. Adıni qoydi Meydan daği. Sora ki getdi çadıri Mərdan dağına, ondan sora də gənə şahzadə götirdi, vurdi çadıri Mərdan dağına.

Şahzadə bir gün gənə çıxdi ava-quşa, baxdi ki, gənə bir çadir var orda. Gənə bu çadırin yannarında dolandi, baxdi ki, gənə bu qız. Getdi, görüşdülər, buluşdular, gənə qırx gün qaldılar Mərdan dağında. O dağda da bir gümüş qəməri[217] vardi, onu da qıza yadigar verdi. Çadırlari gənə aldılar aşşağı.

Bir zaman gənə durdular aşşaxda. Gənə doxquz ay, doxquz gün, doxquz saat, doxquz dəxqə tamam oldi, bunun gənə bir oğlan çocuğu oldi.

Bir gün şahzadə xəbər yolladi ki, bən dügün edəcəm.

Qız da gənə dedi ki:

– Nalınnarımi döndərürsə, irbığımı doldurursa, bən onu odama qoyarım.

O da başladi ki:

– Gənə bəhən bir qat camaşır gənə hazırlasın, bən gidəcəm İnci dağına.

Sora gənə don kömnəgi yolladıxdan sora, əvəl götürdi çadırni vurdi İnci dağına. Sora da şahzadə götürdi, gəndi çadırni vurdi. Gənə bir gün şahzadə başladi ava-quşa getmiyə. Baxdi ki, gənə bir çadır var bu İnci dağına. O çadrın yannarini gənə dolandı da dedi ki:

[217] balaca qılınc, qəmə

– Ya rəbbi, ya rəsulallah, bu nə ola, bu çadıri bəndən əvəl gətirir, vurir bu dağa.

Bu şahzadə baxır ki, gənə bu qız. Bunnan gənə görişir, gənə qırx gün qalillar bu İnci dağında. Gənə çadırlari alillar aşşaği.

Daha bu şahzadənin canına yetir. Adam yollir ki, sözün sonudur, daha dügün edəcəm, yetər bəni oynadir. Amma bu İnci dağında bir ipək məndil verdi qıza yadigar.

Qız dedi ki:

– Bənim nalınnarımi döndərirsə, irbığımi doldurursa, bən onu odama qoyarım.

Ama gənə qızın doxquz ay sora bir qız çocuğu oldi.

Bizim uşaxlar yılnan, aynan böyir. Bu hekat uşağı günnən böydi.

Bu xabəri aldi süpürgəci qızınnan ki, bu bəhən gəlmiyəcək.

Getdi bir lalənin qızıni aldi, buna dügün başladi. Dügün edirdi. Süpürgəci baxdi ki, bu şahzadə evləndi, gəndinə dügin edir. Gətirdi, bu uşaxları geydirdi, bəzətdi, əl-ələ tutdurdu. Mərdan dağının qoluna bağladı bazvəndi, Meydan dağına belinə bağladı qəməyi, İnci xanımın başına bağladı məndili. Bunnarı dügünə yollirdi. Amma orda ki dügün olırdi, şahzadə də salamlıxda gəzinirdi. Baxdı ki, üş tanə çocux, dügün qapusuna doğru gidir.

Dedi ki:

– Lalə! Bənim bu çocuxlara bənim elə qanım qaynadi ki, hələ səslə bu çocuxlari, baxax, nerə[218] gedillər.

Lalə getdi bu çocuxları gətirdi. Şahzadə bu çocuxlara sordi ki:

– Çocuğum, siz nerə gedirsiz?

Meydan dağında olan çocux böyügüdi, dedi ki:

– Meydan qardaş, Mərdan qardaş, İnci bacımızın əlinnən tutmuşux, bəy bavamızın dügünnə gedirik.

[218] haraya

Şahzadə baxdi ki, bu çocuxlara, bu Meydan dağında verdiyim bazvənt böyük çocuğun qolunda, Mərdan dağında verdiyim qəmə də küçüg oğlanın belində, onun adı da Mərdan dağı. İnci dağında verdiyim məndil də bu qızın başında. Hərhal, diyir, bu bənim verdiyim yadigərlər, bu çocuxlar da bənim olur. Onüçün də bən belə sevdim bu çocuxlari.

Laleyə söylədi ki:

–Lalə! O lalənin qızıni daha bən almirim. Hər nə qədər məsrəfim varisə,ona ossun. Daha bən almirim.

Lalənin qızının dügünini dağıtdi. Tərkəldən[219] qırq gün qırq gecə toy-dügün etdi süpürgəcinin qızına, sora çocuxlara sahab oldi. Onnar yedi, işdi, yerə geşdi.

Göydən üç alma düşdi: ikisi hekat söyliyənə, biri də cəmahətə.

***Əzzə Duman***
***(Qars, Qala içi)***

## QARAPAPAXLARDA GƏLİN TƏBRİKİ

Gəlin diyər, yoxdur anam,
Başımdan aldılar valam.
Qaynanam da sənin anan,
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin diyər, yoxdur atam,
Qoyunum yox, qoça qatam.
Qaynatam da sənin atan,
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin diyər, yox qardaşım,
Qarlı dağlar nasıl aşım?

---

[219] təzədən

Qaynın sənin qardaşın
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin diyər, yoxdur bacım,
Başımdan aldılar tacım.
Görümün[220] də sənin bacın,
Gəlin, xoş gəldin, xoş gəldin.

***Əzzə Duman***
***(Qars, Qala içi)***

## NANAY

1. Qaladan endim Qarsa xəzəllər, gözəllər,
Qavurma basdım tasa, gözəllər.
Bənim yarım çox gözəl,
Azacız boydan qısa, di gəl, yar.

2.Qaladan endim, ancax xəzəllər,
Başında yeşil sancax gözəllər.
Nə qız oldum, nə gəlin,
Odlara yandım ancax, di gəl, yar.

3. Qalanın burcumiyim, xəzəllər?
Dilbilməz gürcümiyim, gözəllər?
Əllər nə dersə, desin,
Bən onun xarcımıyım, di gəl, yar.

4. Qaladan Qalaya bən gördüm oni,
Maudur şalvari, bayazdır doni.
El bülür, aləm bülür,
Bən sevdum oni, di gəl, yar.

[220] baldız (görümcə)

5. Qıratın boylamasi,
Çək dizgin, oynamasın.
Gidersin, gecədən get,
Sabağa qalıb, ürəyim oynamasın.

6. Qırat, binərim səni,
İlğar sürərim səni.
Bəni yara qavuşdur,
Zərbap[221] çullarım səni.

7. Qıratın boynu qara,
Binim, gedim ilğara.
Ya gəlim, ya gəlmiyim,
Qalasın bəxtiqara.

8. Qırat bazara gəldi,
Tuyi qızara gəldi.
Bənim yarım çox gözəl,
Bəlkə, nazara gəldi?

9. Qırat baxçada otlar,
Əlim qəcəri[222] qatlar.
Desələr, yar evlənir,
Gestinən bağrım çatlar.

10. Qıratım boza-boza,
Çiynində qızıl qoza[223].
Yavaş yeri, çər dəymiş,
Yarı buladın toza.

***Əzzə Duman***
***(Qars, Qala içi)***

---

[221] zər-bafta
[222] ipəkdən at çulu
[223] tüfəng

## ÜŞÜDÜM

Üşüdüm, üşüdüm,
Dağdan alma düşürdüm.
Almacığım aldılar,
Bəni yola saldılar.
Yolda gedərkən,
Bir darax buldum.
Darağı nəniyə verdim,
Nənə bəhən[224] bir kətə verdi.
Kətəyi çobana verdim.
Çoban bəhən bir qoyun verdi.
Qoyunu bəyə verdim,
Bəy bəhən bir at verdi.
At bindim, getdim Qarasuya,
Qarasudan qannar axır.
İki dilbər bəhən baxır.
Böye yenə səlam verdim,
Küçüyünü aldım, qaşdım.

***Əzzə Duman***
***(Qars, Qala içi)***

## QARAPAPAX TƏKƏRLƏMƏLƏRİ

**1**

Bir, iki,
Bülbül təki.
Tahan otu
Təndir ...
Daş atar, doşan tutar.
Camiyə gedər,

[224] mənə

Caminin qapısı kitli,
Ömərin başı pitdi.

**2**

Ali bava, dum, dum,
Saqqalına qondum.
Beş para tafdım,
Çarşıya getdim.
İsti pişdi,
Qaşıx yox,
Öküz gəldi,
Otdux yox.

**3**

Çocuxdum, facıxdım,
Top oynadım, acıxdım.
Yolda bukdum bir ərik,
Qapdı bir ala geyik.
Geyik yolu şaşırdı,
Qaf dağını aşırdı.
Atdı məni bir gölə,
Göldə buldum izini,
Qaşdım, tutdum dizini.
Geyik dedi, neynərəm,
Vurdum səni, ölərsən.

***Ali Sultan***
***(Ərdahan, Dikan kəndi)***

## MANİLƏR

1.Qara qoyun qadimi,
Sultan qoyun adimi.
Elə çıxem içnizdən,
Unudasınız adimi.

2. Tüfəngim allı-pullu,
Neynərəm dulu-mulu.
Alırsam, qız alaram,
Ətəkləri cin pullu.

3. Su gəlir ata-ata,
Əlində gümüş balta.
Ağrıyer gəmiklərim.
Yalağız[225] yata-yata.

4. Su gəlir lüllə-lüllə,
Yar gəlir gülə-gülə.
Əlində ipək məndil,
Tərini silə-silə.

5. Al alma dörd olaydı,
Dördü də mərd olaydı.
Yarımın datlı[226] sözü,
Qalbimdə dərt olaydı.

6. Qarənfil dal[227] yuxarı,
Dalları baş yuxarı.
Mən geşdim yar qapsınnan,
Demədi, gəl yuxarı.

***Ali Sultan***
***(Ərdahan, Dikan kəndi)***

---
[225] yalqız
[226] şirin
[227] budaq

## NAĞIL

Vaxdin da brində bir ər varmış, bir də arvadı. Bu arvadın əri qalxeyr, gedeyr bir uzax yerrərə alış-veriş eləməyə. Bu arvadın qoyor qaynının yanında. Qoyor, geder. Gəl vaxıt, get vaxıt, qaynı bu arvada deyir ki:

– Gəl mənnən oynaş ol, – deyir.

Amba arvad deyir ki:

– Mən ərimin irzrnə haram baxmaram.

Qaynı deyir:

– Yox, olar.

Arvad diyir:

– Yox, olamaz.

Sonra bu arvadı götrör qaynı bir yolun qırağında munu daş-qalax eder.

Günnərin birində burdan bir karvan bəzirgən gəleyr, yoldan keçir. Baxer ki, bir daşın içində bir arvat zarrıya-zarrıya durur. Sonra bu bəzirgən o arvadı ordan çıxardeyr, o daşın içinnən götrör öz öynə.

Bir arvad, bir oğlu varmış beşıkdə o bəzirgənin. O arvadı bu oğlana qulluxçu-qaravaş edeyr. Bu bəzirgənin də öydə bir araf[228] nökəri varmış. Sonra bu araf bu arvada deyir ki:

– Gəl sən mənnən oynaş ol, ağamız bilməsin.

Arvat deyir:

– Yox, olmaz. Mən ərimin irzinə haram baxmaram.

Sonra bu araf gəleyr bu bəzirgənin oğlunu puçaxnan boğazdeyr. Puçağı gətirir qannı-qannı bu arvadın yatdığı yerdə civinə qoyor.

Bəzirganın arvadı qalxır ki, oğlu boğazdanıf beşiyin içində. Sonra bu arvad ağleyr, sızleyr, onnan bəzirgan gəleyr. Kim elədi munu, kim eləmədi munu. Araf ordan qalxeyr ki:

---

[228] ərəb

– Hər kəsin üstünü arayın, gəzeyn, – deyir, – kimin üstən qannı pıçax çıxdısa, o boğazdamış, – deyir.

Bu bəzirganın arvadı deyir ki:

– Bu arvadı illahım öldürginən, bu oğlanı boğazdıyan budu.

Sonra bəzirgan deyir ki:

– Yox, bu oğlanı boğazdıyan bu arvat döyü.

Sonra bəzirgən bu arvadı apardı bir şəhrin qırağına qoydu, gəldi.

Axırda bu arvat gəzə-gəzə getdi dəryanın qırağına çıxdı. Bu arvat sonra getdi gəmiyə mindi. Bu gəmidə nə ki kşilər vardı, nə ki adamlar vardı, hamı gənə dedilər ki, gəl, biznən oyna. Bu arvat razı olmadı.

Sonra bu arvat dedi ki:

– Qoyon, avdas alem, ilkindi namazımı qıleym, – dedi.

Namazını qılannan sonra bir pırtına[229] qalxdı, bu gəmidəki pütün adamları batırdı, bu arvat qaldı gəminin içində. Gəmi gedə-gedə getdi bir şəhrin qırağına çıxdı. Baxdı ki, burda bir böyük şənnik yığılıf, qatma-qarışıx. Deyir:

– Bu nədi?

Dedilər ki:

– Burda bir böyük adam ziyarat vardı, o öldü. İndi bir quş var, – dedilər, – bu quşu uçuruf baxacaxlar, bu quş kimin başına qonarsa, onu ziyarat yapacaxlar.

Quş bu arvadın başına qondu, onu ziyarat yafdılar. Kor, şil, topal gedif ona ziyarat etdiyinən qurtuldular.

Sonra arvadın qaynı kor oldu. Arafın da iki əlləri, iki ayaxları topal, küt oldu. Sonra o gəmidə bir kşi qalmışdı, onun da iki gözləri kor oldu. Söylədilər ki:

– Filan yerdə bir belə ziyarat var. Kor gedən qurtuluf gəleyr, şil gedən qurtuluf gəleyr.

---

[229] fırtına

Arvadın qaynı arvadın qardaşına dedi ki:
– Məni götrön o ziyarata gözdərim qurtulsun.
Onun qardaşı aldı, gəldi arafın yanna. Araf da bunnara qoşuldu, dedi ki:
– Məni də götrön. Bəlkə, mənim də gözüm qurtula.
Sonra gedellər o gəmidəkinə. Gəmidəki gənə yalvareyr ki:
– Məni də baravar götrön, bəlkə mən də qurtulam.
Arvadın əri bunnarın üçünü də götrör o ziyarata, arvadın yanna.
Yolda arvadın qaynı ərinə deyir:
– Sənin də arvadın bu yola gedif, mən onu götdüm, daşqalax elədim. Sonra munnar gedellər arvadı ziyarata.
Sonra bu ziyaratda arvada deyellər ki:
– Səni dörd adam gəlmiş ziyarata.
– Gəlsinnər dördü də birdən içəriyə, – deyir.
Girəllər içəri, görəndə arvat tanıyer, deyir ki:
– Bu mənim ərimdi, bu mənim qaynımdı.
Qaynına deyir ki:
– Sənə nə oldu ki, gözün kor oldu, əlin də topal oldu?
Bu söyləmiyir.
Deyir:
– Yox, söyləməsən, qurtulmayacaxsan
Hanı bu qardaşınnan utanır ki, söylüyə. Sonra başdeyr söyləmiyə. Deyir ki:
– Qardaşımın arvadına belə etdim, şər elədim. Onnan gözüm kor oldu, əllərim də çolağ oldu.
Sonra arava dedi:
– Sənin gözün niyə kor oldu, əllərin niyə topal oldu?
O da söylör ki:
– Mənim ağam bir arvat gətdi, mən də ona şər ellədim, oğlunu da mən boğazdadım.
Sonra gəmiçiyə söylədi:

– Sən niyə belə zəlil oldun?

O da söylör ki:

– Bir arvat gəldi bizim gəmimizə. Gəmidəki kşilər istədilər ki, belə yapa. Arvad izin vermədi. O ki gəmidəkilər qırıldı, mən də arvadı dəryadan qırağa çıxartdım. Sonra mən arvada dedim ki, gəl mənnən ol. O da irazı olmadı. Onnan sonra mən belə kor oldum.

Arvadın məqsədi budu ki, ərinə dinnətsin. Ərinə də tanışdığı verir və ırzlı olduğunu göstərir.

Burda arvat öz tacını qoyur ərinin başına, özü də itir gedir. İyilərdən olduğu üçün gedir və qurtulur.

***Hənifə Özər***
***(Axıskalı, Zarşat)***

## QARAPAPAX TAPBACALARI

1. Bu dağda lalə gəzər,
Əlində piyalə gəzər.
Nə qığıllar, nə yumurtar,
Dalıncax lalə[230] gəzər. ***(Ay, ulduz)***

2. Çığ-çığa aman,
Cübbəsi tamam.
Bir gəlin əldım,
Bavası imam. ***(Saat)***

3. Dağda düləymən gördüm ***(Dələmə-pendir),***
Suda süleymən gördüm. ***(Balıq)***
Duzsuz pişən aş gördüm, ***(Halva)***
Yatar, göyşər daş gördüm ***(Dəyirman).***

---

[230] lələ

4. Quranda mimsiz *(**İnnadeyna surəsi),***
Heyvanarda dilsiz ***(Balıq)***.
Meyvələrdə gülsüz ***(Əncir)***

5. Daşdandı, kömürdəndi,
Keçən gün ömürdəndi.
Lalə bir yemiş yedi,
Ağacı dəmirdəndi. ***(Şiş kavaf[231])***

6. Hacılar Haca gedər
Cəht edər, gecə gedər.
Bir yumurtanın içində,
Qırx-əlli cücə gedər. ***(Nar)***

7. Nə yerdədi, nə göydədi,
Qəndildədi, qəndildə. (**Baca**)

8. Ayım ayım, ayamat,
İçi dolu qıyamat.
Yaş verdim, quru çıxdı,
Məhəmmədə salavat. ***(Təndir, əppək)***

9. Bu dünyə gəldi cansız.
O dünyə getdi cansız.
Cənnətə girdi gümansız. ***(Peyğəmbərin əsası)***

10. Abdəs almaz, namaz qılmaz,
Camahətdən də geri qalmaz. ***(Kölgə)***

11. Bizdə bir çişi var,
Atta üş tişi var. ***(Sacayağı)***

---

[231] kabab

12. Bizdə bir çişi var,
Köndələn yatışı var. *(Mütəkkə)*

13. Düzüm-düzüm nar,
Düzümə tək qar,
Əsli sədəf,
Qondi dilbər. *(Xamur taxtası)*

14. Tatoğlu tatdadı,
Əcəm sıfatdadı.
İrmi dört yıldız,
Dört ayın attadı. *(Nal, mıx)*

15. Eləmi bu suda,
Xalları bu suda.
Yeddisi göyə çəkildi,
Üçü qaldı bu suda. *(Camış)*

16. Dağdan gəlir araplar,
Əyağində çoraplar. *(Arı)*

17. Mənim atam atdı, mən yayan[232],
Əlimdə dəmirdən dayax, dizinə tək çamur,
Qurşağına qədər su,
İşdərkən gənə toz qopar. *(Dəgirmən, un)*

***Hidayət Özər***
***(Axalkələk, Sağamon kəndindən)***

[232] piyadə

## MƏSƏL

Eləmi çidari,
Çidəridən çidəri.
Aşıx bir nəsnə gördü,
Üzi ət, içi dəri. **(Taşlıx)**

***Əzzə Duman***
***(Qars, Qala içi)***

## DEYİŞMƏ

Ağdaşdan,
Yendim, gəldim Ağdaşdan.
Ağ liçək düşdü başdan,
Sənə tərzi deyəllər,
Don piç mənə daşdan.

Digər bir şair:
Eləmi Ağdaşdan,
Yendin, gəldin Ağdaşdan.
Ağ liçək düşdü başdan,
Mənə tərzi deyəllər,
Qumdan xayatı[233] eş,
Mən də don piçim sənə daşdan.

***Hidayət Özər***
***(Axalkələk, Sağamon kəndindən)***

## BAĞLAMA

Aşşağdan bir ay doğdu,
Aşşığ aşşığı boğdu.

---

[233] ipəkdən iplik

Anası Beşikdəykən,
Qızı bir oğlan doğdu[234].

***Hidayət Özər***
***(Axalkələk, Sağamon kəndindən)***

Eləmi qan ayaği,
Qan tutmuş qan ayaği.
Bögün mən bir nəsnə gördüm,
Üş başı var, on ayaği[235].

***Əzzə Duman***
***(Qars, Qala içi)***

## NORUZ TÜRKÜLƏRİ

İlin axır çərşənbəsi gejəsində üzüh salerdik, niyət tuturdux. Onnan sora hər çıxan üzüh üçün bir mahnı çağreyrdik:

Üzük atdıx çayra,
Soyxu[236] düşdü bayra,
Yığılın qoyum[237], qardaş,
İşimiz döndü xeyrə.

Ələhlər, ələhlər,
Çərmənif ağ biləklər.
Xavar gessin o yara,
Hasıl oldu diləklər.

---

[234] Şairin deyişmədə arkadaşını bağlaması üzərinə dışarıya çıxıb ayın doğduğunu, evə dönərək bir uşağın dünyaya gədiyini ifadə etməkdədir. Buradakı "Beşik"kəlməsi bir kəndin adıdır.

[235] Qapıda inək sağan qadın nəzərdə tutularsa, üç baş təşkil etməkdədir. Bunlardan: 1. Qadının başı, 2. Sağdığı inək, 3. İnəyin yavrusdur ki, bunların bağlamada işarət edilən kimi on ayaqları vardır

[236] işıq

[237] qohum

Kəhər atın kəkili,
Tel-tel olu tökülü.
Qurvan olum o qardaşa,
Bir böyük evin vəkili.

## NORUZ BAYRAMI TÜRKÜSÜ[238]

Bu gejə Noruz gejəsidi,
Döylətlilər bajasıdı.
Verənin oğlu olsun,
Vermiyənin qızı olsun,
Bir gözü də kor olsun,
Təndirə düşsün,
Qırmızı bişsin.

***Hənifə Özər***
***(Axalkələk, Sağamon kəndi)***

## DİL

1. Çarşıda dağ qar buram-buram,
Ürəyim bağlar dərd ilə vərəm.
Orada yoxmu bir qurğuşun qələm,
Yara göndərəm bir quru salam.

2. Qaşdarın qara, neynim,
Çəkilmiş dara, neynim.
Əlim yetməz, ünüm çatmaz,
Uzax düşmüş ara, neynim?

---

[238] Novruz gecəsi bir araya toplanan məhəllə uşaqları və dəliqanlılar damların üzərində gəzərək evlərin bacalarından torba, səbət sallamaq surətilə yumurta, corab, alma, üzüm və sair kimi müxtəlif əşya toplarlar və bu münasibətlə bu şərqini söylərlər.

3. Qaşdariyin qarasına,
Xal qoyum arasına.
Aç, bax ürəyimin yarasına.

4. Üstümnən al yorğannı,
Ətrəfi xal-xal yorğanı.
Əzrəil gəlmiş, can bazarıdı,
Üstümnən al yorğannı.

5. Bu dağda maral azdı,
Oyçu çox, maral azdı.
Ağlama, ahı gözlüm,
Ölmərəm, yaram azdı.

6. Bu nə xavardır,
Yaraların qavar-qavardır.
Köşmüş, getmiş bir yanın,
Bir yanın niyə beyxəvərdir?

7. Araza gəmi gəldi,
Gəmiynən hamı gəldi.
Ağla, gözdərim,
İndi ayrılıx dəmi gəldi.

8. Bu dağlar, ulu dağlar,
Çeşməli dağlar, sulu dağlar.
Məni bu gündə görən
Göy kişnər, bulud ağlar.

9. Elə sənə dağlar,
Göy geymiş sənə dağlar.
Tutaydım yar əlinnən,
Gələydim gənə sənə, dağlar.

10. Güləm barı,
Gül əkdim, güləm barı.
Qannı fələk nə qoyur ağlıyam,
Nə də qoyur güləm barı.

11. Maralım elə düşdü,
Tezdi[239] çöldən çölə düşdü.
Qoşuniydıx baskın tafdıx,
Səvdəlim ələ düşdü.

***Hidayət Özər***
***(Axalkələk, Sağamon kəndi)***

## ÇOVANNAN AĞASININ DEYİŞİ

**ÇOVAN:** Əylən[240], əylən, oğlan,
Çəkim zoğal dəyənəyin.
Atdan yerə salem, oğlan.

**AĞA:** Gəlirdim Misir elinnən,
Duman aldı yolum, çovan.
Sonalar sağı soldadı,
Tutulmaz qılış beldədi.

**ÇOVAN:** Çovan odu ala, qapa,
Qızıl qannan qəypə yapa,
Üş ay burda sürək[241] sapa,
Payız yola salem, oğlan.

---

[239] qaçdı
[240] dur
[241] mənzil

**AĞA:** Sonalar sağı soldadı,
Tutulmaz qılış beldədi,
Bavamın gözü yoldadı,
Üş ay burda nejə qalem, çovan?

**ÇOVAN:** Sel təki axaram,
Al yanağa qızılgül taxaram.
Üçünnən birini sənə pay çıxaram,
Qayıt burdan geri, oğlan.

**AĞA:** Çovan, odu sinə dağlıyam,
Dərdimi kimə ağlıyam?
Kərim paşanın oğluyam,
Diyarbəkirdi elim, çovan.

**ÇOVAN:** Çovan qurvandı dilinə.
Kəm baxmaz bülbül gülünə.
Canım fiyazdı[242] yoluna,
Etmə mənə zulum, ağa.

**ÇOVAN:** Mən oxuyurdum əzəlinnən,
Bağlar tökdü xəzəlinnən.
Misrin üç gözəlinnən,
Ağam Noyruz bəyim gəldi,
Paşam Noyruz bəyim gəldi.
Ossun, ossun, saralsın
Duşmannarın solsun,
Müjdələr Zeynef hanımın ossun.

***Hənifə Özər***
***(Axalkələk, Sağamon kəndi)***

---

[242] qurbandı

## MAHNI

Yayla, yayla, yaylaları gəzməli,
Qələm alıf qaş-gözünü yazmalı.
Topuğu xal-xal, burnu xızmalı[243],
Bir zaman da belə bekar[244] gəzməli,
Ağam, hardan aşar yolu yaylanın,
Xanım, burdan aşar yolu yaylanın.

***Mehmet Altunçabah***
***(Qars, Hınzırik)***

## DAŞDAMALAR

### 1

Ey yanşax, düşün sözünü, səni müşgül hal eylərəm,
Qurudu nıtqı nəfəsin, əlfazını lal eylərəm.
Min tümənnik fiətini[245]endiri bir pul eylərəm,
Ğəh[246] qurar, qurar, imtihan olu əzim qalmaqal eylərəm.
El içinnən itigin salı məsganını çöl eylərəm.
Kafdar küsdü, sinirrisən, qışdarıını[247] şil eylərəm.
Ormanda meşə samsarı[248] çınqılda çaqqal eylərəm.
Təra pələk yapılı qaban ağzı bağlı mal eylərəm.
Gəh atar sahrayı düzə, gəh naxırda kal[249] eylərəm.
Gəh diyər torvakeş dəvə, gəh qaltavan fil eylərəm.
Qatar heyvan zümrəsinə hər himarə döl eylərəm.
Cisminə vurar, palanı əndəmini çul eylərəm.

---

[243] burun üçün sırğa
[244] subay
[245] qiymətini
[246] cəhd
[247] qıçlarını
[248] meşə heyvanı
[249] erkək donuz

Bənd edər tablaxanıya yem suyunu bol eylərəm.
Boynuna taxar yurarı[250], çalbadara[251] qul eylərəm.
Əntər, meymun, şəbək[252], zozo[253]çarpananı[254]zil eylərəm.
Əri ölmüş arvat misəlli döydürərrəm dizdərinə,
Beykar qoca qarı kimi məhlil[255]qoyar, dul eylərəm.

**2**

Çünkün kü dilin balmış, nə üçün alıfsan sazı,
Dərununda dərc eyliyif tüşünüf desəydin sözü.
Gəndini[256] bilməz bədasıl cismimə salıfsan közü.
Ustasına təhnedənin ağıbat kor olur gözü.
Xam tay[257] kimi ciftə atıf, dumana qatərdin tozu.
Ala qarğa kor yapalax bərrana[258] keçəl kərkəzi.
Civillətin fitnəkardı, nəslin kalleş[259]gəndin cazı[260]
Meydanda zənnə[261]zanallar sən təki nanəcif qızı.
Asma hicap pərdəsini liğabatda şaxla üzü.
Olusan cilvəlü qadın başına dolasan bezi.
Summatın quzoy tülküsü, cəsarətin aran qazı.
Xozannarda siçan əsif tozaxda süreysən izi.
Nə çaposan[262], nə də zağar[263], nə qırıxsan[264], nə də tazı.

---

[250] yüyən
[251] çarvadar
[252] meymun cinsi
[253] meymun cinsi
[254] dəf teli
[255] məlul
[256] özünü
[257] dayça
[258] vəhşi
[259] fırıldaq
[260] küpəgirən
[261] zənən
[262] köpək cinsi
[263] köpək cinsi
[264] köpək cinsi

Baharda tüyün tökülü, onçün höşdamersən yazı.
Qəsəphanda çox olu kəlbi məlun salahana.
Səni qatar o tayfıy, nafağanı[265]yal eylərəm.

### 3

İdrəki kəm xəyal əlfazın yatməz imlaya,
Fani dünya əhd acınnan yoxsul xizmət edər baya.
Beş üz min ildiz cəm olsa beş endirər bir tək aya,
Mah ikən xəcələt çəkər şəmsidə görəndə ziya
Pərli peykam tərgi töhmət ox kimi enifdi yaya.
Toxunuf dəlsə cismini, əcəf halin varar nəyə.
Sana sükut durmax yarar zeyhatın varıfdı zaya.
Zifaf olmuş kedi[266] kimi çağırıf düşmə vay-vaya.
Beli qırıx şahmar kimi indi sallam xaki-paya.
Bir xoryat[267] qurbağa dənli səndə yoxdu abır-həya.
Ona gənətü deyəndə atıleyr düşür çaya,
Veranada nəpək bayğuş maqallaxda[268] yersiz qoya.
Uçursam on gün gedərsən çınqıllara dəyə-dəyə.
Baharda tüyün tökülür bənziyersən qırxıx taya[269].
Əxrəb ossan, əsmə oxur, döndərirəm tosbağaya,
Qul Şenniyin bu töhməti toxunsa, dağı əridi,
Arıx kəstənkələ kimi süksünü qıl eylərəm.

***Gülüsdan Çobannar***
***(Zarşat, Goş kəndindən)***

[265] təzminat
[266] pişik
[267] kobud
[268] mayallaq aşmaq
[269] daya (dayçaya)

## SAYAÇI TÜRKÜSÜNDƏN

Saya sayadan,
Damazlığı mayadan.

**İNƏK deyir:**

Mər-mər mələrəm,
Dağı-daşı dələrəm.
Ceyran-ceyran balalarım var mənim,
Sarı-sarı kərələrim var mənim.

**COMUŞ deyir:**

Mərəkləri doldorun,
Boyundruğumu yandırın.
Kotana getməsəm,
Vurun, məni öldürün.
Hündür-hündür tayalarım var mənim,
Qırmızı-qırmızı buğdalarım var mənim.

**EŞŞƏK deyir:**

Mən hamıdan fağıram,
Batdağa batanda dağ-daşdan ağıram.
Qurt-quş görəndə yiyəmi çağırram,
Zurnadan artıx səsim var mənim.

**ÖKÜZ deyir:**

Üç ay qış bekaram,
Üç ay iyəmə nökərəm.
Çayır-çimən mən sökərəm.
Hündür-hündür tayalarım var mənim,
Əşrəf-əşrəf buğdalarım var mənim.

--------------------------------

Canım, qəmər qoyun,
Balası əmər qoyun.
Yiyən sənin ujunnan,
Belnə bağlar kəmər qoyun.

Canım saçax qoyun,
Bərədən qaçax qoyun.
Sana göz yetirənin
Gözünə pıçax qoyun.

Canım, şişək qoyun,
Yunu bir döşək qoyun.
Bulamanı tez yetir,
Qırıldı uşax, qoyun.

Canım, boz-ala qoyun,
Yolda yozala qoyun.
Yiyən sənin ujunnan,
Bir alagöz qız ala, qoyun.

Canım ala təkə,
Başıma bala[270] təkə.
Gəzəyən arvatdarın ,
Surfasın yala, təkə.

Qoyunun yüzü gəldi,
Dolandı düzü, gəldi,
Çovanın qucağında
Bir gözəl quzu gəldi.

***Hənifə Özər***
***(Zarşat)***

## TÜRKÜLƏR

Getmə, getmə, dur, dağlar,
Sana yağsın nur, dağlar.
Köşdü ellər, yurd ağlar.

---

[270] bəla

Ulu dağlar, çeşməli dağlar,
Divinnən köşdü yaşılbaşdı sonalar,
Göy inlər, bulud ağlar.

**Hənifə Özər**
**(Zarşat)**

## ATA SÖZÜ

1. Eşşək anar[271] küllükdə,
Necə belə tünnükdə.

2. Əkəndə yox, piçəndə yox,
Yeməyə ortax osmannı.

3. Papax namus üçündü.

4. Ləçək namus üçündü.

5. Sayılı qoyunu qurt yiməz.

6. Üzün ağ olsun qalaycı panbığı kimi.

---

[271] ağnar

# III BÖLÜM

# DÜNBÜLLÜ-ÇARIXÇI URUĞU AĞIZI[272]

## DÜNBÜLLÜLƏRİN KÖTÜYÜ

Bizim kötük babalarımızın babası Əli Qızıllı Nağı bəy idi. O, Xoydan İydirə gəlip. Urus gələnnən sora biz ordan qaşmışıx, erməni gəlir bizim yerrərə dolmuş. Ermənidən geri ala bilməmişik. Gəlip Çarıxçıda yer tutmuşux. Biz bura gələndə İran İrəvanda idi.

## DASTAN

Marantsov[273] samavar, zərnişin çaynik,
İçim qız əlinnən, deyim bir də tök.
Qutavva döşəklər, yastıxları tük,
Sarılıb yatmağın bir ləzəti var.

Bir otax tiydirip iydə kolunnan,
Üstünə töytürüp durna telinnən.
Bir gözəl sevmişəm İydir elinnən,
Tək-tək öpüşmənin nə ləzəti var.

Dizadan[274] çıxanda Əlican[275] yolunda,
Bir qızın adına Leylan dedilər.
Dindirdim, oxuynan vurdu sinəmə,
Məməsin yarama dərman dedilər.

---

[272] Dünbüllü-çarıxçı uruğuna aid bütün material Qüdrətullah İydirlidən yazıya alınmışdır.
[273] samovarı düzəldən fabrik sahibinin adı
[274] İqdırda kənd
[275] kənd adı

Portağan[276] məməsi, mərmərdi döşü,
Etlazdı yanağı, incidi dişi.
Şirin olur ağ buxofun[277] öpüşü,
Telinnən öppəyin nə ləzəti var.

Bazarcan[278] dütünü, Ananof[279] kağız,
Paprozu bükeydi bir növrəstə qız.
Bir mən olum, bir qız, bir otax yalqız,
Sarılıp yatmağın nə ləzəti var.

## YAYCI GÖZƏLLƏMƏSİ

Yaycının üs yanı duman,
Qoynuma salıpsan güman.
Bəyaz toppux, çarxı tuman,
Mən Yaycıdan övlənəcəm.

Yaycının üs yanı bulax,
Su gəlir zolax-zolax.
Qızdar var ki, lala dodax,
Ana, vallah, mən Yaycıdan övlənəcəm.

Yaycının üs yanı arpa,
Mallar gəlir qırpa-qırpa.
Mənim yarım hamıdan xırda.
Mən Yaycıdan övlənəcəm.

Yaycının üs yanı taya,
Tayadan baxıllar aya.

---

[276] portağal
[277] buxaq
[278] tütün növü
[279] ad

Gəlinnər ağca maya,
Mən Yaycıdan övlənəcəm.

## KÜLLÜK[280] GÖZƏLLƏMƏSİ

Hayatda sağır camışı,
Eşiyə gəlir fışafışı,
Məhərləmin qırtlamışı[281],
Bizə bir daş tulazdadı,
Tutsaydı, öldürüdü,
Hələm yavaş tutazdadı.

Hayatda sağır qoyunu,
Bizə görsədir boynu.
Məhərləmin ax tornu[282]
Bizə bir daş tulazdadı,
Tutsaydı, öldürüdü,
Hələm yavaş tutazdadı.

Hayatda sağır inəyi,
Bizə görsədir biləyi.
Məhərləmin ağ minəyi,
Bizə bir daş tulazdadı,
Tutsaydı,öldürüdü,
Hələm yavaş tulazdadı.

Bu pay kimin payıdı,
Eşitsə, yoldan qayıdı.
Tumanı mərfəş tayıdı.
Bağı kəndirdən artıxdı.

---

[280] yer adı
[281] qartlaşmış
[282] nəvəsi

Dəyirmən üstü qorux,
Arvatdar yığır borux.
Arvat sözə baxmasa,
Ağzına bir yumrux.

## HACI İMRANIN DASTANI

Qılış diyər, mən qındayam,
Yar o can,
Kimsə bilməz nə dindəyəm,
Hacı İmranın belindəyəm.
Yar o can,
Əl dəsdəyə yetincədi.

Qəmə diyər, mən nökərəm,
Yar o can,
Dəmir qapılar sökərəm,
Yar o can,
Laxda-laxda qan tökərəm,
Yar o can,
Əl dəsdəyə yetincədi.

## EŞGİYA[283] DƏRVİŞ DASTANI

Şəkər diyər, Dərviş ağa,
Yenmə dağdan, girmə bağa.
Qazzaxlar[284] doldu otağa,
Öldürdülər Dərviş bəyi.

Şirəli[285] qoşar harabanı[286],

[283] qaçaq
[284] kazak
[285] Dərviş bəyin əmioğlusu
[286] araba

Sədat[287] bağlayar qaranı.
Gözün çıxsın Xeyrəbanı[288],
Ərə verdilər Lalanı[289].

Dərvişin anası paşa,
Atını bağladı daşa.
Aynalısı qoşa-qoşa,
Öldürdülər Dərviş bəyi.

Bazara gətdilər quzu,
Sinəmə qoydular közü.
Bu gələn Dərvişin qızı,
Öldürdülər Dərviş bəyi.

## TÜRKÜLƏR

Eləmi geşdi mənnən,
At oxun, geşdi mənnən.
Daryaya körpü oldum,
Gör nələr geşdi mənnən, ay alagöz.
Əzzim, sarı yardan,
Su gəlir sarı yardan.
Fələyin qaydasıdı,
Ayrır yarı yardan, ay alagöz.

Əzzim o da məni,
Al xəncəl, buda məni.
Zülfün əjdaha olmuş,
Qorxuram, uda məni, ay alagöz.

---

[287] Dərvişin anası
[288] Dərvişin bacısı
[289] Dərvişin arvadı

Qarabağda talan var,
Məni dərdə salan var.
Ağla, gözdərim, ağla,
Gözü yolda qalan var.

Bayazıda vardım, göründü dağlar,
İydirə varmadan açılmış bağlar.
Həmşirəm Sila da ah çəkər ağlar,
Yol ver, Arğı[290], mən də çekayim,
Məmləkət suyunnan mən də içayim.

Bayazıdın suyu durudur, axmaz,
Askərin yüzünə kimsələr baxmaz.
Postayı yolladım, məktubun çıxmaz,
Məktubum atılmır, posta neynasin.

Arğı dedikləri bir ulu dağdı,
Üstümüzə yağan yağmurnan qardı.
Annələr bilir ki, yavrular sağdı,
Nə yaman arayı uzatdın, fələk,
Pədərə yolları gözətdin, fələk.

Arğı cəphəsində atılan toplar,
Kəsildi kəllələr, gövdələr hoplar.
Firqə qomandanı firqayı toplar,
Nə yaman arayı uzatdın, fələk,
Yarıma yolların gözətdin, fələk.

Arğı cərhəsində oldum onbaşı,
Sol böyrümnən çıxdı süngünün başı.
Yanıma gəlmir toxdur[291] minbaşı,

[290] Ağrı
[291] doktor

Nə yaman arayı uzatdın, fələk,
Pedərə yolları gözətdin, fələk.

## DEYİŞMƏ
## (Pambıx nanayı)

**Aldı xanım:** Gedirdim yolca, yolca.
Yolun qırağı yonca.
İyid ölmüş, qan qusmuş,
Aldığın varmı məncə?

**Aldı kişi:** Gedirdim Orğuncuya[292],
Atım düşdü yoncuya.
Allah yazımı yazmış,
Bir nurani qocuya.

**Aldı xanım:** Gedələr gəlir cütdən,
Qızlar çıxır meçitdən.
Bir elə yar sevmişəm,
Köynəyi ağlı çitdən.

**Aldı kişi:** Əlində günüy[293] olaydım,
Cebində miniy[294] olaydım.
Bir gözəl önnüy olaydım,
Döşündə Leylan xanımın.

## İYDİR TÜRKÜSÜ
## (Ağlama)

Ağ alma allanıpdı,
Pıtağdan sallanıpdı.

---

[292] kənd adı
[293] çətir (günlük –günəşlik)
[294] minlik (pul vahidi)

On beş yaşında bir qız,
Kafdara allanıpdı.
Al, ver, sarı qız,
Baxçaların barı qız.
Qoyma məni yalğuz.

Al almanın dördünü,
Söv[295] gözəlin mərdini.
Sövürsən, gözəlin söv,
Çəkmə çirkin dərdini.
Al, ver sarı qız,
Baxçaların barı qız.
Qoyma məni yalğuz.

Gidərdim, dur diyən yox,
Kabab oldum, yiyən yox.
Ayrılıx çoynəyini[296],
Mənnən başqa giyən yox.
Al, ver sarı qız,
Baxçaların barı qız.
Qoyma məni yalğuz.

## DÜNBÜLLÜ TÜRKÜSÜ

Qədir allah, budu sənən diləyim,
Artığ ola namısımız, arımız.
Bir atadan atmış oğul törüyə,
Əl uzadax bir surfuya hamımız.

On beşimiz yaylarda yaylıyax,
On beşimiz əkin-tikin eyliyək.

[295] sev
[296] köynək

On beşimiz ağayana söyliyək,
Ortalıxda sultan olax birimiz.

Atmış toy eliyək atmış oğlana,
Atmış erkək pilav üstə buğlana.
Atmış kəhlən sər tövliyə bağlana,
Hay diyəndə düşmən üstə hamımız.

## ƏMRAH

Durnam, gedərsəm nəriyə[297],
Dönüp baxmazsan geriyə.
Sövdicəyim xan pəriyə.
Durnam, yara salam söylə.

Durna gəli düzüm-düzüm,
Boynu qanadınnan uzun.
Durna mənim iki gözüm,
Durnam, yara salam söylə.

Durnam, gedərsən Kəşana,
Quma döşənə-döşənə.
Sövdicəyim pər nişana,
Verdim bir nişana, gəldim.

Durnam, gedər olsan bizim ellərə,
Qatıx söylə, qaymax söylə, yağ söylə.
Ərzi-halım bəyan eylə anama,
Boynum armut sapı, canım şax söylə.

***Qüdrətullah İydirli***
***(İqdır, Yuxarı Çarıxçı kəndi)***

[297] haraya

# IV BÖLÜM

# QACAR URUĞU AĞIZI

## ƏHMƏT VƏZİR

Günnərin bir günündə bir dənə Əhmət vəzir vardı. Bu Əhmət vəzirnən bunnar iki qardaşıdı. Bunnarın hərəsinin bir qızı, bir oğlu vardı. Bir gün Əhmət vəzir qardaşına dedi ki:

– Qardaş, gəl, mən qızımı verim sənin oğluna.

Bunnar o zaman oldu ki, əhd etdilər bu qız da, bu oğlan da yekəldi. İkisi də yekəldilər, bunnar övlənməli vaxdında qıznan oğlan, hər iki bir-birnə aşşığ oldular.

Əhmət qızını qardaşının oğluna vermədi. Qardaşı o zaman oldu ku, buna elçi yolladı, bu dedi ki:

– Pəkey, gəlsin, qızımı verəyim.

Bu da axşamileyin elçilərini yığışdırdı, bunun otağına getdi. Demə, bu qıznı verməməy istiyir. Qapının dalına para gücünə bir dənə cəllət qoydu. Bunun qırx dənə adamlarını qardaşıyla həp barabar öldürdü.

Bu qardaşının oğlunun arxasıncax iki dənə atdı göndərdi.

– Hardadısa, onu tapın, gətirin. Onu da öldürəcəm.

Bu iki atdı getdilər, bu oğlanı gətirdilər. Yolun bir yerində atdının biri brinə dedi ki:

– Gəl, bunu öldürmüyək. Bunun köynəyni alax, bir dənə quş vurax, quşun qanıynan bunun köynəyni qana bulyax, aparax, deyək ki:

– Qannı köynəyni gətirdik.

Bu oğlanın qannı köynəyni götürdülər, ağalarına verdilər.

Oğlanı diri buraxdılar. Bu oğlan yolda gedərkən, buna yolda iki molla irast oldu. Bunu tanıdılar. Dedilər ki:

– Hara gedirsən?

Bu dedi ki:

– Əmicəm qəzzəbə gəlmiş, mənim qırx dənə babamnan[298] barabar ağayanımı öldürdü.

Bunnar bunnan sordu ki:

– Niyə öldürdü?

Bu da dedi ki:

– Babam getdi əmicəmin qızını mana ala. Onda qapının dalına cəllət qoydu, öldürdülər. İki dənə də atdı göndərdi məni öldürməyə. Mənim də qannı köynəymi aldılar, bir quş vurdular, quşun qanna buladılar, məni ötürdülər.

Bunnar munu götürdülər bunun əmisinin yanna. Əmsinə minnət elədilər, əmsi məni öldürməsin. Əmsi munnarın minnətini qəbul elədi, dedi ki:

– Mənim qızımı bir də dilinə almıyacax.

Buna bunnar söylədilər ki:

– Qızını dilinə alma.

Bu dedi ki:

–Pəki, mən munun qızını dilimə almıyacağam.

Əmsi dedi ki:

– Bir neçə dənə söz desin. Mənim qızımı dilinə almadı, munu öldürmiyəcəm.Yox, aldısa, öldürəcəm.

Bu sözü söylədi. Getdi, qızını da bağladı. Bu gedəni öldürməy istədi. Mollalar muna minnət elədilər, əlinnən aldılar. Dedilər ki:

– Munu sürgün elə, qoy gessin.

Bu sürgün elədi, getdi bu. Yolda bir tüccara rast oldu. Tüccar muna dedi ki:

– Oğlum, hara gedirsən?

Bu dedi ki:

– Əmim məni öldürürdü, mən əlinnən qaşdım.

---

[298] atamnan

Bu dedi ki:

– Gedək mənim yanıma, mən səni özmə oğul eliyim. Mənim bir qızım var, onu da sənə verim.

Zaman oldu ki, bu getdi tüccarrığa. Munu qırx dənə bağı vardı. Bu qzına dedi ki:

– Mən gəlincək, bir qırx gün səfərnə gedirəm. Gündə bir bağı buna gəzdirəsən. Qırx günə gedər də mən özümü yetirərəm, səni buna verib toy çaldıracam. Otuz dokquzunu verərsən, qırxını verməzsən.

Babası getdi tüccarrığa. Qız da bu oğlannan gündə bir bağ gəzirdilər. Qırx gün doldu. Babası gəlmədi. Bu qız qırxıncının açarnı istədi, qız vermədi. Oğlanın belində kəməndi vardı. Aşdı, atdı tufara. Tufardan geşdi, bağda gəzirdi, baxdı, gördü kü, bir dənə bilbil bir glün üstündə çak-çak eliyif gəzir. Bu bilbilin qanatı dəydi bu gülə, bu glün də yarpağı düşdü.

Bilbil özünü vurdu gülə ki, bu gülü götürsün. Ürəynnən çalısı batdı, kürəyinnən çıxdı. Bu beçara bilbil sürünə-sürünə başını qoydu bu gülün üstünə, canını tafşırdı. Oğlan dedi ki:

– Hay-hay, – dedi, – bir bilbil bir güldən ötərin özünü çalıya vuranda mən burada durmam.

Orada bir neçə söz dedi. Bilbili kəfin-dəfin elədi, qoydu haqqına. Çıxdı qıznan, halal-himbət elədi, dedi ki:

– Mən gedirəm.

Qız dedi ki:

– Yox, qoymam səni. Səni mana babam tafşırıfdı. Babam gəlsin də, get.

Oğlan dedi ki:

– Yox, mən gedəcəm.

Oğlan gedirdi, yolda babası gəldi. Oğlana dedi ki:

– Oğlum, hara gedirsən?

Dedi ki:

– Yox, əmi, mən gedəcəm.

Əmisi muna dedi ki:

- Oğul, sən getmə. Mən gedək babanan qızı alıf verəcəm.

Bunnarın ikisi də qayıtdılar, evə doğru getdilər, yemək yedilər. Üş gün orda durdular. Üş günnən sora, əmisiynən, getdilər bu oğlanın əmsinin yanına. Əmsinə minnət elədilər, qızı alıb verdilər oğlana.

Toy çaldırdılar, şirinniyi işdilər. "Nübarək olsun" dedilər. Halal-hümbət elədilər. Bu əmsi gəldi, oğlan qaldı öz yerində murazına çatdı.

***Hacı Söyün oğlu Aras***
***(İğdır, Qacar-Toxancalı kəndi)***

## SÖZ

Bu fələy sənin əlinnən,
Avad olan görmədim.
Ciynağna geçənnərdən
Geri dönən görmədim.

Çox süleymannar gördüm,
Hökm eylədi qafdan qafdan.
Öz yeridə qərəl tutuf,
Bina salan görmədim.

Bən ki Hələbə varanda
Əl atdın, tutdun məni.
Sən ki qiymətimi bilməzdin,
Nə ucuz satdın məni.

Coq havalanma, dəli gönül.
Gəl, danış bu gədaynan.
Bir gün olur, sindin[299] dönər,
Dövran var əldən gedər.

---

[299] vaxtın

Aşna yarın tərgin qılıf,
Yada bel bağlama.
Yad gəlib aşna oluncax,
Aşna, yar əldən gedər.

Dağılı fikir, xıyalım,
Urqaşır [300] naraynan.
Təbipsiz dərt çəkirəm,
Məhləmsiz yaraynan.

Dəli könül sızlıyar gedək vətənə,
Vətən bə vətənim.
Üç aylıx yoldur.
Tükənməz bir aynan.

Lətif şah da vətəninnən cidadı,
Üstümüzdə duran qədir xudadı.
Qəhpə fələk yeksanıynan budadı,
Vurdu, cida saldı, dağlara məni.

Dindirməynən, oğul, yanar, ağlaram.
Zalım fələk xətrimə dəyifdi.
Bir tərlanın qanatıynan uçurudum,
İtgin getmiş, məni məril qoyufdu

Görmədim heş dünyada,
Sənin kimi xoş qubarsızı.
Sən də gözdən saldın tutarsızı,
Belə iş də eldən ayıfdı.

***Hacı Söyün oğlu Aras***
***(İğdır, Qacar – Toxançalı kəndi)***

---

[300] sızıldayır

## QACAR HAYATI

Biz şərqi bilməzix. Bən irəncbərrik yapardım. Hər gün sabertə[301] ciftə gedirdim. Tərlada cift sürərdim. Tərlaya karım, çocuğum bahəm gedirik.Tərlada arabaynan tel daşıyırıx.

Öylə olursa, biz də yeməyə otururux, yeməkdə yoğurt, ərtmək, bozbaş, yumurta, pilav yiyərik. Bunun üstünnən su içərik.

Tərlada oturup çay qoyarıx, həpimiz birikdə çay içərik. Aramızda birisi şərqi söylər. Biz də bunu dinnərik.

Axşam da arabanı qoşarıx, koa[302] dönərik. Koy çocukları əlləriynən qova[303] su daşıyıllar. Koymuzun punqarı[304] yoxdur. Biz Aras suyu içərik.

Bizim koyun çox zəngini var. Koyun içərisində beş-on dənə odası olan da var, fuqaranın da bir odası var.

Odanın içərisində xəli-xəlçə, yəməni var. Bunnarı yerə sərərik.

Hər zənginin evində bir qonağ odası var. Qonax gəldiyi zaman onu o oduya alırıx. Axşam olarkən qonağa yemək gətirrik. Yeməklərimzin ən iyisi pilavdır.

Bən koydaydım. Bəkçi[305] gəldi, xəvər verdi yarın İydirə gedəcəksin. İydirdən şöybiyə əsgərriyə gedəcəksən. Mən arabiya mindim, İydirə getdim. Şöybiyə getdim, şöybə də bəni sahat beşdə makiniyə mindirdi. Qarsa yolçetdi. Yanımda başqa otuz beş kşi vardı. Öylə vaxdı gəldik, Qarsa çatdıx.

Burda bizi inzibat dairəsinə burdan da mevqiyə götürdülər. Sora ordan da Ərəp tabiyyə götürdülər. Şimdi hayvana baxıram.

Heş kimsəm yox. Annem, babam bəfat olmuş. Bən oşgi[306] işməm. Qurğuşumnan bəni vursan, bən işməm.

---

301 sabah ertə
302 köyə
303 vedrə
304 bulağı
305 gözətçi
306 içki

On dağar yerim var. Pambıx əkərəm. Tərlanı cifnən sürərəm, pambıx əkərəm, sora altı-yedi dəfa suvarram.

***Mehmet Aras***
***(İğdır, Qacar–Toxançalı kəndindən)***

## TÜRKÜ

Zilfim buyu qaldı səndə nişana,
Ayrılığ ataşı kar eylər cəne[307].
Layıq deyil, yaxçı gedə yamana,
Yaxçısan, yaxçı söv yamana.

❖

Günortaynan ilkintinin arası,
Qadir mevlam, nədir bunun çarası?
Xançəl deyil, qəmə deyil yarası.
Bir köz yaraliyip, yaram var bənim.

***Qurban Akyol***
***(İğdır, Qacar – Toxançalı kəndi)***

## ARAZ TÜRKÜSÜ

Arazın qıraxları
Dolu gəlir arxları.
Şeh düşmüş gülə bənzər,
O kızın yanaxları.

Araz üstə buz üstə,
Kəbap bişər köz üstə.
Qoy məni öldürsünnər,
Bir alagöz kız üstə.

---

[307] cana

Ağ gülü atdım çaya,
Camalin bənzər aya.
Cavan ömrüm çürüdü,
Günnəri saya-saya.

***Həmzə Hakverdigil Dönməz***
***(İğdır, Qacar-Toxançalı kəndi)***

**TÜRKÜ**

Aman, lələ, şikayətə gəlmişəm,
Bu gün əvhalımın yaman günüdür.
Fələgin təybiri təqayıl olsun,
Əl əldən üzüldü, aman günüdü.

Çıqdım havuz başına,
Bir kız çıqdı karşıma.
Sevda nədir, bilməzdim,
O da gəldi başıma.

Ciqaram yana-yana,
Od düşdü şirin cana.
Necəsin, qoyam, gidem,
Kalasın yana-yana.

***Ahmət Aslan***
***(İğdır, Qacar-Toxançalı kəndindən)***

# V BÖLÜM

# TÜRKMƏN URUĞU AĞIZI

## SƏRƏNCƏ

Zamanın birində bir dəyirmançı vardı. Onun da bir tənə oğlu vardı. Dedi ki:

– Oğlum, sən meşiyə oduna get, bir qaç[308] dənə odun gətir, – dedi.

Bu oğlanı meşiyə yolladı, oğlan getdi meşiyə arxadaşlariynən barabar. Oğlan bir çamın dibində yatdı.Yatarkən bir düş[309] gördü.

– Bən, – dedi, bu ağaçları kəssəm, bir qan etmiş olurum, – dedi.

Arxadaşları gəldilər yanına. Oğlan boş dəyirmana getdi. Babası önünə çıxdı. Baxdı ki, hər keş odun gətirmiş, oğlan boş gəlmiş. Dedi ki:

– Oğlum, niyə boş gəldin? – dedi.

Dedi:

– Baba, bən bir düş gördüm, – dedi.

Söyləmədən oğlanın qafasına vurdu, dedi:

– Bən düşümü gedər, anama söylərim, - dedi.

Anası, getdi ki, əkmək bişiriyordu.

– Ana, bən bir düş gördüm, – dedi.

O da oğlanın qafasına vurdu.

Oğlan dedi ki:

– Bunnar, – dedi, – axlını şaşırmış[310], – dedi, – yəni dəli olmuş, – dedi. Bən başımım alayım da, diyar-diyar gedəyim.

[308] neçə
[309] yuxu
[310] ağlını itirmiş

Oğlan yola rəvan oldu, epeycə[311] bir yol getdi. Uyxusu gəldi. Oğlan daşın üzərində uyudu. Hind padşahının oğlu avda, quşdaydı. Gördü ki, bir qızartı var.

Oğlannardan birinə dedi ki:

– Get, bax gör nə var?

Gəldilər, baxdılar ki, bir baba yit.

Axşam oldu, oğlanı aldı. Getdilər, gidər-getməz zindana atdılar. Yəmən padşahı dedi ki, hind padşahına ki:

– Bənim səndə yeddi sənənin xaracım vardır, bənə versin. Bənim səndə üş tənə qavlüm[312] vardır.

Dedi: – Qavilün nədir?

Şimdi bu burda dursun, oğlannan xabər verək.

Onun bir tənə qızı vardı. Qırx tənə də ceyrası[313] vardı. Bir gün səyahata çıxdılar, geri gəlirkən babasının zindanından geçərkən oğlanı gördü. Qızın göynü düşdü.

Ceyrasının birinə dedi ki:

– Get, bənə üş tənə lağımçı gətir.

Lağımçıları gətirdi, padşahın qızı dedi ki:

– Nə verəlim, bənim saçaxlığımın altında babamın zindanına ayax üstü gedəm, gələm, – dedi.

Farazın dedi ki, nə qatan altın istiyor, – dedi

Dedi ki:

– On tənə altın ver, – dedi

Yirmi tənə altın verdi:

– Səkiz günün içərsində ayağüstü gedəm, gələm, – dedi.

Səkiz günün içərisində tamam etdi.

Bir gün ğız sini donaltdı[314], oğlanın yanına gəldi. Dedi ki:

– Bəni almazmasın?

---

[311] xeyli
[312] sualım
[313] cariyə
[314] bəzədi

O da dedi ki:

– Sən bir padşah ğızısan, bən dəyirmançının oğluyum, bən səni nasıl alayım, – dedi.

Ğız dedi ki:

– Dəyirmançı orda dursun. Padşah da orda dursun, sən bəni al, – dedi.

Bunnar bir-birinə qavil-qərar qurdular. Ğız oğlanın yanına hər sabahları gəlir gedərdi. Bir gün ğızın çehrəsi eşgi[315] gəldi. Dedi:

– Canım saa qurban olsun, niyə çehrən tökükdü, – dedi.

Dedi:

– Bən tökdürmüyüm də kim tökdürsün? Babamın yeddi sənənin xəracı gediyor.

Dedi ki:

– Nədir ki, bir söyləsənə.

– Üş tənə Arabistan atı yollamış. Anası hangisi, ortancıl tayı hangisi?

Dedi ki:

– Sən şimdi onnarı üş gün və arpa və yonca və suya qoyurmazsınız. Onnardan ən iləri anaları gedər. Onun peşinə böyük ortancı tayı gidər. Şimdi onnar kolə gidər bir cüt cuvap söyləsin. Babası diyər ki:

– Söylə, qızım.

Onnarı da suya qoyar. Ən ilərən anaları gidərmiş, aynı rəsmincən yaza yollıyasasın. Onu yolladılar. Sonra dedi ki:

– İki tənə daha qavlim qaldı. Qavlin nəymiş? Qırx hayatılıx[316] boncux[317]. İpən[318] teli boncuğa taxa da yollıyasuz.

Oğlan qızın yanına gəldi.

---

[315] fikirli (turşumuş)

[316] ipək sap

[317] muncuq

[318] ipək

– Çehrən niyə tökük? – dedi.

Dedi:

– Bən tökmüyüm kim töksün? Atlarda nə varmış ki, – dedi, – qırx arşınnıx boncuğa ipən teli taxa da, yollıyasız.

Dedi:

– Canım saa qurban olsun, Güləmdən. Bir qarıncanın bacağına ipən teli bağlayın, ö bür başına da yağ vurun, – dedi, – O onun qoxusuna çəkər, – dedi, gidər baş yuxarı. Ayni taxar, yollarsın, – dedi.

Onu da elə yapdılar, göndərdilər. Dedi ki:

– Qavlimizin ikisi yerini aldı, brisi qaldı.

Dedi ki:

– Qavlin biri nəymiş, – dedi.

Dedi ki:

– Polat qalxannan polat çıbığı geçəcək.

Təllallar çağırdı ki, polat qalxanna polat çıbığı geçəcək. Oğlan hər birisi gəldi, heç birisi yapamadı.

Qız oğlanın yanına dərhal da gəldi, dedi ki:

– Atdan nə olurmuş gi, boncux nə olurmuş gi, polat çıbığı polat qalxanna geçəcək.

Dedi ki:

– Canım saa qurban olsun, Güləmdən, baba de ki, heşmi zindanında heşmi kisməlsri[319] yoxdur. Onnar da heşmi birisi yoxmudur? Əvəl allah, bən gəlsəm, o qavli yerinə aldırrım.

Babası dərhal zindana adam göndərdi. Oğlanı gəndi qonağına götürdü:

– Oğlan, sən bu polat qalxannı polat çıbığna geçirə bilirmisin?

– Əvəl allah, sora sizin rusğatınıznan geçirrim, – dedi.

[319] kimsələri

Oğlan dərhal ayağa qalxdı. Polat qalxannı dərhal əlinə aldı, oradakı olan məxluqat dedi ki, nə gürbüz baba yit. Dərhal oğlan geçirdi, onu da göndərdi. Qavillərim yerini aldı.

Hink padşahı dedi ki:

– Oğlum, saa əsgər, ləşgər barabar göndərəyim.

Oğlan dedi ki:

– Bən əsgər, ləşgər istəməm, bənim, – dedi, – bir tənə deynəgim var. Deynəgimi alır, yola rəvan olurum. Göndərirsən belə, yox göndərəməzsən, gidəməm.

– Haydi, oğlum, allah salamatlıx versin, git.

– Allaha ısmarladıx. Burdak qalannar doadan unutmayın bizi. Sağ qalırsax, gənə görrük bir-birimizi, – dedi, yola rəvan oldu oğlan.

Epeycə yol getdi. Getdi bir çobana ras gəldi. Bir bayas[320] sürü, bir də qara sürü. Bir yolun altında otluyur. Bir də yolun üstündə otluyur. Çoban ıslığı vurdu[321]. Bayas sürü yolun üstünə çıxdı, biri yolun altına endi. Dedi:

– Bu hərəkət nə ki, – dedi, – bayas sürüyü yoldan yuxarı, qara süryü yoldan endirən?

Dedi:

– Bən bu hekmətə hekmət deməm. Felan yerdə bir Mehmet varmış, – dedi, – O Mehmet, – dedi, – bənim.

– Nerə gidərsin? – dedi.

Dedi:

– Bən yeddi sənənin xəracına gidiyorum. Bən də saa arxadaşım,– dedi, – çoban. Bu davarın bir tarafa gidər?

Dedi:

– Gitməz, – dedi.

Bunnar yola ravan oldu.

---

[320] ağ

[321] fit çaldı

Getdilər, bir yerə baxdılar ki, bir dəyirman var. Yeddi tənə daş dolanyor. Baxdılar ki, içində bir adam var. Yeddi tənə daşın ununu da, yeddi dəfə:

– Öf, acımdan öldüm, – dedi.

Bu dedi ki:

– Nə hekmətdir?

– Bu hekmətə hekmət deməm, – dedi. Felan yerdı bir Məmmət varmış. Polat qalxanna polat çıbığını geçirmiş, – dedi, – O Məmmət bənim, – dedi.

Dedi:

– Nerə gidərsin?

– Yeddi sənənin xəracına gidərim, –dedi.

– Bən saa arxadaşım, – dedi

Bunnar yola rəvan oldular. Bir yerə gitdilər ki, bir tənəsi də bir daşı qaldırmış da diği dinniyor[322]. Dedi:

– Bən nənniyim, mağrıptan maşrıfa döğşüyorlar, bən onnarı dinniyorum, – dedi, – Bu nə hekmət ki? Felan yerdə bir Məmmət varmış da, o polat çıbığnı polat qalxanna geçirmiş, ona hekmət derim, – dedi.

– Bən də saa arxadaşım – dedi.

Onnar yola rəvan oldular. Bir yerə genə getdilər də bir tənə adam gördülər, ağzıından, burnundan buz töküliyor.

– Bu nə hekmət, – dedi

– Felan yerdə bir Məmmət varmış da, o polat çıbığnı polat qalxanna geçirmiş, ona hekmət derim, – dedi.

Bunnar padşaha xabər göndərdilər ki, yeddi sənənin xaracına gəliyollar. Padşah dedi ki:

– Bən bu xaracı versəm, xəznəm həp boşalır. Yeddi tənə camış yollarım, – dedi, – Əyər ki yersələr, bən onnara yeddi sənənin xaracını verəcəm. Diğidinnəyən dedi ki:

---

[322] qulağı darı dəlir (çox yaxşı eşidir)

– Padşah nə söylədi?

Dedilər ki:

– Nə söylədi. Yeddi tənə camış göndəriyollar da, biz onnarın ətini yemək şərtilə.

O dəyirmanın unnu yeyən dedi ki:

– Siz heş ğayıt çəkməyin[323], bən yalnız yerim, – dedi.

Yeddi tənə camışı gətirdilər, kəsdilər və o bir tənəsi yalnız yedi. Padışaha xabər saldılar ki:

– Bir tənəsini yedi. Gəlsin, xaracını verəlim, – dedi.

Bunnarı qonağna gətirdi:

– Bunnara zəhirli yemək verəlim, – dedi.

O diğdinniyə dedi ki:

– Arxadaşlar, padışah bizi zəhirləyəcək.

O çoban dedi ki:

–Bizim zəhirli yeməyimiz onnarın öyünə gidər, onnarın zəhirsiz yeməkləri bizim öyümüzə gəlir. Düdüyü vurmazsam, əlinizi uzatmayın.

Bunnar zəhiri tökülər, yeməyi aldı, gəldilər. Laləsi, vəziri bir tarafta otudular. Onnar da həp bir araya oturdular. Çoban düdüyü çıxartdı, düdüyü vurdu. Onnar yeməyə başladılar. Padışahın bir tənə adamı beyfat etdi.

–Bunnarı, – dedi, – yaxalım.

O buz tökülən dedi ki:

– Bən burnumdan üfürrəm, sönər. Felan yerdə bir Məmmət varmış da, o polat çıbığnı polat qalxanna geçirmiş, ona hekmət derim, – dedi.

Əlhasılım ki, bunnarın xaracını verdilər. Qırx dəvə yükü lira[324] dutdu. Bunnar yola rəvan oldular. Onnarın arxadaşları Əzrail, Mikail, Cəbrail, İsafil idi. Gəldi, padışaha xabər göndərdi, onun yanına gəldi:

---

[323] qayğı çəkməyin (fikrə qalmayın)

[324] pul vahidinin adı

– Müjdələr ossun. Mehmet xaracı gətiriyir.

Padışah da qarşı gəldi oğlana. Dedi ki:

– Oğlum, gözdəriyi ver, öpüyim.

Dərhal oğlanı içəri götürdülər:

– Arxadaşların kimdir?

Dedi ki:

– Bən, Əzrail, Mikail, Cəbrail, İsrafil.

Bu sırada dedi ki:

– Bən bir düş gördüm.

Dedi:

– Heyr ossun.

– Annımdan, – dedi, – bir ay doğdu. Omuzumdan da bir zöhrə yıldızı doğdu.

– Gəl, oğlum, qızımı sənə verəlim, – dedi, –gəl, – dedi, – al.

Qırx gün, qırx gecə toy-düyün etdi. Bir gün, əziz cuma axşamı əl-ələ verdi də, onnar yedi, işdi, muradına nail oldu. Biz də yanniya gəldik.

***Mahmut Kütügər***
***(Pashof: Söyütvərən kəndindən)***

## KƏRƏMDƏN

Müxənnədin sözü yigidə oxdur,
Sağ gözün sol gözə faydası yoxdur.
Qardaşı qardaşa möhtac eyləmə.

Əgər qardaşı qardaşa möhtac eylərsən,
Qara torpağlara qarğ eylə bəni.
Bu dünyada üş nəsnədən qorxaram,
Bir ayrılıx, bir yoxsullux, bir ölüm.

Neçə süleymannar taxtan endirir.
Neçəsinin gülbənzini soldurur.

Neçəsini gəlməz yola göndərir,
Bir ayrılıx, bir yoxsullux, bir ölüm.

Dərtli Kərəm diyər, qondux köçülməz,
Acıdır, şərbətini əcəl içilməz.
Üş dərdim var, bir-birindən seçilməz,
Bir ayrılıx, bir yoxsullux, bir ölüm.

Yarın əfkarından[325], yarın qamindən,
Bənə bögün bir əcayip hal oldu.
Bənim dərdimi binə yetirdi,
Yandı ciyərciğim, kül oldu bögün.

Durnamın qanadı bir qarış teldən
Çəkərəm ayrılıx, nə gəlir əldən.
Qarip bülbül kibi ayrıldım güldən,
Bilbilin gülünə duruldu bögün.

Axdı çeşmin yaşı, oldu bir irmax,
Bənə haram olsun bir yerdə durmax.
Nə müşgülümüş yardan ayrılmax.
Gecəmnən gündüzüm bir oldu bögün.

Dərtli Kərəm diyər, ya bən nedəyim,
Eşimə, dostuma xabər edəyim.
Başım alim da, diyar-diyar gidəyim,
Bilmədiyim dağlar yol aldi bögün.

***Mahmut Kütügər***
***(Pashof: Söyütvərən kəndindən)***

[325] fikir

## TÜRKMƏN TÜRKÜSÜ

Su gəlir daşa dəyər,
Kirpiklər qaşa dəyər.
Etmə, könül, kötülük,
Bir gün baş başa dəyər.

Məndilimdə ğara var,
Yürəgimdə yara var.
Nə sən öldün, ğurtuldun,
Nə dərdimə çarə var.

Ğarşıda ğoyun-ğuzu,
Ğırılmışdır buynuzu.
Bənim bir sevdüyüm var,
İstanbulun yıldızı.

Məndilim bənək-bənək[326],
Ortası çərxi-fələk.
Yazı bərabər yazladıx.
Güzün[327] ayırdı fələk.

***Halil Ərdoğan***
***(Ardahan: Saakara kəndindən)***

## ÜŞ ĞIZ TÜRKÜSÜ

Havada ğar səsi var,
Başında mor fəsi var.
Yıxaram, yayla, səni,
İçində yar səsi var.

---
[326] xallı-xallı
[327] payız

Üş ğız, bir ana,
Dolmuş bir dama,
Ağlıyır yana-yana.

Getmə, gedənim, əylən,
Boyu fidanım, əylən.
Ellərim beş-on tənə,
Bənim bir tənəm, əylən.
Üş ğız, bir ana,
Dolmuş bir dama,
Ağlıyır yana-yana.`

***Halil Ərdoğan***
***(Ardahan: Saakara kəndindən)***

## KARACAOĞLANDAN

Səfil bayquş, nə gəzərsin bu yerdə,
Yoxmudur vətanın, ellərin hanı?
Küsmüşmüsün, səlamım almadın?
Şiyda bülbül, şirin dillərin hanı?

Qara yerdə mor mənəfşə[328] bitərmi?
Baxçada alışan çöldə yatarmı?
Azat eyləsələr, uçamazmısın?
Qırıxmı qandın, şalların hanı?

Əmim qızı, aş qapıyı, gələyim,
Xəstəmisin, hal-xətirin sorayım.
Susuz degilmüsün, bir su verəyim,
Çaylarda çalxanan sellərin hanı?

[328] bənövşə

Xəstə başın daş yastığa qoyarmı?
Ərgən qıza bəyaz bezlər uyarmı?
Hər gəlip geştikçə səlam verəyim,
Məzərin daşına yüzüm sürəyim.

Göydə nə gəzərsin, aynan yıldız,
Endim, seyr elədim ovayı dümdüz.
Nə gecəm gecədi, nə günüm gündüz,
Həp səni cəbrindən çəkərəm, gönül.

Qara bulut kibi dağa çökərsin,
Sulu yağmur kibi bağa tökərsin.
Nərdə gözəl görsən, boynun bükərsin,
Sanarsın yetimdir divanə gönül.

Qaracaoğlan deyər, öyüt kar etməs,
Güzəllər etdigin kafirlər etməs.
Firəngi bağlasan, zəncir zabt etməs,
Dəmir qasəfləri[329] dələrsin, gönül.

***Mahmut Kütügər***
***(Poshof: Söyütvərən kəndindən)***

## TÜRKÜ

Ana, bən bir gözəl gördüm,
Baxar cənnət sarayından.
Qamaşdı gözümün nuru,
Onun hüsnü-camalından.

Baxçanın qapısın aşdım.
Sanarsın cənnətə düşdüm.

[329] qəfəs

Həm öpdüm, həm hallaşdım.
Ləbi-şəkərdən ayrıldım.

Sallandı, girdi baxçıya,
Mor mənəfşə boynun burdu.
Ağışlar[330] salama durdu,
Gül utandı hecabından.

Baxçanın qapısı güldür,
İçində ötən bülbüldür.
Səfil Əmrah sənə quldur,
Yaş yerinə qannar tökər.

Gəl, gönül, getmə qürbətə,
Ya gəlinir, ya gəlinməz.
Hər gözələ meyil vermə,
Ya sevülür, ya sevülməz.

Gönül, sən yücə bir dagsın,
Qoy gözəllər başa çıxsın.
Gözəllikdə bir sən ossan,
Anda turab olacaxsın.

Söylərim, sözümə gəlməz.
Yuxular gözümə gəlməz.
Şam məmən yüzümə dəyməz,
Bir o yandan, bir bu yandan.

Pəncərədən məlül məsül baxan yar,
Cigərimi eşq ataşına yaxan yar.
Bəni qoymuş yad ellərə baxan yar,
Qaxıc edəm gülmüyəsən, sevdgüm.

---

[330] ağıçılar

**Tafşırması:**

Çıxaydım Arlı dağına,
Seyr edəydim cənnət bağına.
İmam Rizanın torpağına,
Düşə də elə öləydim.

***Mahmut Kütügər***
***(Poshof: Söyütvərən kəndindən)***

## HAYATIM

Bən evümdən qardəşlərimdən suyum sarmadı. Babama da "ədə" derim. Sora arada cahallıx vardı. Bunu annam ədəmə duyuruyur. Əkmək yediyimiz yerdə ədəm dedi:

– Oğlum, İmam, uşaxların içində minnətli əkmək yemə. Sənin adda oğlum yox, – dedi.

Bən də düşündüm, tabi ədəm bu məsələyi söylədikdən bu ev baa haram oldu. Bən də üç ay söyləmədim. Tabi evdə bulunan yeməglərdən, allahın verdiyindən, bənə də bıraxıllardı. Bən də yeməzdim. Babam dazəmin[331] oğluna söylüyor ki:

– Bən oğlum İmamı darıtdım. Bu məsələləri də söylədim. Söylədim zamannan bəri qızlarımıza, aylamıza, gəlinnərimizə, qardaşlarına da söyləmiyor.

Altı sənə qürbət gəzdim, altı sənədən sora evə gəldim. Və iraçbərlik kotan zamanında gəldim, kotan dutdum.

Kotandakı bənim işim majqalıdır. Kotanı açdıqdan çayır, tarla, tırpannan biçdik. Şimdi də əsgərim.

***İmam Kıt***
***(Poshof: Sora kəndindən)***

[331] xalamın

## DƏSDƏNƏ

Bən də bu düynə[332] gəldim gələli,
Fələg bizi daşdan daşa çalıyor.
Verdi əcəl köynanı[333] taxdım animə[334].
Atıyor yüzümüzə guliyor şu ğaypə fələk.

Zəngin diyərkən maldan edəllər,
Yit[335] yit diyərkən candan edəllər.
Irızğın çox diyi güyənmə malua,
Ömür tələf edip odlara yanarsın.

Sən də bu düynədə qalırım zanma,
Yit ölüyor, gəlin yarda qalıyor.
Düynə səkiz gundur, doğuz gicədir.
Fələyin malı çox diy, ağır xocadır,
Eşinə gələn həmən alıyor.

***İmam Kıt***
***(Poshof: Sora kəndindən)***

## XACI BƏY DƏSDANI

Xacı bəyin yazıları,
Davuşan qoyman tazıları,
Öldürdülər Xacı bəyi,
Yetim qaldı qzuları.

Yan veriyor, yan veriyor,
Əntarisi mor veriyor.

---

332 dünyaya
333 köynəyimi
334 əynimə
335 igit

Öldürdülər Xacı bəyi,
Xayvalıxda can veriyor.

Xayvalıxda qalxdım yayan[336],
Dayan, o dizlərim, dayan.
İstanbuldan toxdor gəlmiş,
Uyan, Xacı bəyim, uyan.

Atım oynar at içində.
Gümüş köstək var qıçında.
Ellər dügündə, bayramda,
Xaçı bəy yox içində.

Hazernə, hazernə,
Quşlar qonmuş məzarnə.
Xacı bəyin qır atnı,
Çəkin sultan bazarna.

Az gedərim, çox gedərim,
Dərə, təpə düz gedərim.
Uyan Xacı bəyim, uyan,
Gəlin gəldim, qız gedərim.

***İmam Kıt***
***(Poshof: Sora kəndindən)***

## TÜRKÜ

Göy bulut damar-damar,
Yamur yoxdur, nərdən damlar?
Gidərim, yönüm dağdır,
Bu nə meyvalı bağdır?
Necə ki canım sağdır,
Bən qazanayim, yar yesin.

---

[336] piyada

Yemənim turannıdır,
Sevdiyim buralıdır.
Məndilimin cicigi[337]
Ədirəhün[338]boncü[339].

Ay bəndi, bəndi guzəl,
Yıkma bu gəndi[340], guzəl.
Bir öpdüm, beş dişlədim,
Yardan aldım acığı.

İləngərin paxırı,
Budur bunun axırı.

***İmam Kıt***
***(Poshof: Sora kəndindən)***

**TÜRKÜ**
**(Bar tutularak oynandığı zaman söylənilir)**

Çıxdım anbar yoluna,
Baxdım yarın yoluna.
Bir incəcik qar yağmış,
Yarın tozlu yoluna.

Çıxdım aya baxmağa,
Cif[341]zırzalar[342] taxmağa.
Nə paxıl şenniyi var,
Qoymaz yara baxmağa.

---

[337] naxışı
[338] ətrafı
[339] muncuq
[340] kəndi
[341] cüt
[342] bəzək, süs

Çıbıx kəsdim meşədən.
Dibi mor mənəfşədən.
Çox da güzəl degilsün,
Gendiyi[343] dolandırma.

Yücə dağ başında mazıya mazı,
Ayaxlar turabı yolların tozu.
İnanma, sevdügüm, yad elin sözü,
Yara dəyən sözü bən deməmişəm.

Yücə dağ başında fənərmi yanar?
Hər yigit başına döylətmi qonar?
Yeşiliyi[344] dürüyüm[345], aş, qoynuna girəyim,
Yara dəyən sözü mən deməmişəm.

Yücə dağ başında qar qətər-qətər,
Arının verdiyi bal bənə yetər.
Arının verdiyi balı neynərəm,
Yarnan yatdığım kar[346]bənə yetər.

Bülbül, nə yatarsan dalın[347]başında,
Qələm oynar kirpiyində, qaşında.
Silada[348] sevdügüm on beş yaşında,
Ötmə, qarip bülbül, gönüm[349] şən dəgül.

***Mahmut Kütügər***
***(Pashof: Söyütvərən kəndindən)***

[343] özünü
[344] yaşıl rəng paltar
[345] toplayım
[346] xeyir
[347] budaq
[348] vətən
[349] könlüm

## GƏLİN TÜRKÜSÜ

Narmandan gəlirkən Gorucux yolunda,
Tərləmiş məmələr, orax əlində.
Xatə[350] yoxdur bu gəlinin dilində,
Yolçuyu yolundan eylər bu gəlin.

Qurban oliyim başındakı valiyə[351],
Nası[352]qıymış, yollamışlar tarliyə.
Yolçuyu yolundan eylər bu gəlin.

Qaşlar boyundurux, məmələr qan-tər,
Hirslənsə bu gəlin, Narmanı satar,
Bütün Erzürünü[353] dəgər bu gəlin.

Gəlinin geydiyi allı qalata[354],
Gəlin də gəlir, bax saltanata.
Ax buvax[355] altına xallar tökülür,
İğralanma[356], gəlin, belim qırarsan.

***Mahmut Kütügər***
***(Pashof: Söyütvərən kəndindən)***

## TÜRKÜLƏR

### 1

Bən böyön pirimə vardım.
Pir divanı güldür, gül.
Oturmuş masa başına
Taxtı-ravan güldür, gül.

---

[350] xəta
[351] örtük
[352] necə
[353] Ərzuruma
[354] geyim növü
[355] buxaq
[356] yırğalanma

Ale gül, yeşili gül,
Xas baxçanın kənarında.
Sevlü[357] ağacı güldür, gül.

Gülü gülünən üyüdürlər,
Güldən dəyirman yeridillər.
Axar xarğı[358], dönər çarxı,
Bəndi puvar[359] güldür, gül.

Ah, nəsimi, can nəsimi,
Aşığın nəfəsi gül.
Oturan mehman qardaşımın
Dəmi mehman güldür, gül.

**2**

Ey həbibim, sən varkən,
Ya bən kimə yavralayım?[360]
Sən bir qəni sətdərikən
Ya bən kimə yavralayım?

Orocum, mehracım, hacım,
Sənin başındakı tacım.
Mahbaramdan[361] qax deyəndə,
Al, dəfdərə bax, deyəndə,
Ya bən kimə yavralayım?

Arşda yalın oynuyanda,
Başda beyin qaynıyanda,
Ehsan səndə olmuyanda,
Ya bən kimə yavralayım?

---

[357] sərv
[358] çay
[359] bulaq
[360] yalvarım
[361] Mahparəmdən

Nəsimim, sultanım, xanım,
Comartsın, bənim əfəndim,
Ya bən kimə yavralayım?

Aşığ ol, sadığ ol, hey adam oğlu,
Gəndiyin[362] hər yerə atmalı deyil.
Güfereyin[363] qədrini bilirsən,
Hər yerə satmalı deyil.

Şahlar şahında da tutdum dəmanı,
Behuda dolanma dağı, ormanı.
Hər boyraza sovurmazıx xarmanı,
Haq əlindən əsən yel gözlərik.

Şükür sıdğı seyr eylərik cahanı,
Yusuf Misrə gəldi, Yusufu sanı.

Bilməm, xayal yoxsa, xəlfətə daldım,
Yol bilməz, iz bilməz, sərganda qaldım,
Qavundan[364], qardaşdan, yarımdan oldum,
Yadıma düşüptür ellərim bənim.

Bən İbraham, mat olmuşam özümə,
Ateşimdən uyxu girməz gözümə.
Vurulmuşdum o aslanın kızına,
O da güllərimi soldurdu bənim.

Əzəli bahar, yaz ayları gələndə.
Qaldır o lələnin yanağından öp.
Bir yar sənnən canhacan olsa,
Çənəsini qaldır, bufağından[365] öp.

---

[362] özünü
[363] gövhər, pul
[364] qohumdan
[365] buxağından

Quranda oxunan surrə yaxşıdır,
Nəmərdin gərdəni sına yaxşıdır.
Öpmiyə, qujmiyə sina yaxşıdır,
Gönül yavralır ki, yanağından öp.

Dosdun baxçasında üç gül açılmış,
Göz gəzdirdim, gülün bri düzgündür.
Çoxdan bərli bən o yarı görmədim,
Saatım gün geçər, günüm yüz gündür.

Bu dünya doludur, xubları çoxdur,
Bənim sevdügümün mənəndi yoxdur.
Yaxşiyi yamanı yərdən[366] haxdır,
Zilifi seşgin[367], boy ənbərə düzgündür.

Çıxdım, seyr eylədim dumannı dağlar,
Duman bu dağlara nə gözəl uymuş.
Haqqın birliginə şükür eylədim,
İman mömünlərə nə gözəl uymuş.

Düyündə, bayramda edəllər zinnət,
Peyğənbərdən ğalmış farzla sünnət.
Münkürə cəhənnəm, mömünə cənnət,
Nalət[368] şeytana, nə gözəl uymuş.

İbraham der, İncil indesaya[369],
Dil verildi əlindəki əsaya,
Təvrətdə dağ, o da Zabır Musaya,
Quran Məhəmmədə nə gözəl uymuş.

---

[366] yaradan
[367] seçkin
[368] lənət
[369] endi İsaya

## AŞIK ABBASTAN

Dəli könül, gənə sultan olmuşsun,
Özbaşına sultan olmax, yani nə?
Bir kismə[370] ki, sənnən qalxıp oturmaz,
Ona ha can, ha can demək, yani nə?

Barar suyu gözəsindən bağlallar,
Ciyərmə eşq oduna dağlallar.
Yaman işə əzəl başdan ağlallar
Geri dönüp pişman olmax, yani nə?

Çağır Aşığ Abbas ol şahlar şahı
Üstümüzdə hazır o qıblagaha.
Ya bir pək dəvruş ol, ya da isbaha[371],
Ara yerdə sərgan qalmax, yani nə?

## BAR[372] TÜRKÜSÜ

Aşıx der, harayından,
Quş uşmas sarayından.
Gündə bir kərpiş düşər,
Ömrümün sarayından.

Aşıx der, nicə yanim,
Mum olum gecə yanim.
Bənə yanmiyan yara,
Bən ona nicə yanim?

---

[370] kimsə
[371] doğru
[372] "Bar" kəlməsi Orta Asiyadan gəlmə xalis türkcə bir təbirdir. Şaman monqollarda davul vardır. Buna "bar"deyirlər"("Halk türküleri" İstanbul Konservatuarı Neşriyatından, kitap 13, İstanbul, Evkaf Matbaası, 1930, s.3)

Aşıx der, yandı canım,
İrxara[373] qaldı canım.
Desəm, el bəni kınar,
Deməsəm, yandı canım.

Hey puşular, puşular[374],
Əl dəymədən xışılar.
Yedi yıldır sevərim,
Yeni duydu komşular.

Qavax qazəli yarım,
Dünya gözəli yarım.
Anam, babam bəsləsin,
İle[375] gəzəlim yarın[376].

Qavaxdan xəzəl indi,
Dibinə gözəl indi.
Bir öpdüm, bir dişlədim,
Dişimə nəzər indi.

Bacada yatan oğlan,
Kömləyi kətən oğlan.
Babam sənə qız verməz,
Xəbərsiz yatan oğlan.

Xala, übən[377] varmıdı?
İçi dolu narmıdı?
Bənə beş yüz verillər,
Heş xəbərin varmıdı?

---

[373] iqrara
[374] ipək baş örtüyü
[375] eli
[376] sabah
[377] heybən

Üzüm, üzüm, üzümsün,
Bənim iki gözümsün.
Sən etmə ki, unutdum,
Gecə-gündüz sözümsün.

Sarı kavun dilimi,
İtirdim bülbülümü.
Çıxam yüksək yerlərə,
Arıyım sevgülümü.

Belində kəmərmiyim,
Dilindən əmərmiyim?
Bir köy bir yana olsa,
Yar, səndən dönərmiyim?

Ata vurdum qantarma[378],
Çək baxçamı, otarma.
Sən bənimsən, bən sənin,
Gir qoynuma, utanma.

Gəlin, ğızlar, sudan geçək,
Su bulanıx, nərdən içək?
Bəbək öldü, kəfin biçək.

Alma atdım, yuvarlandı,
Getdi, beşşigə dayandı.
Bən sandım, yavrum oyandı.

Mauludan çıxdım yaya[379],
Dayan, ey dizlərim, dayan,
Qardaş atlı, bacı yayan.

---

[378] qantarğa, yüyən
[379] piyada

Qaynatamdan hecab etdim,
Qaldırdım, yavrumu atdım,
Dayan, dizlərim, dayan.

***İbrahim Yavuz***
***(Sarıkamış-Boyalı kəndindən)***

## MƏNİLƏR

Körpüdən geşdi, gəlin,
Saşbağı düşdü, gəlin.
Bu gəlin haralıdır?
Hınısın maralıdı,
Bu gəlinin üzünnən,
Yüz yit yaralıdı.

Gümrününü paytonnarı, paytonnarı,
İpəkdir kaytannarı, kaytannarı.
Qoymayın məhəlləyə,
Üş tənə şeytannarı, şeytannarı.

Olan[380], ey çavuş, bir belə bax,
Çavuş, ey dadaş, dön, geri bax.
Qəndili, qəndili var,
Sallama, dadaş, məndili var.

Böyn bən gəldim, Gölənin ayını gördüm,
Otuz-qırq gəlinin boyunu gördüm.
Gədə, tutma qolumu,
Sıxarsın qolbağımı,
Tökərsin gül yağımı.
Gümrününü paytonnarı, paytonnarı,
İpəkdir qaytannarı, qaytannarı.

***İbrahim Yavuz***
***(Sarıkamış-Boyalı kəndindən)***

---

[380] oğlan

# VI BÖLÜM

# AYRIM, AFŞAR VƏ BAYAT URUĞLARI AĞIZI

## 1. AYRIM URUĞU AĞIZI

## MOLLA NƏSRƏDİN NAĞILI

Bir gün Behli Danəndə[381] oğluna dedi ki:

– Oğlum, – dedi, – bir inəyimiz var, apar, bunu sat.

Oğlu bu inəyi götürür, çarşıya gedir. Çarşıda üş lotuya iras gəlir.

Ən əvvəldə lotunun birsinə iras gəlir çarşının başında, deyir ki:

– Oğlum, bu geçiyi harya götürürsən?

Sonra bu tüşündü ki: "Dədəm maa deyirdi ki, bu inəkdi. İndi də deyir ki, geçi. Göterem, – deyir, – başqa yerdə satım".

Bu gedir lotunun birisinə iras gəlir, bu lotu deyir ki:

– Bu çəpişi maa satarmısın?

Oğlan deyir ki:

– Canım, orda iras gəldim, dedilər ki, geçi. Burya gəldim, dedilər ki, çəpiş.

Oradan da geçip getdi. Qurtulacaxdakı lotuya iras gəlir. Lotu deyir ki:

– Bu oğlağı satırmısan?

Oğlan tüşünür ki: "Dədəm dedi ki, bu inəkdi, indi də oğlax dedi. Yaxşisi odi ki, götürüm geçi deyənə verim. Mənim dədəm yannış olmuş, bu geçiymiş".

Bu götürür inəyi geçi deyən lotuya verir. Üş puçux[382] lirə para alır. Pareyi qoyur cibinə, tşünə-tşünə gedeyr ki, əcə-

---

[381] Mətnin əvvəlində Bəhlul Danəndənin adı çəkilir. Lakin daha sonra Molla Nəsrəddindən bəhs edilir – tərtibçi

[382] yarım

ba, dədəmə nə deyəcəm? Bu gedir evinə çatır. Baxır ki, dədəsi oturmuş. Dədəsi buna deyir ki:

– Oğul, inəyi satdınmı?

Bu deyir:

– Dədə, sən maa inək vermişdin, mən götürdüm çarşıya. Hər kəs maa iras gəldisə, geçi dedi. Ordan geşdim, birisinə iras gəldim, o da dedi ki, bu çəpişi satarsan? Mən də dedim ki, sataram. Ordan da geşdim, gənə bir adama iras gəldim. O adam maa dedi ki, bu oğlağı satarsanmı, alam? Mən dedim, canım, oğlax adına satdığıma, götürüm barım, geçi adına satım. Mən götürdüm, geçi adına satdım.

Molla Nəsrədin dedi ki:

– Eyvah, lotulara iras gəldin, oğul, zərəl yox, – dedi.

Molla Nəsrədin gecə yatıp sabağnan qalxdı.

Bunun bir eşşəyi vardı. Palannayıp mindi. Bu sürüp çarşıya yetişhayetişdə eşşəyini əylədi. Bir neçə dənə altın çağardıb bu eşşəyin ağzına doldurdu. Sürüp lotulara iras gəldi. Lotular baxdı ki, Molla Nəsrədin gəlir. Adam ağıllı bir eşşək minmiş. Bu bir biz eşşəyin boynuna batırınca, haman-haman altınları tökdü. Bunnar bir-biriynən danışdılar ki, biz bu eşşəyi Molla Nəsrədindən alax.

Bunnar gəlip Molla Nəsrədinin yanına çıxdılar:

– Molla Nəsrədin, eşşəyi satarmısan?

Molla Nəsrədin də dedi ki:

– Sataram, amma fiətini[383] verəmməssiz.

Bunnar dedi ki:

– Fiəti nəysə, deginən.

Molla Nəsrədin dedi ki:

– Mənim bu heyvanmın fiəti beş yüz lirədir, özünüz gördünüz, bu eşşək bunnan aşağı verilməz.

Bunnar dedi:

---

[383] qiymətini

– Olsun, verək.

Bunnar pareyi verip, eşşəyi aldılar. Molla Nəsrədin dedi ki:

– Bu eşşəyi götürəcəksiniz, samandığa bağlıyacaxsınız. Suyunu da, arpasını da yanında qoyacaxsınız. Bir həftədən sonra gedip, paralarnızı gətirip böləcəksiniz.

Molla Nəsrədin oradan qoyup getdi.

Lotular da bu eşşəyi götürüp bir samandığa qoydular. Otunu, samannı, demək hamsını qoydular yanna, qapsını kilidləyip getdilər.

Eşşək yeyip, içip, şişip, öldü.

Bunnar həftə tamam olup, gedip samandığın qapsını açıp, baxıplar ki, eşşək gəbərip. Bunnar tüşünüllər, Molla Nəsrədin bu inəyin fələkətini bizim başımıza gətirdi. Gedək, Molla Nəsrədini öldürək. Molla Nəsrədin də bunnarın gəldiyini özü bilirdi. Bu iki davşan balası tutup evə gətirdi.

Bu Molla Nəsrədiin davşanın birni götürüp cütə gedir. Gedib bu cüt sürür, baxır, görür ki, lotular gəlillər. Lotular buna çatır:

– Molla Nəsrədin, allah qüvvət versin.

Molla Nəsrədin deyir ki:

– Xoş gəldin.

Molla Nəsrədin çəpik[384] gəlir, davşanı açır, deyir ki:

– Gedip, evə deyərsən ki, qonağımız gəlip, yaxçı pişmişdər eləsin.

Bu davşanı buraxır.

Davşan gedir, ama lotular mətəl qalır. Deyir:

– Molla Nəsrədin, bu nə oyundu, tutmuş bu davşan, nə yaxçı ki, sizin evə gedir, itdən qorxmur.

Molla Nəsrədin qaydır, deyir ki:

– Qardaşım, bu davşanı mən uşaxkən tutdum, örgətdim, hər zaman gedər, evdən nə lazımsa, gətirər.

[384] tez

Bunnar bir-biriynən yenə təybirləşillər. Deyri ki:

– Bu davşanı alax. Biz gəzərgi bir adamıx. Hər vədə göndərərik, evdən arvatdarımz bizə lazım olanı göndərəllər.

Bunnar davşanı Molla Nəsrədindən istiyillər.

Molla Nəsrədin deyir ki:

–Bu davşana sizin gücünüz çatmaz.

Bunnar deyir ki:

– Niyə, qardaşım, fiəti nəysə, deginən.

Bu deyir ki:

– Qardaş, üç yüz lirə verirsəniz, verrəm.

Bunnar pareyi verir, Molla Nəsrədin də cütü açır, doğruğu[385] evə gəlillər.

Amma ki, Molla Nəsrədinin evə göndərdiyi davşan evə gəlməmişdi. Evdə bir dənəsi də vardı. Bunnar gəlip evə çatıllar. Bu deyir:

– Arvat, paltar[386]qoyginən, qonağımız gəlif, otursunnar.

Arvat gətirip paltar qoyur. Bunnar oturullar. Oturduxdan sonra bunnara yaxçı çörək, yaxçı yemək gətirir. Bunnarı yedikdən sonra Molla Nəsrədin deyir ki:

– Arvat, davşanı satdım. Gətir, ver, qonaxlar aparsınnar.

Arvat davşanı gətirir, bunnara verir, bunnar ordan qoyup, gedillər.

Bunnar getdikdən sonra aparıllar davşanı, evlərini örgədillər, davşanı götürüp çarşıya gedillər. Çarşıya gedillər, günorta olur, bunnar deyir:

– Arxadaş, acıxdıx, davşanı göndərək, bir az pişmiş bişirsinnər, gedək, yeyək.

Bunnar davşanı ötürüllər. Davşan evə getməzdi başını alıb bir tərəfə gedeyr.

---

[385] birbaşa

[386] bu məqamda döşəkçə mənasında işlənmişdir

Bunnar günorta olur, evə gedillər. Nə arvat pişmiş eliyp, nə də bir şey, heş bir şey yoxdu. Bunnar deyillər:

– Canım, biz davşanı göndərdik, saa xabər verə. Bizə pişmiş eləyəsən, biz də gələk, yeyək.

Arvat dedi:

– Nə davşan gördüm, nə də bir şey.

Arvat bunnara deyincə, bunnar tüşündülər, hər haldə Molla Nəsrədin gənə bizə fırıldağ elədi. Dedi:

– Qardaş, gedəyin, bu səfər Molla Nəsrədini öldürəyin.

Bunnar ordan durup yola tüşdülər.

Molla Nəsrədin də bir qoyun bağarsağı alıp qəssəplərdən, qannan doldurdu. Gətirip evdə bir yerə qoydu. Bunnar gəlip lotular Molla Nəsrədinin evinə çatdılar. Bu dedi ki:

–Arvat, dur, qonağımız gəlip, bir az pişmiş eləginən.

Arvat gej qalxıp, əmə Molla Nəsrədin də bağarsağı arvadın boğazına bağlamışdı.

Arvat gej qalxınca Molla Nəsrədin çəpik qalxıp arvadı yıxdı. Cibindən pıçağı çıxardıp, arvadın boğazına çəkdi.

Bunnar baxdılar, Molla Nəsrədin arvadı öldürdü, boğazınnan adam akıllı[387] qan axır. Bunnar tüşündülər, biz qaçax, bunun şəri bizi tutacax.

Bunnar belə tüşününcə Molla Nəsrədin qayıtdı ki:

– Qardaşım, qaçmayın, belə olmasa, arvat sözə baxmaz. Siz dutun, mən onu dirildəcəm, – deyip, durup qəmiş gətirdi. Gətirip bunun ağzına qoydu, “Dur, diril”, deyincə arvat haman ayağa qalxdı.

Bunnar da özdərinə tüşündülər:

– Eyvah, bu Molla Nəsrədinin nə felləri varmış, – deyincə bir-birrərinə teybirrəşirdilər[388], – Arxadaş, biz bu qəmişi alax, bizim arvatlarımız heş vaxıt bizim sözümüzə baxmıllar,

---

[387] əməlli-başlı

[388] tədbir tökürlər

biz bunu aparax, arvatdarımızı öldürək, istədiyimiz zamanda “Dur, diril” deyərək, dirilillər.

Bunnar alıp qəmişi, gedillər. Gedillər, bu böyük yoldaşları deyir ki:

– Qardaş, bu gün sıra mənimdi, qəmişi mən aparacam.

Bunnar deyir:

– Canım, bu bizim böyügümüzdü, aparacax, qoy aparsın.

Bu qəmişi götürüp evə gedir. Baxır ki, arvat oturup, axşam olur. Axşam olduxdan sonra bu arvadnan sözü çəpləşdirir, çəpləşdirincə bu qalxır, cibinnən pıçağı çıxardır, arvadı kəsir. Arvadı kəsdikdən sonra çəpik deyir:

– Oğlan, mən arvadı kəsdim, gedin. Gətirin bu Molla Nəsrədinin feli görüm arvadı diriltir, diriltmir.

Qəmişi gətirir, qoyur arvadın ağzına:

– Dur, diril, dur, diril, – deyir.

Baxır, görür, canım arvat dirilmədi:

– Vay, – deyir, – bunun ocağı da bassın, arvat da getdi.

Bu deyir:

– Canım arvat öldü, arxadaşlara heş demiyim.

Bu sabağ olur, qəmişi də götürür, çarşıya gedir. Çatır arxadaşlarının yanna, deyir:

– Arxadaş, neylədin?

Deyir:

– Neyləcəm, kəsdim, diriltdim. Hər dəfə Molla Nəsrədin allatdı, bu səfər də biz Molla Nəsrədini allatdıx, – deyincə, arxadaşlar dedi ki:

– Yaxçı oldu.

Ən nəheti[389] bunnar üçü də arvatdarı öldürdü.

Bunnar dedi ki:

– Biriniz öldürdünüz, deyəydiniz, ö birmiz öldürmiyəydik.

---

[389] nəhayəti

Bu dedi ki:

– Elə olmasaydı, siz mənnən barabar getməzdiniz Molla Nəsrədini öldürməyə, – deyincə bunnar:

– Qardaş, gedəyin Molla Nəsrədinə, nə oyun gətirsə, öldürəyin.

Bunnar burdan yola tüşdülər.

Molla Nəsrədin də bunnar gəlməyini bilirdi. Dedi:

– Arvat, mən, – dedi, – özümə bir qəbir qazdım. Mən oruya girəcəm. Sən də lotular gələndə başına-gözünə döy, ağla. Qəbrin də üstünnən bir epeycə açıx qoy. Yanıma da bir kömür tənəkənin içinə doldur, qoy yansın.

Arvat bunnan barabar qəbirsənniyə gəldilər. Mola Nəsrədin qəbrə girip uzandı. Arvada dedi:

– Mənim üstümü basır.

Arvat bunun yanına kömür qoydu, kömür yandı. Bu da basdırıp qəbrin üstün torpaxladı. Bir yerdən açıx qoydu. Bu qayıdıp gəlip şəhrə, bir epeycə kişmiş alıp, qoyup xurcuna, atıp çiyninə, getdi qəbirsənniyə. Koydə desinər ki, Molla Nəsrədin ölüp, onun ehsanıdı. Bu dağıdıp evinə gəldi. Evinə gəldikdən sonra lotular da evə gəldi.

Arvat bu fuqannan ağlıyır ki, sorma. Lotular dedi ki:

– Bacı, niyə ağlıyırsan?

Bu dedi ki:

– Niyə ağlamayım? Molla Nəsrədin kimin əslan ərim ölüp. Mən ağlamıyacam, kim ağlıyacax?

Bunnar tüşündülər: "Oğlan, Molla Nəsrədin öldü, bizim bu gedən paramız getdi, həmi də arvatdarımız getdi. Belə olurmu? Biz gedəyin bunun qəbrini xəbər alayın".

Bunnar gəlip arvada dedilər ki:

– Gedək, Molla Nəsrədinin qəbrini bizə görsət.

Arvat dedi:

– Qardaş, gedəyin.

Ordan gəlip qəbirsənniyə çıxdılar. Bunnar dedilər ki:

– Bacı, gəl yavuğa, Molla Nəsrədinin qəbrini bizə görsət.

Arvat dedi ki:

– Qardaş, Molla Nəsrədini çox isdəyirəm, ürəyim yaralıdı. Təzə qazılan qəbir Molla Nəsrədinindir.

Görsədip arvat, geri döndü.

Nə yapax Molla Nəsrədinə? Gəldilər, baxdılar ki, bunun qəbrində bir az dəlik var.

Bunnar dedilər ki:

– Molla Nəsrədin bizi yaxdı. Buna nə yappax lazım?

Bunnarın böyügü qayıtdı ki:

– Madamsa Molla Nəsrədin bizi yaxdı, biz də abrez[390]deyə bunun qəbrinə oturax.

Bunnar başlıyır oturmağa. Molla Nəsrədin neyniyr? Cibində öz isminə möhür vardı. Bu möhrü qızardır, bunnar oturduğu zaman bunnara möhür basır.

Bunnarın üçünü də möhürrüyür. Bunnar kiççiyi tutup qalxdığında deyir:

– Qardaş, sizi bilməm, amma məni bu Molla Nəsrədinin ölüsü də yandırdı, dirisi də yandırdı.

Buunun böyügü qayıtdı ki:

– Arqadaş, bunun ölüsü də bir ... deyil, dirisi də.

Ordan qoyup gedillər. Arvat bunnarın getdiyini duyur. Gedir, qəbri açır, Molla Nəsrədini çağardır. Molla Nəsrədin gəlir, qanun bilən bir adama bir istida[391] yazdırır: "Mənim üç dağmalı[392] qulum sənin şəhrində gəzir. Fəqət bu qədər mən özüm bunnara əmək verdim, mənim nə qədər də paramı götürüp burya gəldilər", deyip, yazdırıp, götürüp doğru muahkəməyə verdi.

Bunnar muahkəmədə Molla Nəsrədinə dedilər ki:

---

[390] abdəst

[391] məktub

[392] damğalı

– Sənin qulların dağması harasındadı?

Bu dedi ki:

– Mən şər deməm. Mən arxasına möhür basmışam.

Lotular gəlillər, bunnarı soyundurup, baxdılar ki, Nəsrədin hocanın dediyi dorğudur.

Bunnarı tutup, Molla Nəsrədinə “qul” deyə verdilər. Bunnar eşiyə çıxıp Molla Nəsrədinə yalvardılar:

– Amandı, biz sənə bir şey eləmədik, hər nə elədinsə, sən bizə elədin.

Molla Nəsrədin dedi ki:

– İnək keçi adına alınırmı? Siz məni heş bilmədiniz? Siz bunnan sonra and içip inəyi geçi yerinə almıyacıx və bu lotuluxdan vaz geçəciyik. O zaman sizi buraxacam.

Bunnar mətəl qaldılar. Bizim bir sənətimiz yox. Birisi qayıtdı ki:

– Molla Nəsrədinnən yaxa qutarammiyacix. Yaxçısı budu ki, and içək, yaxıyı qurtarax.

Bunnar Molla Nəsrədinə and içip inandırıplar.

Molla Nəsrədin bunnarı buraxır:

– Əgər bir də sizi belə yerdə görərsəm, bunnan daha betər yapacam.

Bunnarı buraxıp getdi.

Bizim də nağıl tükəndi.

***Məsim İldoqquz***
***(Duzluca, Sarıabdal)***

## AYRIM TÜRKÜLƏRİ

**1**

Kəsildi nişanam, yad oldu vətən,
Gözdən itdi bizim yerin dağları.
Leyli nahar intizarı var canda,
Fiqan eylər səhər sübhün çağları.

Hani iki babamın təccarə təxdi?
Fələk məni qürbət elə buraxdı.
Əzzəlki sinəmin əlavli[393] vaxdı,
Yengisə sərimin çən-dumanı.

Malı-mülkü götdük burya qədər,
Dərdim biridsə, binnərə yetər.
...............................................
Hinnən[394] belə sağlığınan qalasız.

Lətif, şah oğluydum, bir boyu bəsdə,
Toyum yasa döndü dəryanın üstə.
Sığa pəncərədən, qon dizi üstə,
Beçarə lələmə bir xəbər eylə.

Lətif, şah oğluydum, tərlan əlimdə
Hər vaxıt gəzdirərdim, şayın[395] qolumda.
Mən də qorxmazdım belə ölümdən,
Beçarə lələmə bir xəbər eylə.

Lətif şah oğluydum, dəryadə qaldım,
İmdadı çağırdım, imdat bilirdim.
Taxdanın üstündə yalqız ölürdüm,
Mehriban sultana bir xəbər eylə.

Uçan quşdur, qənətiynən uşarmış.
Uş bizim diyara bir xəbər eylə.

Hündüsdan[396]elində qurdurdum darı.
Öldürmə lələmi, yazıxdı barı.

---

[393] alovlu
[394] indidən
[395] şahin
[396] Hindistan

Bir qılışda saldım Əspəndiyarı,
Şad oldum, muraza yetdim bir zaman.

Səni tək şahları payəndaz etdim,
Öz xaki-payıma getdim bir zaman.
Hündüsdan elində əyləndim, durdum,
Donnan dona geydim, bəzirgan oldum.

Mehruban Sultanı baxçada buldum,
Şad oldum, muraza yetdim bir zaman.
Səni tək şahları piyandaz etdim,
Öz xaki-payima getdim bir zaman.

2

Xab içində yatan beyxəbər seyyad,
Uyan seyyat, uyan al vaxdı gəldi.
Əgər bağmanısan, dur, al barını,
Gərdan sarıp, qujmax bel vaxdı gəldi.

Gəl, ikimiz girək bir ağ otağa,
Danışanda dodax dəysin dodağa.
Boyun bənzər səlb[397] üstündə putağa,
Əgər bağmanısan, bar vaxdı gəldi.

Beçarə gülşəyəm dillərə dəstan,
Ağ sinəm gətirmiş bağnan bosdan.
Əgər bağmanısan, bar vaxdı gəldi,
Geyərəm qaralar, bəklərəm yolu.

Neçə min sənələr ola ömrüm,
Səyyat, mən sənin bəklərəm yolun.
Əlinnən gəlmişəm mən də amana,
Uca dağlar qarğ olundu dumana.

[397] sərv

Üzüm sürtəm, mən də gələm vətən imana,
Uyan, sövdicəyim , al vaxdı gəldi.

3

Anamnan dədəm məni döydülər,
Dannanmamış üzümə çoxlu söydülər.
Gələrkən yolumu azıtdım orda,
Mövlam mırat versə, görərəm bir də.

Anam, dədəm ağlamaxdan kor oldu,
Qərip qürbət indi bizə yol oldu.
Daha bizdə yoxdu güman hey.

Bir gözəl sövmüşdüm on yeddi yaşında,
Cığa pərvazında, məmə tuşunda.
Zilflərin darıyıp qara qaşında,
Qara qıynağında inci dişində.

Mən yarı görmüşdüm bağda çok gözəl,
Qardaşımnan anam yoluma baxar.
Yarın eşqi hindi ciyarım yaxar,
Dədəm çıxar yol üstə, yoluma baxar,
Yarı gördüm bağda mən də gözəl hey...

Mən ordan gələli yarım yaxçiydi,
Günahları xırda, özü yaxçiydi.

4

Aramızı qarrı dağlar alıpdı,
Görünməz gözümə oralar hindi.
Sel Yağubu yar koynunnan qavalar,
Görünməz gözümə oralar hindi.

Ara yerdə söhpət oldu, dəm oldu,
Yardan ayrılmağımız nə möhkəm oldu?

Şükür üzün gördüm gönül şad oldu,
Yanağa düzdürüp lalalar hindi.

Bülbül kimin çox cəfanı çəkmişəm,
Yarpax kimin qürbət elə düşmüşəm.
Yar sənin əlinnən mən də bişmişəm,
Görünməz gözümə oralar hindi.

Ağlıya-ağlıya gözüm kor oldu,
Saraldı, gül rəngim soldu.
Neçə aynan neçə il oldu,
Görünməz gözümə oralar hindi.

Üseynəm, gəldi zara, zinara,
Quralar ağacı, çəkələr dara.
...........................................
Görünməz gözümə oralar hindi.

5

O gün kü aşdım sizin qapını,
Yapınızı gördüm çamurdan hey.
İstədim qapını açam, içəri gələm,
Yar əlini xamırda gördüm bir hey.

Yarım daramış zilfini, tökmüş belinə,
Qiyamatta qalan gəlməz dilinə.
Səfil Üseynəm, geçəm əlinə.
Səndə görməmişəm axırı iman hey.

6

Peyədən çıxır bir cüt camışı,
Yaxçi olur yarın xəlvət görüşü.
Üş-beş sənə mən də qəhrinə dözdüm,
Hindi mən gəzərəm səni tapınca.

***Hüseyn Buğa***
***(Duzluca –Dəmirsıhan kəndindən)***

## DEYİŞMƏ

Abbasın üstündə sevgisinin deməyinə bax. Bir gəlinnən bir ey qızın bəhsidir:

**Aldı qız:**

Qız da diyər böyün dövran məndədi,
Açılmamış baxça dərilməmiş gül.
........................................................
Əl dəyməmiş bağı-bostan məndədi.

**Aldı gəlin:**

Gəlin diyər, ördəyim var, qazım var,
Üstə xırdabatdı sədəf sazım var.
Yeridikcə doqquz qızca nazım var,
Qızdan artıx eşqi savda məndədi.

**Aldı qız:**

Qız da diyər, ikimiz durax, durax bir qoşa,
Uzaxdan baxannar etsin tamaşa.
Ömür sərf eylədim, gətirdim başa,
Əl dəyməmiş gülü reyhan məndədi.

**Aldı oğlan:**

Bir tərlannan bir şikarın bəhsidi,
Sizdən artıx eşqi savda məndədi.
Can qurban eylərəm hər ikisinə də,
Sizdən artıx eşqi savda məndədi.

***Hüseyn Buğa***
***(Duzluca –Dəmirsıhan kəndindən)***

## İT TÜRKÜSÜ

Tökəllər çobanlar südü itdərə,
Qiyamətdə qoyun verməzdər yaddara.
İtimiz yaxşıdı, qoyunda yatar,
Qurd mənzili olsa, yoluna tutar.

Bir sərt itim olsa, min qurda yetər,
Sevgilidi bizim itdər çox orda.

Yaylanın ətrafını daşdan hörəllər.
Qurtdar gələrsə, yolda görəllər.
Qava-qava çox uzağa gedəllər,
Min düşman olsa, batmaz bir itə.

***Hüseyn Buğa***
***(Duzluca –Dəmirsıhan kəndindən)***

## 2. AFŞAR URUĞU AĞIZI

### AFŞAR TÜRKÜLƏRİ

**1**

Türkün yeni dağları var,
Nə gözəldi şimdi bağlar?
Mor sünbüllü güllər sönmiş,
Bülbül süsmiş, hicrənnər var.

---

Ağlama sən, nazlı vətan,
Yetişiris sənə, inan.
Hər tərəfim kan içində,
Mahf olduk biz, yetişiriz.

---

Çoruh nəhəri qan fışqırıp akıyor.
Yetim Bayburt boyni büküp bakıyor.
Bu vəhşətlər cigərmi türbələrı yıkıyor.

---

Trabzon, Trabzon, bu atəşə dürma, yan,
Qərə dəniz başdan-başa qızıl qan.
Aman allah, nə din qaldı, nə iman,
Orman kibi doğranıyor yetiman.

2

İsviçrəyə bədəl Bingöl dağləri,
Muş ovasi Vanin şanli bağləri,
Tortum baxçələri, Dumlu dağləri,
Yad edər, ağlariz əsgi çağləri.

---

Əlajgertlə Ərzurumun ovasi,
Qoyun, quzzu yetiştirir yaylasi.
Bu yaylələr Türküstanın ovasi.

---

Bayazit altində Zəngəzur bağİ,
Türküstan elidir aslan yatağİ.
Əffəla[398] sər çəkmişlər Ağri dağİ,
Türk elinin öz yatağİ.

---

İzmir ovasində xəndəg eşildi,
Üççüzü bin islamın başi kəsildi.
Gəbə qadinlərin qarni deşildi,
Qız-gəlin qalmayup bekar bozildi.

---

Şipgi aşar Yavuz qəhrəman,
İsmət paşadır, yigitdir bir arslan.
Görmədi mislini bu keni cihan,
Verirdi düşmanlərə neçə bin ziyan.

---

Fəvzi paşadır alidir şani,
Necə mət etməyim o xandani.
Türklər üzgə ayani,
Misafirpərvərdir əlül vədəni.

---

[398] göylərə

Saleh paşa der, açəm meydani,
Türklərin arslani.
Mərdçə qurban olem vətanə.

3

Uyanalım sabah oldi,
Bağrım yanıp kəbap oldi.
Yanan cigər külə döndi,
Evlər öni fındıq,
Fındığın dalinə[399] qonduq,
Biz də yeni gəlin olduq,
Uyanalım, sabah oldi.

---

Evlər öni harman,
Harmanda oxunir fərman.
Bekar[400] qızlar canə dərman,
Uyanalım, sabah oldi.
Bağrım yanıp kəbap oldi,
Yanan cigər külə döndi,
Gün toğməzdən nələr oldi.

---

Evlər öni qavax,
Əlim kənə, yüzüm tabax.
Yarim ölmişdir bayax.
[Nəqərat]
Evlər öni çiçək,
Qızlar gəlin, kətən piçək.
Alim ölmiş,oldi gerçək.
[Nəqərat]
Evlər öni xorma,
Xormanın tallari bürma.

---

[399] budağına
[400] subay

Göndərdilər, gələcək davul-zurna.
[Nəqərat]
Evlər öni mərzəl[401],
Mərzəldən xocalar gəzər,
Anam, babam hillə sezər.
[Nəqərat]

4

Havada bulut yox, bu nə dumandır?
Məhlədə eli yox, bu nə şivandır?
Anam, Yəməndir, gülü-çiməndir,
Gedən gəlmiyor, acəp nədəndir?

Qışlənin öni sıra sögütlər,
Önündə yüriyan asgər yitlər.
Binbaşı gəlir, ögüt edər,
Önündə yüriyan baba yitlər.

---

Burasi Müşdür, havasi xoşdür,
Gedən gəlmiyor, acəp nə işdir?

***Dorğut Auşar***
***(Ardahan- Hasköy- Haçuvan nahiyəsi)***

## 3. BAYAT URUĞU AĞIZI

### AŞIQ ABBASDAN

Abbas deyər: müsəlliyə varmadan,
Əl uzadıp qonça glün dərmədən,
Birsi, yarap, bənəm, birsi kim ola?

---

[401] məzar

Şah İsmail da atasına quzudu,
Deyilənnər bütün ara sözüdü.
İydin şöhrəti iki gözüdü,
Aman, şah baba,öldürmə məni.

---

Abbas deyər, yollar üstə duraram,
Gah ağlaram, gah boynumu buraram.
Gedən karvan, sənə bir ox vurararm,
Yendir kecavanı, qoy yarı görüm.

## TÜRKÜ

Qapılarında var bir tut ağacı,
Bir tamı şirindi, bir tamı acı.
Sənə qurban olsun Səhnə[402] qalmacı[403],
Ya mənim sedigim, ya da bir qərəl[404].

---

Uca dağlar uca saxlar qarını,
Bilbil çəkər gülün ahı-zarını.
Nə müddətdi görməmişdim yarımı,
Görənnən görən can qurban dedim.

Bən gedirəm, səni kimə tafşırım?
Dəryalar mürəkkəp, meşələr qələm,
Yazdıra qal indən belə.

---

Dərya qırağında verdim sənə nəsihət,oğul,
Gözə qorux yoxdur, dil başa bəla,
Dolandır başını səlamat, oğul,

***Cabbar Şan***
***(İğdır-Bayat kəndindən)***

---

[402] Səkinə
[403] gəlin bacı
[404] qərar

# VII BÖLÜM

# YERLİ QARS AĞIZI

## DARAXLI QUŞ

Bu bir gəlnmiş. Başına su alirmiş. Əlində darax başıni darirkən, qaynatasi gəlir, deyir ki:

– Allah, bən nası qaynatamın üzünə çıxım? – deyir, – Allah, ya bəni bir quş et, ya bəni öldür, bəni qaynatam görməsin.

Bir daraxlı quş oldu, çıxdi, getdi dağlara.

***Zöhrə Kəmənç***
***(Qars: Qala içi)***

## HALVAÇI GÖZƏL

Vaxtın birisində bir zəngin adam var idi. Bir də bir qızi var idi. Bu adam məhlə imamını çağırdi, dedi ki:

– Bən tüccarrığa gidiyrim. Bənim evümə nə ki lazım olursa, sən al, xoca, gətir, bən sənin hesabın veririm.

Əvəldə əvəlki tüccarrar qəflə-qatırnan ükünü tutardi, tüccarrığa gedərdi. Sora hangi şəhərə gedərsə, o tüccar gedərdi, o şəhərdən böyügindən ruhsatye alırdi, sora gəlirdi, malını satardi.

İştə imama tənbeh etdi ki:

– Bənim evümün esgigini alasin. Bən gəlir, sənin hesabın veririm.

Sabahdan qalxdi, tüccar getdi, qaldi xoca. Xoca da gündə bir dəfən gəlirdi o tüccarın evünə, deyirdi:

– Qızım, nəyin əsgig sənin? Nəyin əsgig isə bəhən de, gətirim.

Bu da söylərdi, xoca da gedir, gətirirdi.

Bir gün sabağnan qız xamur yoğurirdi. O sıra hoca qapiyi vurdi. Nə gətirmişsə, qız biləhləri çərməhli xocanın qarşısına getdi. Gedəndə, xocanın gətirdiyini aldı. Alannan sora xoca hunun biləhləri elə bir havalandı ki, xocanın ürəgi bozuldi. Sora getdi, bir qoca qari buldi. Sən bülürsün, bu qızi qandır[405] da, bənnən baş bir etsin.

Qoca qari getdi qızin avünə, dedi ki:

– Qızım, iştə felan ağa, felan ağa,– beş-altı ağa adıni saydi, – onnarın qarılari səlam etdilər, biz hamama gedirik, o da gəlsin.

Qız da qaxdi, üstünü geydi, bəzəndi, getdi hamama bu qarıynan barabar. Bu qari dedi ki:

– Qızım, sən soyun, hamama gir, onnar da gəlir.

Qız da soyundi, içəri girdi. Bir də baxdi ki, xoca da soyunmış içəri girdi.

Xoca dedi ki:

– Bən sənnən ötüri olirim.

Qız düşündi ki, xocadan qurtuluş yox. Xocaya dedi ki:

– Xoca, madəm ki, sən bənimsin, bən də sənün, şindi dur xoca, səni bir əlümnən çimdirim, sora sən bənimsin, bən də sənin.

Qız başladı xocayi çimdirməyə. Bir qalıp sabıni əzdi, bütün xocanın canına sürtdü. Sora tasi qız qoydi peştəmalın içinə, geşdi xocanın xocanın yamacına oqqadən vurdi xociya, xoca uppuzun qaldi.

Qız orda bıraxdi xocayi. Çıxdi, üstünü geydi. Qız şəhərdən dişəri çıxdi, yola düşdi, getdi bir başqa şəhərin qırağna. Bir daşın dibində oturdi. Oturduxdan sora o şəhərin padişahnın oğluynan av-quşa getmişdilər. Dedi ki:

– Lalə, bögün hər nə av-quş edərsək, bənimdir.

---

[405] aldat

Getdilər, av-quş vuramadilar, döndülər, gəlillər şəhrə. Gəldilər bu qıza ras gəldilər.

– İştə, – dedi, – laləm, bu qızı bən alacam.

Və də bu qızı aldi tərkisinə, gətirdi evünə. Aldi qızi.

Bu qızdan iki oğlan oldi. Bir də bir qız oldi. Bir gün bu qız gecə ərinə dedi ki:

– Bəni babamgilə yolla.

Bu da:

– Pəkey, – dedi.

Sabahdan laləyə dedi ki:

– Bir tabur əsgər al, sən də barabar, bənim qarımi götür babasıgilə, göstər, gətir.

Lalə də əsgəri aldi, ərzağıni aldi, qızi da mafaya bindirdilər, çocuxlariynan barabar, yola düşdülər. O güni getdilər axşama qədən, axşama yaxın yıxdılar ükü bir yerə ki, gecə orda qalalar.

Lalə də qızın çadırına gidir, gəlirdi. Axşam namazınnan sora əsgər yatdi. Lalə qaxdi, qızın çadırna getdi. Dedi ki:

– Gəl, sənnən başbir edək.

Qız dedi ki:

– Olamaz.

"Olamaz" deyəndə oğlanın birinin qolunnan dutdi, dedi:

– Bunu öldürrüm.

Dedi ki:

– Öldür.

Öldürdi lalə. Sabahdan əsgər qaxdi, dedilər ki:

– Lalə, hazırranax?

Dedi ki:

– Şahzədənin biri bir oğli məhrim olmiş, onu dəfni edək də, sora yola düşək.

Oğlani quyuladılar, yola düşdülər. Axşama qədən gənə yol getdilər. Gənə bir yerdə yıxdılar üklərini, o gecə orda qalalar.

Axşam namazi geşdi, lalə gənə getdi bu qızın çadırna. Gənə dedi ki:

– Gəl, sənnən başbir edək.

– Olmaz, – dedi.

– Olmasa, – dedi, boğloğon[406] da öldürürüm.

Dedi:

– Öldür.

Öldürdü. Sabağnan genə çavuş qaxdi, getdi ki:

– Laləm, qaxaxmi?

Lalə dedi ki:

– Şahzədinin bir oğlu da mahrim olmiş. Onu da qaldırax da, sora gidək.

Qaldırdılar, quyuladılar çocuği.

– Haydin yola rəvan olax, gidək.

O gün də getdilər. Axşama qədən gənə yol getdilər. Axşam oldi, gənə burda rahatlığ edək. Gənə yedilər, işdilər, axşam oldi, axşam namazınnan sora, lalə gənə çadıra getdi, dedi ki:

– Bax, oğlannaran yazığın gəlmədi, şimdi qızı da öldürəcəm.

Dedi ki:

– O ki oğlannari öldürdün, qızi də öldür.

Qızi də öldürdü. Sabağ oldi, çavuş gəldi gənə lalənin çadırna, dedi ki:

–Laləm, gedəkmi?

Dedi:

– Gənə getməyin, – dedi ki, – şahzədənin qız çocuğu da var idi, o da məhrim oldi.

Onu da quyuladılar. Qaxdılar, üklədilər, gənə yola düşdilər. Gənə getdilər axşama qədən. Axşama yaxın idi, gen bir suli yerdə qondular. Gənə axşam namazınnan sora gənə getdi lalə qızin çadırna, dedi ki:

---

[406] bu oğlunu

– Bax, çocuxların öldürdüm, səni də öldürəcəm.

Sora dedi ki:

– Bəni qoy gidim, ahaneyə[407], gidim, abdəs alim, gəlim, – dedi.

Lalə inanmadi ki, gəlməsin, dedi. Dedi ki:

– Gəlirim, – dedi, – əgər inanmirsən, bir ip bağla belimə, – dedi

İpi bağladi, lalə bir ucunnan tutdi.

Qız getdi ipin mənzilincə, ipi belinnən aşdi, bir uzun daşa bağladi, qız qaşdi.

Lalə ipi çəkir, elə bülir ki, qız gənə oradadir. Halbuki qız qaşdi.

Bir mənzil bəhlədi, bəhlədi, baxdi ki, bu heş gəlmir, qaxdi, gəndi getdi. Getdi ki, ipi daşa bağlamış, gəndi yox. Lalə gəldi çadırna, yatdi. Sabaxdan qaxdılar, çavuş gənə getdi lalənin çadırna, dedi:

– Laləm, gidəkmi?

Dedi:

– Geri gidək.

– Niyə, – dedi,– geri gidək?

Dedi ki:

– Çocuxlar öldi, qarı da qaşmış.

Geri gəldilər, gəldilər, şahzədəyə dedilər ki:

– Çocuxlar öldi, qarın da gecə qaşdi, biz də geri gəldik.

Şahzadə bu işə çox məraxlandi, çox düşüncəhlig aldi. Bu hələ düşünirkən, gəl, gələlim şimdi qıza.

Qız gəldi bir çobanın yanna, dedi ki:

– Çoban, bu asbablarımı səhən[408] verim, sən bəhən[409] qoyun kəs, qarnını bəhən ver, əti-məti sənin.

---

[407] Aha, elə

[408] sənə

[409] mənə

Çoban kəsdi qoyuni, qarınni çığartdi, qıza verdi. Qız da qarıni yexadi, saçlarini topladi, başına geçirdi. Oldi bir kəloğlan.

Bu qız gələ-gələ babasının məmləkətinə gəldi. Getdi bir halvacının yanna şəgird oldi. Bu halvacının günbəgün müştərisi artdi. Nədən artdi, bu qız təmiz halva bişirirdi. Adıni qoydılar "Halvacı gözəl". Gələn-gedən, yerişən[410] dedi ki:

– Gidək, halvacı gözəlin tükəninə, halva yiyək. Belə adlandı bir vaxıt, söyləndi, getdi.

Şahzədə dedi ki:

–Haydı, lalə, sənnən qurbətə gidək.

Atlari bindilər, gələ-gələ o şəhərə gəldilər. Dedilər ki:

– Burda təmiz qeyfə[411] kimin var? – dedilər.

Dedilər:

– "Halvacı gözəl"in qeyfəsinnən təmiz qeyfə yoxdur.

Gəldilər. Atdan endilər, hizmətcilər atlari axora çəkdilər. Gəndiləri qeyfiyə getdilər. Axşam oldi, bir adam gəldi, "Halvacı gözəl"ə dedi:

– Səni felan ağa çağıri, səni davət edir. Buyur, gidək, – dedi.

Dedi ki:

–Gidər, səlam edərsin felan ağaya, bən gələməm, müsafirlərim var, gələməm.

Amma qız bu müsafirləri tanıdi.

Bu getdi, dedi ki:

– "Halvacı gözəl" gəlmir.

– Niyə gəlmir?

Dedi ki:

– Müsafirlərim vuar.

Dedi ki:

– Get, de ki, müsafiləri də al, gəl.

Aldi müsafirləri o qonağa, o məzlisə gəldi.

---

[410] hər kəs

[411] qəhvə

Safa-xoş etdikdən sora, qız baxdi ki, babam dorda[412], molla dorda. Dedilər ki:

– Bi şe söylə diyniyək.

Həp dedilər ki:

– Bilmirik, biz söyləməzik. Ya kim söyləsin?

Həpsi qərəl[413] qoydi ki, "Halvacı gözəl" söyləsin.

"Halvacı gözəl" dedi ki:

– Bən söylərim, bəhən bir qaz gətirin.

Qazi gətirdilər, bir ocax yaxdi, şişə taxdi, nası bir Qars kəbabi. Sora dedi ki:

– Burya bir nöbətçi qoyarsəz, kimsə girip çıxmıyacax. Belə yaparsaz, bən söylərim.

Qız başqasının adiynan, başına geçənləri cəmahata söylədi. Söylənəndə qız tez-tez dedi:

– Döndərin, qaz yanmasın, sözlər xilaf olmasın, nə içərdən dişari, nə dişardan içəri gidip-gələn olmasın, – dedi.

Hikatda sıra mollaya ki gəldi, molla sancılandı. Molla dedi ki:

– Bən bir dişari çıxım.

Şahzadə dedi ki:

– Olmaz, otur.

Hikatı şahzadə annadi. Lalənin də, mollanın da şahzadə boynuni vurdi. Gənə qızi aldi, gəldi, gəndi evünə.

Ustamızın adı Xıdeyr,
Əlimizdən gələn budur.
Göydən üç alma düşdi,
İkisi diyniyənə,
Biri də söyləyənə.

***Aşir Sarbaşoğlu***
***(Qars: Qala içi)***

---

[412] da orda
[413] qərar

## HORAVEL-KOTAN TÜRKSÜ[414]

**Majqal[415]:**

Əlində süt küləgi[416],
Sütdən bəyaz biləgi

**Odaxlar:**

Hode hodax ho, ho,
Dördünə vurmıyanın
Xalassının ardına
Ho ho.

**Majqal[417]:**

Bu gələn xaşılmıdır?
Ortası yeşilmidir.

**Hodaxlar:**

Hode hodah ho ho.

**Xodax:**

Horik[418], horik bəglər yeri,
Küçük göbək ondan geri.
Qara qayış, ayran aşi
Xarazan kərtik başi,
Majqala verim yaşi,
Hode hodax ho ho.

**Majqal[419]:**

Qırmızı tuman, ağ baldır,
İçindəki nə maldır?

---

[414] Təmmuz (iyul) ayında kotan sürülürkən öküzlərin boyunduruğu üzərinə oturub "ho, ho" deyərək, öküzləri sürən gənclərin söylədikləri türküdür.

[415] Kotanın arxasındakı majdan tutaraq, oxu tarlayan basıran şəxs

[416] vedrə

[417] Kotana yemək gətirilərkən söylənilir.

[418] ən öndə bir cüt öküz

[419] Bu əsnada kotanın yanından bir qadının keçməsi üzərindən majqal qadına xitab edir.

**Qadın:**

Ay həpirə, həpirə,
Xodaxların ağzına ...
Majqalın ağzı köpürə.

***Aşir Sarbaşoğlu***
***(Qars: Qala içi)***

## NƏNNİ

Nənni dedim yatasın,
Qızılgülə batasın.
Qızılgül sənin olsun,
Kölgəsində yatasın.

Atim dutim bən səni,
Şəkərə qatim səni.
Havıya bulut gələndə,
Beylərə qatim bən səni.

Əl追dim, ələdim, höllüg ələdim,
Böyütdüm, becərdim, əsgər eylədim.

Ellərin balası küldən, torpaxdan,
Bənim balam güldən, yarpaxdan.
Nənni də balam, a nənni,
Nənni də yavrum, a nənni.

Qızım, qızım, qız ana,
Qızını verin xızana.
Xızan axça qazana,
Səlıməm geyə, bəzənə.

Qızdır, nazdır
Bir quruş azdır.

Bin daha gətir,
Gəl Səlıməmi götür
Nənni də balam, a nənni,
Nənni də yavrum, a nənni.

Meydanda atlar,
Yan-yana otlar.
Balama qurban olsun,
Qoş-qoç igitlər.

***Günnaz***
***(Qars: Aynalı kəndindən)***

## MANİLƏR

1
Sariqamışın yollari,
Əyri-büyri qollari.
Məndil alim, süpürim,
Balam gələn yollari.

2
Bən bir ördəg olaydım,
Yol üstünə qonaydım.
Gedip gələn yolcıdan
Bən balamı soraydım.

3
Pəncərədən quş uşdi,
Məndilim suya düşdi.
Ağla, gözlərim, ağla,
Ayrılıx bizə düşdi.

4
Yazı yazdım qaradan,
Dağlar qaxsın aradan.
Ya rəbbim, sən qavuşdur,
Yeri-göyü yar edən.

5
Məktip yazdım, büləsin,
Oxuyasın, güləsin.
Bu məhtibim üstünə
Durmiyəsin, gələsin.
6
Bu dağın ardı xaşxaş,
Xəbərin alım, qardaş.
Məktip yazdım, yolladım,
Gəldi, dəydimi, qardaş?
7
Qardaş bənim nəligim,
Yaxamda ignəligim.
Köçəndə köçüm, qardaş,
Qonanda kölgəliyim.

***Günnaz***
***(Qars: Aynalı kəndindən)***

## ƏMRAHIN[420] TÜRKÜSÜ

Xondgər əfəndimə tərif eylayım,
Sahat çuxurnun[421]nuvar çağları.
Yaz açılcax onnar çıxar yaylağa,
Gəzər, gəşt eləllər gözəl dağları.

Bahar olcax olar çəltik əkəllər,
Yük tutuban şəhərrərə tökəllər.
Səhərdən bəylərə xonça tutallar,
Qalın qaymaxları, kərə yağları.

[420] İrəvanlı bir aşıqdır . Sevgilisi Səlbi xanımdır. Deyilənə görə, XVI-XVII əsrdə yaşamışdır.
[421] mahal adıdır

Yaxçı olu İrəvanın gözəli,
Sevdiciyim seşdiceyim tez alı.
Altı bədo atdı, qarğı nizalı,
Meydana girəndə bəy oğlannarı.

Bu sözdəri deyəndə Əmrah xondgər paşa deyir ki:

– Oğlum, Əmrah, heş digər məmləkətdər yoxdumu? Sən ağzını aşcağın İrəvanın "Sahat Çuxurunu" mət ettin.

Əmrah qayıtdı dedi ki:

– Paşam sağ olsun! Əyyər iznin ossa, digər məmləkətdəri də mət eliyim.

Bundan sora Əmrah deyir ki:

Üş üz altmış altı gündə on iki ayda
Baharın eyli vəsli çağı yaxçıdı.
Adamın ismində Məhməmmət, Əli,
Həsən, Hüseyin, Zeynal, Tağı yaxçıdı.

Ağ lala irəngi qızılgül muyun,
Həşdərin çörəyi, Yedərin xuyu,
Mərəndin pendiri, Sərhəndin suyu,
Ərdövül yaylağı, dağı yaxşıdı.

Qızıl-gümüş axar çayların seli,
Aləmin muradı verər meh, yeli.
Gürcüstan valisi, Urumun eli,
Hindin qələmkarı, ağı yaxçıdı.

Ərəbistan iyidi, Türkmanın atı,
Düşmanın üstünə varallar qatı.
İran bərəkəti şahın dövləti,
İspafan bağçası, bağı yaxçıdı.

Qarabağ qırğısı, Qarabağ ovu,
Gəncənin boyağı, ipəyi, qovu[422],
Təbrizin qutnusu, Şamaqqi movu[423],
Marağa düyüsü, yağı yaxçıdı.

Əmrah deyər, can da yarın havası,
Loristan iyidi, xurşud dəvəsi.
İmam Irza deyəllər onda bu bəsi,
Məşhədin saygısı, sağı yaxçıdı.

Əmrah İstanbula gedirkən Sahat çuxurunun tükənəcəyində geriyə donup deyir:

Uça-uça gəlir Bağdat elinnən,
Köçüp bölük-bölük bölündü durna.
Səni, məni yaradanın eşqina,
Əylən, qara barığım[424] dəlindi, durna.

Evlərimiz Qarandunun[425] başında,
Sular axar, xan Arğının[426]tuşunda.
Cəyənni cəngəlli göllər başında,
Mənim ərzəm yara verildi, durna.

Dar yerdə qalanda çağır allahı,
O səni damanda qonmaz, billahı,
Xan Səlbiyə müjdə götür Əmrahı,
Bir itgincə qulun bulundu, durna.

***Ali Işık***
***(Qars-Şürəgəl: Külvərən kəndindən)***

---

[422] qoza (pambıq)
[423] mavi
[424] bağrım
[425] Bir məhəllənin adıdır.
[426] Ağrı dağı

## BEHBUDOVUN[427] VAXTINDA

Çox da at oynatma, ey dini batıl,
Dayanginən üstünə al osman gəlir,
Səysən min atlıdı, səysən min yayan[428],
Səysən min də sərhəng balaman gəlir.

---

Sipqız ilan kimi elatımız var,
Nizalı, cidalı həp kəhlən suvar.
Səysən min attıdı, əlində təvvar,
Şikar etmiş qarnağında qan gəlir.

---

Qulu deyər, bada işdim pirimnən,
Xorasanda qurşanmışam belimnən.
Neçə şahzadalar durup yerinnən,
Geçipdi Bağdatdan külli Van gəlir.

***Ali Işık***
***(Qars-Şürəgəl: Külvərən kəndindən)***

## MƏNİLƏR

Qarşıda almalıxlar,
Suda oynar balıxlar.
Nə belə sevda gördük,
Nə belə ayrılıxlar.

Baxçıya bar bulunur,
Hayvıya nar bulunur.
Ağlaram, balan, ağla,
Yarına yar bulunur.

---

[427] Rus generalı Behbudovun zamanında, 1855-ci il Krım müharibəsi əsnasında söylənmiş türkü
[428] piyada

Havalar bulutlandi,
Bulutlar kilitləndi.
Yükləyin qatır, dəvə,
Bərhanam[429] şiritləndi[430].

Havada bulut bənəm,
Dolanır, bulut bənəm.
Dilimdən unutsan,
Qəbildən[431] unutmanam.

Getmə, getmə, əylən, dur,
Halım sənə ayandır.
Əl bənim, ətək sənin,
Getmə, getmə, dayan, dur.

Qaynar punar olaydım,
Ləblərinə dolaydım.
Bu gecə balamın
Yanında bən olaydım.

Dağlar qarala qaldı,
Otlar sarala qaldı.
Oda yapdı, dam tikdi,
O da verana qaldı.

Yük dibində beş alma,
Beşin al, beşin alma.
Fələgə çox minnət etdim,
Canım al, yarım alma.

***Zöhrə Kəmənç***
***(Qars: Qala içi)***

---

[429] karvançının ev əşyası
[430] şəritləndi (sarıldı)
[431] qəlbdən

## YAĞIŞ DUASI

Kəpçə gəlin nə istər?
Allahdan qaşığ yağ istər.
Allahdan suli yağmur istər.
Ver, Allahım ver, bir suli yağmur.

***Zöhrə Kəmənç***
***(Qars: Qala içi)***

## MƏSƏL

1. Dili yox, bilbili çox, rehani çox, gündə, qoxusi çox, gündə qırx səkkiz qılış dəgər, qanı yox, o nədir? (Kilim)

2. Ağır halıy çırpmadım, ufax daşı tökəmədim, bu nədir? (Göy-ulduz)

3. Hamam, hamam, qübbəsi tamam, bir gəlin aldım, babası imam. (Saat)

4. Bir küçücük odacıx, içi dolu yonqacıx. (Ağız-diş)

5.Bir küçücük mil daşi, dolanır dağı, daşı. (Göz)

6. Dağdan gəlir dax kimin, qolları budax kimin, əgilir su işmiyə, bağırır oğlax kimin. (Türk arabası)

7. Burdan vurdum qılıci, Hələbdə oynar uci. (Şimşək)

8. Atdım atana, dəydi kotana suda balığa, düzdə ceyrana. (Yıldırım)

***Zöhrə Kəmənç***
*(Qars: Qala içi)*

## AXQONUN TÜRKÜSÜ

Savux suların başında,
Bir xət çəkilmiş daşında.
Qazax gəlir savaşında,
Dağıtdılar daşın, Axqon,
Nə bəlalı başın var, Axqon.

Əlvan-əlvan çiçəklərin,
Gəzər idi göyçəklərin.
Dersəfilin qoçaxların,
Dağıtdılar daşın, Axqon,
Nə bəlalı başın var, Axqon.

Camışı bənzər cənnətə,
Bağ içindəki cənnətə.
Şennigin düşdü qürbətə,
Dağıtdılar daşın, Axqon,
Nə bəlalı başın var, Axqon.

Qoşa dilbar, qoşa dilbar,
Bən mayılam qaşa, dilbar.
Mevlam ayrılıx verməsin,
Göydə uçan quşa, dilbar.

***Aşir Sarbaşoğlu***
*(Qars: Qala içi)*

## NƏCİBİN TÜRKÜSÜ

Zamanın birində bir Nəcib varmış. Sarıqamışın Divit köyündə. Bu çox vaxıtlı adammış. Və gəndisi, ayləsi köyçek adamlarmış. Fəğət bunun bir arxadaşi varmış Kösə Ahmət isməndə. Buna da Ahmət bək dellərmiş. Nəcibinən ğardaşlığ olmuşlar. Nəcib asgərə getdikdən sora bu Nəcibin qarısına göz ğoymuş. Fağət bir imkanını bulamamış. Bu dutmuş bir məytup yazmış, Nəcibə göndərmiş: “Qardaşım, acələ bu qarının boş kağidini göndərəsin. Fəna yola çıxmışdır. Şindi isə bənə toxınir. Babasıgilə gessin, desinnər ki, filənkəsin qızı sevilir. Deməsinnər Nəcibin qarisi sevilir”.

Bu Kösə Ahmət məytip göndərdikdən sonra günnərin birində gedir məytip Nəcibə dəgir[432]. Nəcip alir, gözdən geçirir. Baxır ki, bənim qarım belə köti yola çıxmazdi. Fəğət Ahmədinən bunnar çox sevümli bir arxadaşdılar. Bu doğri sandi bunun sözini, yazdi bir məytip göndərdi məmləkətə: "Telli bəndən üşdən doxuza boş olsun".

Bir gün məytip gəldi köyə. Kösə Ahmət aldi, oxudi, köyün heyətini səslədi:

– İştə Nəcip Telliyi boşamış, gəlin, bunu babasının evinə yollayin, getsin.

Heyət acələ:

– Səni Nəcip boşamış, baban evinə get, – dedi.

Tellisə fəryadı fiqan etdi:

– Bən ölənə qədər evümnən çıxmam.

Kösə Ahmət isə oranın dərəbəgi idi. Qaldırdı qolunnan, atdılar zorluğınan babasının evünə göndərdilər. Üş-beş gün sora təkral Telliyi gəndinə istədi. Fəğət babasi qorxusindən verdi. Telliyi Kösə Ahmədə, çümki Kösə Ahmət oranın dərəbəgi idi.

Bir qaç gün aradan geçdikdən sora bu Nəcip tşündi, saralıp solmaya başladi: "Bu iş nəydi bən işlədim?"

Fəğət onun bir qumandani var idi, çox Nəcipi səvərdi. Bir gün Nəcibi yanına çağırdi:

– Noldi, sənə yavrum, noldi? – dedi və sordi.

Nəcip buna işin nəticəsini annatdi. Əski zamanda vəsaitfelan yoğidi. Buna tutdi, bir bölük asgər qatdi:

– Haydi, oğlum, evüni yoxla da, gəl.

Bunnar günnərin birində yola rəvan oldular, Anadoliyə gəldilər, Nəcipgilin köynə yaxlaşdılar. Nəcip orda bir çobana bir ğaç lirə verdi:

– Get, bənim bacıma müjdə ver, qardaşin gəlir.

---

[432] çatır

Bacisi duyar-duymaz, başına torpaxlar saçdi, qardaşina qarşi getdi.

Qardaşi bu hali görür-gprməz:

– Baci, xeyir ola, – dedi.

Bacisi dedi:

– Qardaşim, bu iş nə işidi bizə işlədin? Tellinin boş kağıdini göndərdin. Şimdisə Tellini də Kösə Ahmət aldi.

Nəcip bunu duyar-duymaz atdan təpəsinin üstünə yıxıldı. Bunu sələcə[433] evə gətirdilər. Fəğət Kösə Ahmət qurnaz[434] idi. Asgərlərin hər birini bir evə müsafir verdi. Gəl, xabəri Nəcibdən verəlim. Gözünü açdı ki, gəndi evündə yataxda yatir, yanında Telli yox. Söylədi ki, bənə Telliyi bir səsləyin, yanıma gəlsin.

Fəğət bacisi dedi:

– Kösə almışdır, Telliyi nərdən gətirim? – dedi.

Qomşular getdilər, yalvardılar Kösəyə:

– Şu Telliyi bir göndər Nəcibin yanına. Zatən Nəcibdən daha fayda yox. Ginə evünə dönsün, gəlsin.

Tellisə Kösə göndərdi:

– Əcələ get, geri gəl

Telli bürüncəginən Nəcibin yanına girdi. Aldı Nəcib, bax, Telliyə nə deyəcək:

Telli bürüncəgin çalmış belinə,
Telli, neçin gəlmirsin yanıma.
Sən əzəldən qıydın bənim canıma,
Telli, sənə qurban derim, söyləmə.

**Aldı Telli:**

Buyurun, ağalar, sədirə geçin,
Dərdimin üstünə təzə dərd biçin.
Nəcibdən boş kağıd gəldigi üçün
Nəcib, sənə qurban, küsdüm, ağlama.

---

433 xirəkdə
434 hiyləgər

**Aldı Nəcib:**

Eşildi məzərim tezdədir canım,
Yalvar yarədənə, almasın canım,
Həmd olsun Mevlayə, yanımda yarım,
Telli, sənə ğurban derim, söyləmə.

**Aldı Telli:**

İstanbul yollari cızıdır cızi,
Aşdılar yarəmi, basdılar duzi.
Nəcip dedikləri bir körpə quzi,
Nəcip, sənə ğurban, küsdüm, söyləməm.

**Aldı Nəcip:**

Eşildi məzərim, qəbrim qazındı,
Qonu-qomşi, sizdən əlim üzüldi.
Yazıx-yazıx yazim belə yazıldi,
Telli, sənə qurban derim, söyləmə.

**Aldı Telli:**

Sən getmiş-gedəli sərayımnan çıxmadım,
Ağ əllərə al xınalar yaxmadım.
Aləm gözəl idi, dönüb baxmadım,
Nəcip, sənə qurban, küsdüm, söyləməm.

**Aldı Nəcip:**

Yükləndi barxanam, gidiyor köçüm,
Nəcibi görməgə gəlmirsən neçün?
Düşmandan məytubum gəldigi üçün
Telli, sənə qurban derim, söyləmə.

**Aldı Telli:**

Telli, bu dərdinən yansın, ağlasın,
Sitam yaşilə cigər dağlasın.
Ətrafım qan dəryası bağlasın,
Nəcip, sənə qurban, küsdüm, söyləməm.

**Aldı Nəcip:**

Aş, Telli, bürüncəgin, göreim səni,
Sil gözünün yaşini, ağlatma bəni.
............................
Telli, sənə qurban derim, söyləmə.

**Aldı Telli:**

Suş bənim dəgildir, səni sevdügüm,
Daha söyləmənəm, sənnən küsdügüm.
Atadan, anadan, candan bezdigim,
Nəcip, sənə qurban, küsdüm, söyləməm.

**Aldı Nəcip:**

Yükləndi barxanam, gidiyor köçüm,
Yanıma gəl, Telli, əfetdim suçun,
................................
Telli, sənə qurban derim, söyləmə.

**Aldı Telli:**

Qarşiki dağların qarlari yağmış,
Laləsi, sünbüli altında qalmış,
Nəcibin gözləri üzümdə qalmış,
Nəcip, sənə qurban, küsdüm, söyləməm.

Dedi, söz tamamə yetdi. Nəcip yerbəyer ruh təslim etdi. Telli də Allaha niyaz etdi, bənim də canimi Nəcibin üzərində al, o da orada ruh təslim etdi.

***Akif Doğan***
***(Qars: Sarıkamış: Qara Urğannı nahiyəsindən)***

## MƏNİLƏR

1. Mənidən məsdim, oğlan,
Küçükdən[435]dosdum, oğlan.

[435] uşaqlıqdan

Duydum ki, evlənmişsin,
Bən sənnən, ... oğlan.

2. Məni deməyə gəldim,
Qaymax yeməyə gəldim.
Mərəmim[436] qaymax dəgil,
Yarı görməyə gəldim.

3. Yazıya yaban dellər,
Ökçəyə[437] daban dellər.
Qız, xətirin qalmasın,
Nişannan[438] çoban dellər.

4. Yazı yabansız olmaz,
Öyçə dabansız olmaz.
Oğlan, niyə xətrim qalsın,
Sürü çobansız olmaz.

5. Havar, kəkliyim, havar,
Tazım davuşani qovar.
Qara kəllə sağ olsun,
Bin beş lirada nə var?

6. Bacada yatan oğlan,
Köynəgi kətən oğlan.
Bəni sənə verməzlər.
Beyxəbər yatan oğlan.

7. Baba, bən dərvüşmiyəm,
Qaralar geymişmiyəm.

---

[436] məqsədim
[437] topuğun arxa hissəsinə deyirlər
[438] nişanlına

Yarımı ellər aldı,
Niyə bən ölmişmiyəm?

8. Biçinçilər biçində,
Bənim yarim içində.
Tərlik toxum, göndərim,
Yanmış tərin içində.

9. Evləri yaxın yarim,
Çıx, bayan, baxim, yarim.
Orta boyan göz dəgər,
Həmayil taxim, yarim.

10. Sabahdan dudi geşdi,
Əlini yudi, geşdi.
Qurban olum, soxaxlar,
Yarim nə dedi, geşdi?

11.Sabağın dar səsinə,
Uyandım yar səsinə.
Yarim, kəylik bən doğan,
Düşeydim arxasına.

12. Qapıları qanatli,
Gəldi, geşdi on atli.
Bən yarimi tanıram,
Orta boylu, qır atli.

13.Kətən köynək mil-mili,
Gəl, oxu bizim dili.
Bən buralı dəgiləm,
Mısırın qonça güli.

14. Kətən köynək milinən,
İşləmişəm gülinən.
Edirəm yara yollim,
Atmış iki gulinən.

15. Evləri göşdü bögün,
Körpiyi geşdi bögün.
Kündə səlamli yarim,
Səlamsız geşdi bögün.

16. Qırat biçinə qədər
Nalı qıçında gedər.
Qurban olim o yara,
Bəylər içinə gedər.

17. Al, at binim, alişim,
Ala kürdə qarişim.
Küsdürdüm nazli yari,
Nərdə bulum, barişim?

18. Küp dibində gəndimə[439],
Mayiləm əfəndimə.
Bən küçük,yarim küçük,
Uydurmuşam gəndimə[440]

19. Küp dibində kömələr,
Titrər ağ məmələr.
Yar qədri nə bilsün?
Qız, səni kimi səmələr[441].

---

[439] bulğur
[440] özümə
[441] ağılsız

20. Məni[442], məni, xas məni,
Top zilifdən as məni.
Ya bacada qul eylə,
Ya qapıda kəs bəni.

21. Məni məniyi eylər.
Mənidən gələn bəylər.
Məni yari gətirməz,
Bir əzim gönül eylər.

22. Getdim arpa pişməyə,
Əgildim su işmiyə.
Dedilər, yarim gəlir,
Ğanatlandım uşmiya.

23. Arpa pişdim, az qaldi,
Qamış pişdim, saz qaldi.
Çilən[443] ördəgim, çilən,
Qavuşmiyə az qaldi.

24. Məniyə mərəz dellər,
Çil ördəgə qaz dellər.
İtirmişəm, araram,
Abdal ol da, gəz, dellər.

25. Çil ördəg gölə döndi,
Gözlərim selə döndi.
Yar məhlədən gedəli,
Məhləmiz çölə döndi.

---

[442] mani – bayatı
[443] islan

26. Məndili qaran olim,
Dört yani paran olim.
Nazli hardan bir xəbər,
Gör ki, sənə nə verim.

27. Keşkə çolağ olaydım,
Yara qonağ olaydım.
Yar peşinə gidəncə,
Soyux sular olaydım.

28. Ərzürüm bacaları,
Mısırın xocaları,
Yarəbbi, sən qavuşdur,
Arafa gecələri.

29. Qarşıda qıza qurban,
Qaş qara, gözə qurban.
Bəzənmiş, toydan gəlir,
Tərləmiş üzə qurban.

30. Qarşıda Qız qalasi,
Qız itirmiş valasi[444].
Qızın göyni bəndədir,
Qoymaz cazi[445] anasi.

31. Al işligin[446]əkləmə,
Ufaxdan ilikləmə
Babam sənə qız verməz,
Boş burayi bəkləmə.

[444] baş örtüsü
[445] hiyləgər, fitnə
[446] içlik (altdan geyinilən qadın əlbisəsi)

32. Al işligim əklərəm,
Ufaxdan iliklərəm.
Neçə can bu candaysa,
Bən burayı bəklərəm.

33. Küp dibində periza[447],
Xəbər verin xoroza.
Bu gecələr ötməsin,
Yar gəlmiş məhləmizə.

34. Qız, qapıda dur bari,
Xurma verim, ye bari.
Anan gəlir, görürsə,
İnnəm[448] itdi, de bari.

35. Qaşların qarasına,
Kar çəkim arasına.
Dutum sənin əlinnən,
Çəkim yar yarasına.

***Akif Doğan***
***(Qars: Sarıkamış: Qara Urğannı nahiyəsindən)***

## MÜDAMİNİN TÜRKÜLƏRİ

Açıldı ufuqlar qar libasından,
Gəldi ruzi Xızır yaz əyyamıdır.
Sathi arz geyindi nar libasından,
Gül bülbülə qarşı naz əyyamıdır.

Eyyami çərxi dün nə deyin olup,
Cümlə aşq əhlinə ğəm tayin olup.

[447] yemək növü
[448] iynəm

Məsudlar yaril qol-boyun olup,
Sallanıp baxçədə gəz əyyamıdır.

Bülbülün fəryadı bağlara düşüp,
Lalə kəməndilə bağlara düşüp.
Aşq ilə Məcnunlar dağlara düşüp,
Çalar tanburasın, saz əyyamıdır.

Cəm olmuş bir yerə ərbabı dillər,
Dərdi qəm sahibi, hali müşkillər,
Yeşilbaş ördəklə çalğanır göllər,
Ötər dudi qumru, qaz əyyamıdır.

Müdami, xayalın düşdü ənginə,
Ərmədin saadətin dənginə,
Şimdi rağbət güzəl ilə zənginə,
Cilvəli qızların naz əyyamıdır.

Fələgnən düşdük meydan ənginə,
Dutuşdum fələgə, əl çaramadım[449].
İstədim ki, ölem bəndinnən xalas,
Və lakin bir yana yol çaramadım.

Maksudə ermədən, yarıca qaldım,
Əşxin təmranını[450] bağrıma çaldım.
Dosdun baxçasında bağmançı oldum,
Yüz bin mehnət çəkdim, gül çaramadım.

Müdami baxtin saadətə erməmiş,
Nuhusət[451] burcundan yana durmamış.

[449] çıxarammadım
[450] xəstəlik
[451] uğursuz

Heç sanat qalmadı başım vurmamış,
On para fərinnən pul çaramadım.

***Sabit Yalçın Müdami***
***(Qars, Poshof: Varzına kəndindən)***

## MÜŞÜRÜN TÜRKÜLƏRİ

### I

Gənə bahar oldu, coşdi yürəgim,
Akar boz-bulanık selli dərələr.
Sila[452] dərdi, vatan dərdi, yar dərdi,
İflah[453] etməs, bu dərt bizi pareler.

Ehtibar olmazmiş yüzə gülənə,
Canım qurban olsun qədir bilənə.
Kefin[454] yetməzmiş qərib ölənə,
Bəlkə, yarın çevrəsinə saralar.

Xayal oldi bu Müşürün sözləri,
Deyin yara, gözləməsin yollari.
Hər kəsin sevdügi geymiş allari,
Qoy bənim sevdügüm geysin qarələr.

### II

Yüz bin mehlətilə bir bağ bəslədim,
Yemədim meyvasını, el aldı, getdi,
Akar göz yaşimi Ceyhun eylədim,
Çalkandi dünyayi, sel aldı, getdi.

Yüz bin dərt əkmişəm, bin daha gərək,
Çoq ömür istər ki, bir dahi[455] görək,

---

[452] vətən
[453] güc, qüvvət
[454] kəfən
[455] daha

Yarım əldən aldı o zalım fələk,
Xoyrat dos bağından, gül aldı, getdi.

Nazli yarım kəm xəbari gəlipdür,
Dostlar ağlar, düşmanlarım gülüpdür.
Dedilər, bu səfil Müşür ölüpdür,
Kimi qazma, kürək, bel aldı, getdi.

**III**

Əglən, Mahmud, əglən, intimasın var,
Bizdən yada düşdi yoli Gəncənin,
Axtaryor gözüm gəzdügüm yerlər,
Eşi, dosti, həm yarani Gəncənin.

Gəncədən gəliyor şeydalın səsi,
Gəncədə giyallar valayi[456] xasi.
Pədərin vardür ağır xaznəsi,
İncisi, mərcani, lali Gəncənin.

Gəncənin ətrəfi türlü bağ olsa,
İçindəki bülbülləri çoğ olsa,
.............................................
Dahi ərzimani çəkməm yoli Gəncənin.

Müşür der ki, didələri çoğ oldi,
Fələk ayrulıği şimdi verildi.
Ərzincan yollari şimdi çoğ oldi,
Fələk ərzumanım qaldi, neydim?

**IV**

Qızlar bənim xətaməmi gətürün,
Qannı dərya, Behtəhəri neylədin?
Biz mürsəlux, mürsəllərə yetəriz,
Qannı dərya, Behtəhəri neylədin?

---

[456] baş örtüsü

Duman gəlsin, bu dağlari bürüsün,
Fərman gəlsin, əllərini kürüsün.
Amin deyin, mələksima dəryalarda qurusun,
Qannı dərya, Behtəhəri neylədin?

Bən Zöhrəyəm, edem, nedem, neyliyim?
Xançar alem, bu sinamı teyliyim[457].
Ölənə qədər Tahir diyəm, ağliyim,
Qannı dərya, Behtəhəri neynədin?

Bən Müşürüm, neçə yıldür çəkeydim,
Mərbut olan Qurannari düzəydim.
Allaha yavralum, məjbur olup qalaydım,
Bu aşqın gönüldən son oldi bögün.

## V
## DEYİŞMƏ

**Aldı Müşür:**

Alçaxdan, üskək[458]dən uçan durnalar,
Durna, yara səlam söylə.
Dərə və təpə dümdüz gidərsin,
Durna, yara səlam söylə.

**Aldı Durna:**

Neçə bin sorarsın, divanə gönül,
Bizdən sənə bir qafadar bulunmas.
Əgər bizi sorarsan Tiflis elindən,
Sizin ellərdə dərilməmiş güllər var.

**Aldı Müşür:**

Durnamın qanadı sari,
Bən ağlaram zari-zari.

---

457 batırmaq
458 yüksək

Sevdügümün erkək oğli,
Durna, oğluma səlam söylə.

**Aldı durna:**

Civanmisin, yigit, sən səni düşün,
Luğman həkim gibi cəvhərlər daşın.
Əzrəil gönüldən müsəfir daşın.
Zevqun yoqisə, Əzrəil, taşın.

**Aldı Müşür:**

Durnamın başi yeşildür.
Səlam istiyən həmşirəmdür.
Müşür qarip, düşgündür
Durnam, həmşirəmə səlam söylə.

***Müşür Öcəl***
***(Qars-Poshof: Popola kəndindən)***

## NANAY TÜRKÜSÜ

**Ələyəzli qız:**

Ələyəz[459] ələmnidi[460],
Dört yanı qələmnidi.
Ələyəzdən qız seçən
Ürəyi vərəmnidi.

Ələyəz başı haça
Əlim dolaşdı saça.
İyid ona demişəm,
Sevdiyim ala, qaça.

**Eşnəkli qız:**

Çıxdım Talın[461] göründü,
Talın qalın göründü.

---

[459] dağ adı
[460] kədərlidir
[461] qəsəbə adı

Talının qız-gəlini,
Ayaxyalın göründü.

**Talınlı qız:**

Çıxdım Eşnək[462] göründü,
Esnək eşşək göründü.
Eşnəyin qız-gəlini,
Tamam eşşək göründü.

**Qız:**

Çıxdım aya baxmağa,
Qapıya kilit taxmağa.
Oğlan, həna gətirin,
Qız əlinə yaxmağa.

**Erkək[463]:**

Durna qapı dalında,
Gözüm qaldı xalında.
Anannan izin alım,
Gəlim, qalım yanında.

**Qız:**

Kəhər at nalı neynər?
Gözəllər xalı neynər?
Bir belə yarı olan
Dünyada malı neynər?

**Erkək:**

Ay qabağınca yıldız,
Ağlaram gecə-gündüz.
Məni bu dərdə salan
İki gəlindi, bir qız.

***Əli Işıx***
***(Qars-Şürəgəl: Külvərən kəndindən)***

---

[462] kənd adı
[463] kişi

# ÇOCUX TƏKƏRLƏMƏLƏRİ

## I

Üşüdüm, üşüdüm,
Dağdan alma döşürdüm[464],
Almalarımı aldılar,
Bəni yola saldılar.
Yolda bir darax buldum,
Darağı verdim nəniyə,
Nənə bəhən[465] bir kətə verdi.
Kətəyi verdim çobana,
Çoban bəhən bir qoyun verdi.
Qoynu verdim bir bəgə,
Bəy bəhən bir at verdi.
Atı bindim, getdim qara suya,
Qarasudan qannar axar.
İki dilbar bəhən baxar.
Böyügünə səlam verdim,
Küçügünə aşığ oldum.

***Fəxrəddin Çəlik***
***(Qars)***

2

İynə, iynə,
Ucu düymə,
Şam ağacı, şatır keçi.
Qoz ağacı,
qotur keçi.
Haflan, huflan,
Yırıl, yırtıl,
Su iç,
Qaç, qurtul.

---

[464] topladım
[465] mənə

3
Bir-iki
Bülbül təki.
Daş atar,
Davşan tutar.
Camya gedər,
Caminin qapısı kitdi,
O qızın başı pitdi.

4
Fındıx, fıstıx,
Qədifə yasdıx.
Vallaha, yengə[466],
Bən yapmadım,
Xoroz yapdı.
Qız, sən çıx.

5
Taxdalarda taxda,
Biz gedirik bu həftə.
İnəyimiz doğurdu,
İsmi olsun Fatma,
Aman, taraleylim[467],
Canım, taraleylim.
İbe ilə bülbül,
Saşları sünbül,
Qız, sən çıxacaxsan,
Çəlik, çubux, çıx.

6
O lisə
Ləbləbisə,
Davul, kəpçə, zardalo,

---

[466] müraciət bildirən söz
[467] darayaydım

Ətməysə, mətməyisə,
Zardalo.

7

Çıxdım ərik dalına[468],
On dəvə gəlir.
Brisinə mindim,
Ablama getdim.
Ablam pilav bişirmiş,
İçinə sıçan tüşürmüş.
Vallaha yemərn,
Billaha, yemərn.
Şu dolaptan nə çıxar,
Al yanaxlı qız çıxar.
Qızın adı Haxbə,
Babasının adı qahbə.
Məndili ipək,
Ğəndisi köpək.

***Osman Çetin***
***(Qars-Arpaçay: Kiçik Kımlı kəndindən)***

8

Bacadan baxdım pitnə[469] göz,
Birin şahan[470], birin boz.
Bindim bozun boynuna,
Endim Hələp yoluna,
Hələp yolu cın[471] bazar,
İçində avi[472] gəzər,
Avi bəni qorxutdu,

---

[468] budağına
[469] fitnə
[470] siyah
[471] cin
[472] ayı

Qulaxların sarxıtdı,
Yarıl, yırtıl,
Su iç, qurtul.

***Aliatdin Ulavur***
***(Qars-Poshof: Diğur kəndindən)***

9

Akan, bakan bekribo,
Şemdan guli hala katzo ho.

***Şükrü Dursun***
***(Qars-Artvin: İlicə)***

10

Endek, mendek,
Seksan elek,
Dün belek,
Al sana,
Bir bebek.

***İsgəndər Balci***
***(Qars-Artvin: Şavşat)***

İbəni,
İbdim səni.
Goş qoyan,
Alış-veriş,
Bənə bir eş gəliş.

***Cəlal Özdəmir***
***(Sarıkamış: Karaurğan kəndindən)***

## ZAFƏR OYUNU

Gümrinin patronnari, patronnari,
İpəkdir qaytannari, qaytannari.
Gidərim bu düznən,
Bir sarı yıldıznan.

Bəni məzərə qoyun,
Bir qınalı qıznan.
Getdi gedənim, getdi,
Boyu fidanın getdi.

Gümrinin patronnari, patronnari,
İpəkdir qaytannari, qaytannari.

***Sultan Çançır***
***(Sarıkamış: Bardız)***

## MƏKTUP MƏNİSİ

Qara qazan daşmazmi?
Yol gədidən aşmazmi?
Tələsmə, dəli göyül,
Ayrılan qavuşmazmi?

2

Məktip yazdım qaradan,
Dağlar qaxsın aradan.
Sən bizi qavuşdur,
Yeri, gögi yaradan.

3

Bu dağlar olmasaydi,
Saralıp solmasaydi.
Bir ayrılıx, bir ölüm,
İkisi olmasaydi.

4

Məndilim pək bəyaz,
Ayrı düştük biz bu yaz.
Ayrılıx bir şey deyl,
Mektiben tez-tez yaz.

***İnsaf xanım***
***(Qars: Bayram paşa)***

## BAYATILAR

1

Eləmi deyir, qarqa var,
Dağ başında qarqa var.
Mən gördüyüm tərlanın
Yuvasında qarqa var.

2

Sarı qavun dilimi,
Uçurdum bilbilimi.
Gəlginən tufar dalına
Deyim dərdi-dilimi.

3

Eləmi, Minayə dəyər,
Xalın min ayə dəyər.
Ay var ki günə dəyməz,
Gün var, min ayə dəyər.

4

Eləmi, Qarabağı,
Gəncənin qara bağı.
Sevdim qonur gözdü yarı,
Boynunda qara bağı.

5

Eləmi, gəncəlidi,
Bir gülü qonçalıdı.
Hada bir qərif görsən,
Elə bil gəncəlidi.

6

Eləmi, Gəncədə qaldı,
Gülü qonçada qaldı.
Harada bir gözəl görsəm,
Bil ki, Gəncədə qaldı.

## İRAVANIN TÜRKÜSÜ

İravan taxda qapı,
Bala bala bala halaylay.
Oynar firəngin sapı,
Gəl,quzum, gəl. gəl.
Gözüm, gəl, gəl, imanım, gəl.
Yarı yardan eliyən
Bala................................
Dilənsin qapı-qapı.

Ay qız, adın Səlvidi.
Tumanın gülbəngidi.
Açar gəti, gəl, açax,
Sandığın firəngidi.

İravan çarşı-bazar,
İçində bir qız gəzər.
Əlində davut[473], qələm,
Dərtdiyə dərman yazar.

2

İravanda bir quyu var,
Ay Zibeydə,
Şəkərdən şirin suyu var,
Ay Zibeydə,
Hər gözəlin bir xuyu[474] var,
Ay Zibeydə,
İravannı mənim yarım,

---

[473] mürəkkəb
[474] xasiyyəti

Qənfit[475] müsəllim Zibeydə,
Kəklik müsəllim İreyzə.

İravanda mən işdərəm,
Xənçəlimi gümüşdərəm.
Gah öpərəm, gah dişdərəm,
İravannı mənim yarım.
(Nəqərat)

İravanın ağ yoxuşu,
Gedər yazı, gələr qışı.
Gözəl qızdarın öpüşü,
İravannı mənim yarım.
(Nəqərat)

[475] konfet

# VIII BOLUM

# ƏRZURUM VİLAYƏTİ AĞIZI

## ƏHMƏT BƏZİRCAN

Vaxtı zamanında bir Əhmət bəzircan var idi. Bu Əhmət bəzircan qayət ağır tüccar idi. Bunun bir mağazası var idi çi, üş-dört tənə hələbicisi[476] var idi, üş-dört tənə də yazıcısi[477] var idi. Bir cün mağazada otururiçən mali satdıxdan sora yazıcılar dedi çi:

– Bu satlan malin hesabına bax.

Qələmi əlinə aldı, hesab etdi çi, tükanın bir tərəfi yenmiş. O bir tərəfi öləcəmən[478] durir. Pariya[479] baxdi çi, belə bir tükan mal doldurur. Orda axlinə bir qurunti cətirdi. Cətirdiyi kimin[480] axilnən devulət bir-birinə iddahalaşdılar. Devulət dedi çi:

– Bən bur qədən mal qazandım. Bu qazandığım mal daha tüçənməz.

Axıl dedi çi:

– O mali bən qazandım, sən qazanmadın. Əcər bən olmasam, sən bu mali bir cündə yiyər, içindən çıxarsan.

Devulət dedi çi:

– Bən bu mali boğozumdan çəsdim, artırdım.

Axıl dedi çi:

– Bən olmasam, sən bu mali mihaniyə, kərhaniyə verirsən. Ondan sora aj qalırsan.

---

[476] arşınla mal ölçn dəzgahdar

[477] hesabdar

[478] olduğu kimi

[479] pula

[480] kimi

Devulət dedi çi:

– Cəl, ayrılax.

Axıl vurdi bir yana cetdi, devulət yerində qaldi.

Eh, axıl çıxdıxdan sora devulətin nə əmliyəti[481] olajax? Bu mali elə yedi çi, bu devulət, daha bi şeyi qalmadi. Qarisi dedi çi:

– Hərif, – dedi, – bu gedən malimiz cetdi. Heç dəyil bu əlimizdəçi olan paraynan bir boyun öçüz al. Bir qaş[482] qod[483] da toxum al. Rəşbərlik yapalim.

Bu bir boyun öçüz aldi, bir qaş qod da toxum aldi. Başladi rəşbərliyini yapmiya. Bu rəşbərlik toxumunu əçərkən, ciftin peşinə cidərkən, baxdi çi, haqosdan[484] bir parlax daş çıxdi. Bu daş o qədən gözəl, parlax daş çi, olmaz dərəcələrdə. Amma axıl yox. Bilmir çi, bu daş nə daş?

Axşam oldi, bu evünə daşi aldi, cəldi. Qarıya dedi çi:

– Bu daşi buldum. Bu daşi ver, çocuxlar oynasin.

Qari daşa baxdi çi, daş bir gözəl daş. Çocuxların əlnə verdi. Qari baxdi çi, çocuxlar bu daşi qıracaxlar. Əllərindən aldi, tərəyə[485] qoydi. Qoyduxdan sora bunnar yatdılar. Bir də ayıldı çi qari, evün içərisində bir işıx yanir. Qari baxdi çi, lamba yox, ay işığı da dəyil, baxdi çi tərəktə daşın şaxusi[486]. O sahat qocasini səslədi. Dedi çi:

– Hərif, qax hələ. Sənin bu gətirdiyin daş nə şölvəli daş. Bu nədir?

Qocasi dedi çi:

– Bən bilməm, – dedi, – sabahdan cötür, bu daşi sat. Çocuxlara bi parça nafağa al, cəl.

---

[481] əhəmiyyəti
[482] neçə
[483] ölçü vahidi
[484] cütün tarlada yaratdığı iz
[485] evlərdə əşya qoyulmaq üçün olan rəf
[486] şüası

Sabahdan oldi, bu hərif ciftinə cetdi. Qari da daşi aldi, şəhərin içərisinə cötürdi. Bir böyüç tüccara cöstərdi. Dedi çi:

– Bu daşi al, bir qaş quruş bənə para ver.

Tüccar baxdi çi, daşin qiyməti bulunacax iş dəcil. Gəndi gəndinə[487] bir mütala yapdi. Dedi çi:

– Bu bənim səlvətimi versəm, bu daşi alamam.

E, bu qarinin əlindən qandırsam[488], alsam, bunun qocasi vardır, tabi və bu daşin sahabi bir böyüç adamdır. Olur çi, nə olur. Nə olmaz. Qarya dedi çi:

– Bacım, – dedi, – bən bu daşa cücüm çatmaz. Bu daş padişaha məxusdur.

Ordan qari aldi, evünə cəldi. Axşam qocasi da tarladan evünə cəldi. Qari dedi çi:

–Hərif, sənin cətirdiyin daş padişaha məxsus daş imiş.

Buni dedikdən sora yatdılar. Hama hərif içərdə alir-verirdi. Sabahleyin ərçəndən qaxdi çi, qapılarının önündən bir bəzircan cedir. Bəzircana səslədi, dedi çi:

– Bu çeviran nəriyə cedir?

Bəzircan dedi çi:

– Bu çeviran İstanbula cedir.

Dedi çi:

– Əylən. Bir armağanım var. Onu verim də Osmanni padişahına cötür.

Bəzircan dedi çi:

– Cet, cet, cətir.

Cetdi, daşi aldi, cəldi. Bəzircana verdikdən sora sormadi çi, siz nərəlisiz?

Bunnar daşi aldi, cetdilər. Bir az çi irəli cetdikdən sora bazircana çatibi vardi, dedi çi:

– Sən bu daşi aldın, sormadın çi, sənin ismin nədir?

[487] öz-özünə
[488] aldatsam

Ahan, bu daşi cötürdük Osmanni padişahına. O da bizdən sordu çi, bu daşi çim yolladi və ismi nəydi, nə cuğap verax?

Bəzircan baxdi çi, çatibin sözi doğrudur.

Ordan cerisin ceriyə döndü. Cəldi bu adamın qapısının və məhləsinin numərəsini aldi, ismini örgəndi. Ordan çıxdi, cetdilər.

Cünnərin birisində İstanbula çıxdılar. Bəzircan cötürdi, daşi padişaha təslim etdi. Padişah daşa baxdi çi, daş qiymətli daş. Laləsini, vəzirini topladi, dedi ci:

– Ərzürümdə Əhməd bəg ismində bir adam bu daşi bizə hədaya cöndərmiş. Siz buna nə cuğap verirsiz? Və buna qarşılıx biz o adama nə hədiyə edək?

Dedilər çi:

– Biz bu daşa qarşılıx, biz də ona para cöndərək.

Bunnar bir kasa lirə olarax bəzircana təslim etdi, dedi çi:

– Bəndən də çox səlam cötür.

Bəzircan da aldi, İstanbuldan çıxdılar.

Bir cünnərin birində Ərzürümə cəldilər. Cötürdü kasasini təslim edə, Əhməd bəzircani səslədi, dedi çi:

– Osmanni padişahi sənə hədaya cöndərdi. Çox da səlam etdi.

O adam da:

– O nədir, – dedi, – hədayasi.

Dedi çi:

– Lira.

Bu adam çəndi çəndinə bir mütala yapdi. Dedi çi:

– Bu parayi bən alsam, duyar, bənim boynumi vururlar.

Bəzircana dedi çi:

– Bu parayi alır cötürürsən. Bəndən Əcəm şahına hədaya edərsən.

Bəzircan baxdı çi, elə bən götürürəm. Ordan da peşcəyimi[489] alıram. Ordan parayi aldi, yola rəvan oldular.

---

[489] peşkəşimi

Bir cünnərin birisində Əcəm şahına cetdilər. Götdü parayi təslim etdilər. Parayi təslim etdikdən sora Əcəm şahi bunnardan sordi:

– Bu parayi bənə çim cöndərdi?

Bəzircan da dedi çi:

– Osmanni ölçəsində Əhmət bəg ismində bir bəzircan cöndərdi seni hədya olarax.

Ordan Əcəm şahi bəzircanın pescəgini verdi, dedi çi:

– Sən cet daha.

Bəzircan cetdikdən sora bu da laləsini, vəzirini topladi, dedi çi:

– Osmanni ölçəsindən bənə bu qədən bi para hədaya cəlmiştir. Biz buna qarşılıx nə cöndərək?

Laleynən vəzir dedi çi:

– Şahım sağ olsun, bu qədən parası olan adama biz nə hədaya cöndərax?

Vəziri dedi çi:

– Ösmanni ölçəsində Əcəm xalisi çox məhşurdur. Biz də ona bir ey[490] xali cöndərax.

Laləsi dedi çi:

– Bu paranın sahabında xalıya, çilimə cörə nə var?

Əcəm şahi dedi çi:

– Ya, nə yapalım?

Laləsi dedi çi:

– Bir şay vardır.

Şah dedi çi:

– Nədir?

Lalə dedi çi:

– Şahım sağ olsun, Bizim cəndi ölçəmizdə və düvəli əjnəbilərdə[491] belə bir zəncin tüccar yoxdur. Ancax bizim

[490] yaxşı

[491] əcnəbi dövlətlərində

hediya edecəmiz, sənin bacini bu adama verax. Başqa qolayı yoxdur.

Şah da baxdi çi, münasibli bir iş. Şah dedi çi:

– E, nasıl yapax çi?

Laləsi dedi çi:

– O adami əsgərinən cidər, alır, buraya cətirırıx.

Ordan əsgər-leşgər aldılar, Osmanni ölçəsinə hərəkət etdilər.

Bür günnərin birisində Əvzürümə cəldilər. Laləsi Əvzürüm əhalisindən sordu çi:

– Əhməd bəzircanın qonaxları[492] nərdədir?

Əhməd bəzircan da əvvəldə zəngin idi. Şimdi füxara olduğu halda çimsə tanımır. Hər çimə sorduysa, çimsə tanıyamadi. Cebindən nümərəsini çığartdı, qapının nümərəsini cöstərdi çi:

– An, bu nümərənin sahabının evi nərdədir?

O adamlar da baxdılar çi, daha əsgi bəzircan Əhmədi sorillər. Dedilər çi:

– Əvət, o adam əvvəldən zəncin adam idi. Axlini qayib etdikdən sora malini[493], həpsini yedi. Şimdi füxərədir.

Qapının yoluni göstərdilər. Getdilər, baxdılar çi, bir füxərə adam. Laləsi dedi çi:

– Haydi, Əcəm şahi səni istir.

Bu başladi çi:

– Bəni Əcəm şahi nedəcək?

Dedilər çi:

– Sən Əcəm şahına bir kasa lira cöndərdinmi?

Dedi çi:

– Əvət, cöndərdim.

– Eyləsə, – dedi, – səni şaha götrəcəyx.

Ordan aldılar, yola rəvan oldular.

---

492 evi

493 halını sorma

Bir günnərin birisində Əcəm torpağa ayax basdılar. Şaha xəbər verdilər çi, Əhməd bəzircanı gətirırıx. Şah ordan bunnari qarşılamıya çıxdi. Cəldi, cördü çi, Əhməd bəzircan diylən adam hancısıdır?

Laləsi göstərdi çi:

– İşdə, a, o adamdır.

Şah baxdi çi, üstü yırtıx, cəndi pərişan bir adam. Laliyə dedi çi:

– Lalə, – dedi, – bu adam yanışdır. O paranın sahibi belə niyə pərişan ola?

Lalə dedi çi:

– Şahım sağ olsun, biz bu adami qapısının nümərəsiynən suval etdıx. Bundan başqa daha kimsəyi bulamadıx.

Vəziri dedi çi:

– Osmanni siyasətçidir. Bu adam olur çi, bizi sınar.

Ordan bu adami hamama cöndərdilər. Təmiz bir qat əlbisə kəsdirdilər. Bunun üzərinə ceyindirdikdən sora buni payitaxtına cötürdülər. Çay, qəyfə işdikdən sora şah dedi çi:

– Biz bacımızın məsələsini nasıl açax?

Lalə dedi çi:

– Şevçetim sağ olsun. Sən burdan çıxarsan, biz o adamnan qonuşurux.

Şah ordan çıxdi. Laləsi, vəziri, Əhməd bəzircan orda qaldılar. Qaldıxdan sora laləsi dedi çi:

– Əhməd bəg, səni buraya cətirməmizin əsbabını[494] bülirmisən?

O da dedi çi:

– Bən nə bülim? Siz cətirdiz, bən də cəldim.

Lalə dedi çi:

---

[494] səbəbini

– Yox eləcə deyil. Sən şaha bir kasa lira cöndərmişdin. Şah da səni ona qarşılıx bacisini sənə verəcək. Sən buna nə deyirsən?

Əhməd bəzircan dedi çi:

– Şah bacisini bənə verəndə bən də alıram.

Orda qəvri-qərəl[495]qıldılar. Qəvri-qərəl qıldıxdan sora bir cümə axşami zifafa verdilər. Qizi yanına cətirdikləri çimin axıl yox, qızı gördügü çimin çəndini şaşırdı. Bir müddət orda oturduxdan sora, qız da duvağın altında bəklir[496]. Əhməd bəzircan baxdi ki, qapının yoli açıxdır. Ordan qaxdi, ibrigi[497] əlinə aldi. Dişariya çıxdi. İbrigi qapının önünə qoydi. Ordan savuşdi.

Gecənin bir fasli idi. İran dedigin qoca bir şəhər. O yana vurdi, buya vurdi, bir yol çığardamadi. Baxdi çi, sabah açıldi. "Ola, bən nəyedim? Şah şimdi qaxarsa, bənim boynumi vurur?" Baxdi çi, bir yerdə böyük bir fışgı[498] yiğili. Getdi, o fişgının içinə cirdi. O gecə də yağmur yağardi. O fişgılıx da şahın tavlaxanasının fişgılığıymiş. Daima ordan atların altına fişgı götürürlərmiş.

Sabahdan oldi, bir adam cöndərdilər:

– Hələ baxın damadıımız qaxmışmı?

Cetdilər çi, qız orda durir, yataxlar sərili, damat yox. Qıza sordular çi:

– Damat bəg necoldi?

Qız da dedi çi:

– Gecə ibrigi əlinə aldi, dışarya çıxdi. Daha gəlmədi, necolduğuni bilmirəm.

Ordan şaha xəbər verdilər çi:

– Bu gecə damat bəg qayib olmuş.

---

[495] qərara gəlmək

[496] gözləyir

[497] su qabı

[498] gübrə

Şah təllallara əmr etdi çi:

– Damadı itmiş. Hər çim çi ölüsündən və dirisindən xəbər gətirirsə, dünyalığını verib axirətinə qarışmıyacam.

Təllallar nida etməyə başladı. Axilli-başli olan adam həp içəri qaşdılar. Dedilər çi:

– Bunun ölüsünü də görsək, zəral cəlir, dirisinə də görsək, zəral çəlir.

Onnar orda qalsın, biz gələk tavlacılara.

Tavlacılar atlarının altına fışgı cətirirçən baxdılar çi, fışgının içərisində bir adam. Çığartdılar çi, Əcəm şahının damadı. O saat şaha xəbər cötürdülər. Dedilər çi:

– Şahım, sənin damat bəgin bizim atların fışgının içindən çıxdi.

Şah qəzzəbə cəldi, əmr etdi çi:

– Dar ağaclar qurulsun.

Buni dar ağaca götürürkən axıl orda yetişdi. Axıl beyninə cirdigi zamən axli başına cəldi.

O sahat barmağıni qaldırdi. Şah baxdi çi, barmağıni qaldırdi, dedi çi:

- Sorun, baxın, nə deyir?

Lalə cetdi, sordi çi:

– Neçin barmağın qaldırdın, bir deyəcəginmi var?

O da dedi çi:

– Bənim deyəcəgim budur çi, bənim nə günahım var. Siz bəni sorğu-sualsız dar ağacına asirsiz.

Lalə cəldi, şaha söylədi. Şah da ordan cəldi yanına. Dedi çi:

– Oğlum, bənim asmamın əsbabi budur çi, sən bənim taxtımanmi bəcənmədin, yoxsa bacımami bəcənmədin və ya adalətiməmi bəcənmədin?

Damadi dedi çi:

– Bən sənin taxtan da bəcəndim və adələtin də bəcəndim, bacan bəcəndim. Yaliniz bənim bir əhdim vardır. Əhd dedicin bir adamın üzərinə borşmudur, borş decilmidir?

Şah dedi çi:

– Əvət, oğlum, – dedi, – borşdur. Fağıt sənin ahdin nə idi?

Damadi dedi çi:

– Bənim ahdim buydi çi, bən dedim çi, Əcəm şahının bacisini allahın əmriynən peyğənbərin qoyduği şərşərətnən alursam, icirmi dört sahat fışgılıxda qalacağam. Şimdi isə ahdim yerinə cəldi. Onun üçün icirmi dört sahat fışgıların içərisində qaldım a, bənim ahdim buydi.

Şah baxdi çi, bu adamın sözləri doğrudur. Orda bəratini istədi.

Əhmət bəg muradına irdi.

***Qaya Qılıç***
***(Ərzurum: Pasın, Surbahan kəndindən)***

**MƏSƏL**

1. Qaradır, qətran dəcil,
Sarıdır, zarfa[499] dəcil.
Qanatlıdır, quş dəcil,
Buynuzludur, qoş dəcil. ***(Çəçircə)***

2. Ələməz, mələməz,
Tandır başına cələməz.
Gəlsə də, ceriyə dönəməz. ***(Yağ)***

3. Həriyə, həriyə,
Davarı vurdum geriyə.
O nasıl quşdur çi,
Arxa üsti yeriyə? ***(Ölü)***

4. Yol üstində çitli sandıx. ***(Məzar)***

---

[499]zəfəran

5.Yol üzərində yağlı qayış. ***(İlan)***

6. Qara tazii nalladım,
İstanbula yolladım. ***(Məktip)***

7. Burdan vurdum qilinci,
Hələpdə oynadi uci. ***(Şimşək)***

8. Qarannıx yerdə qan uyuşur. ***(Yoğurt)***

9. Uzun-uzun urğannar,
Ucunda dəmir kannar. ***(Tilifon)***

10. Bir çüçücük mil daşi
Dolanır daği, daşi. ***(Göz)***

11. Oturdum ögünə,
Uydurdum dəliginə. ***(Sandıxnan anaxtar)***

12. Bir dərədə bir dəgirman, qaldıramam, yendirəməm, çarxa vurup döndürəməm. Ustası gəlsin, qaldırsın da, yendirain də, çarxa vursun, döndərsin də. ***(Sahat)***

13. Ay yurtlar, yurtlar,
Yusifi yiyən qurtlar.
Dırnağindən su içər,
Təpəsindən yumurtlar. ***(Əçin)***

14. Qara tavux qaqqılar, qanatlari şaqqılar. ***(Cöy)***

15. Dam ardından təkə bağli, buynuzlari çöçə bağli. ***(Qabax)***

16. Bu damın alti himdir[500],
Himin altında çimdir[501].

---

[500] bünövrə
[501] ot, çayır

Çimin altında bir cami,
Caminin imami çimdir. ***(Bilali-həbbəş)***

17. Dərindir quyi, günbülər suyi. ***(Tüfək)***

18. Bir quş gəlir Vandan,
İçi doli andan.
Gırx gün, qırx gecə namaz qıldi,
Bülmədi çi, qibləsi ni yanda? ***(Yunus peyğenber)***

***Qaya Qılıç***
***(Pasın:Surbahan kəndindən)***

## DASTAN

Dinəyin əxbaplar bənim halimi,
Fələk qanat vurdi, qırdi dalimi[502].
Çimsəm yox çi, bəkləsinnər yolimi,
Yalan dünya zindan oldi bən için.

Nə anam vardir, nə pedərim,
Başdan yetim qoydi qədərim.
Cecə-cündüz buni mərax edərəm,
Həram oldi yalan dünya bən için.

Bu yalan dünyada bir cün cülmədim,
Bən də bülməm, çimdən intizar yedim.
Cündən-cünə artar ğəm ilə dərdim,
Çeçilməz bir hala cəldi bən için.

Fələk qanat vurdi yixildi evüm,
İstəməzdi bənə bu qara səvüm.
Nə axrabam vardir, nə bir qevim[503],
Yanacax bir çimsəm yoxdur bən için.

---

[502] budağımı
[503] qohum

Artıx böyümüşdüm, olmuşdum civan,
Bir yarin bağına cirdim bağcivan.
Nihayət orda da erişdi fiğan,
Mətəm artdi qara yaslar bən için.

İcirmi beşdə bir təməl atdım,
İcirmi altida bəlaya çatdım.
Yar sənin yüzündən zindanda yatdım,
Işıx dünya zindan oldi bən için.

Sevdük biri-birmizi, qurdux təməli,
Qabahat bəndədir, çimə deməli.
Əllər qınali, gözlər sürməli,
Sürmədim səfani, geşdi bən için.

***Qaya Qılıç***
***(Pasın: Surbahan kəndindən)***

**TÜRKÜ**

Nə ola mərhəmət eylə,
Nədir bu cəfalar cana, zindanci.
Gecə-gündüz həsrətini çəkərəm,
Bəni həsrət qoyma yara, zindanci.

Fələk bəndən aldi içi qolimi,
Cidin, diyin o yara, cözləməsin yolumi.
Cöydə uçan quşlar ağlar halimi,
Heyvah, həsrət qaldım yara, zindanci.

Qaya der çi, içi didam yaş olur,
Müncürlərin qara bağri daş olur.
Vaxıt olur çi, ğəm cünlər cinə xoş olur,
Etdigin yanına qalmaz, zindanci.

***Qaya Qılıç***
***(Pasın: Surbahan kəndindən)***

## AŞIX KƏRƏM

Gidə-gidə gitdik Narmana,
Nalbandın bıyıxları[504] büləndi al qana.
Çəkin arxadaşlar, çəkin atları xırmana,
Dağıdın ləzgi can alan Kərəm.

Kərəmin atına ala deyəllər,
Belində qalxana qala deyəllər.
Kərəm öldücən, yalan deyəllər,
Dağıdın ləzgi can alan Kərəm.

Kərəmə qoçax deyəllər,
Üstünün çuluna saçax deyəllər.
Kərəmi Koroğlundan qoçax deyəllər,
Dağıdın ləzgi can alan Kərəm.

***Şükrü Alquş***
***(Ərzurum)***

## ÇOBANNAR DASTANI

Əhbab xatiriçin yadigarın var,
Annasınnar bu maili çobannar.
Bazi əkis dönər rüzügarım var,
Annasınnar bu əhvali çobannar.

Bəgəndim bən onnarın təbdirin,
Müttəfiq tutmuşlar həp bir-birini.
Həqiqəttə tanısalar pirini,
Qalmaz kərəməltən[505] xali çobannar.

---

[504] bığları
[505] kəramətdən

Məmur olmuşlardı cevrü cəzaya,
Heş razı olmazlar həqqu rizaya.
Hükm edəllər otuz altı qəzaya,
Dağların sərdari, vali çobannar.

Məktəp, məzhəp nədir bilməz aynisi,
Orman kəbayiri[506], millət xaini,
Qurda, quşa təqdim edər payini,
Arar, bulur qərip mali çobannar.

Sırım[507]çəkəmədiz buyılkı göni,
Baxax nəyə varir bu işin sonu.
Sabax hangi malın tükəndi güni,
Axşamdan açallar fali çobannar.

Qəhrimandır, ər meydana çıxallar,
Cansız malın nəfəsini tıxallar.
Bir zoppada üş-beş danə yıxallar,
Geşmişdir Rüstəmi Zali çobannar.

Əlində hazırlamış kəskin piçağın,
Necə fikarənin yıxar ocağın.
Dögüşdürür mali, qırar bacağın,
Ğayət sevər qalmaqali çobannar.

Kor olmuş onnarın mərhəmət gözi,
Bir cift çarıx üçün kəsər öküzi.
Heş biri saxlamaz qoyunna quzi,
Təzə geyər çuxa, şali çobannar.

Gəndi qəbəhətiz elə devürmə,
Dağda gəmiklərdən qurduz çevirmə.

---

[506] ayısı, canavarı
[507] sırıq ipi

Axşam yaxni yiyin, sabax qavurma,
İstəməsiz yaği, bali çobannar.

Mala möhtac ettiz, kəsdiz köküni,
Bir topal danam var, yiyin küküni.
Axirəttə çəkin mabal yüküni,
Qoca şaşqın el hammali çobannar.

Nə cifti sağ qoyduz, nə də ənəgi[508],
Si... haşa burdan böylə hənəgi[509].
Baş-qıçnan yediz bir cift inəgi,
Dolaşırsız laubali çobannar.

Gözümüz görməzdən qarnınız şişə,
Yorğansız, köynəksiz, çuxasız qışa,
Sonunda Məhərrəmi çıxarttız işə,
Boynunuza öz mabalın çobannar.

***Məhərrəm Qorxmaz***
***(Ərzurum: Tortum qəzasından)***

## ƏRZURUM

Barəkallah deyəlim nazi xoş Ərzurumun,
Açildi həp çiçəklər, yazi xoş Ərzurumun.
Millət seyirə yürüdü, çayir-çimən böridi,
İgid oynar ciridi, düzü xoş Ərzurumun.

Pəhluvannar yağlanır, nam aləmə çağlanır,
Düşman bağrı dağların, şazi[510] xoş Ərzurumun.
Davul, zurna çalınır, marifətli bilinir,
Dadaş[511] barda salınır[512], sözü xoş Ərzurumun.

---

508 sabanın dəmirə keçən yeri
509 zarafatı
510 zarafatı
511 rəqs edən dəliqanlı
512 nəşəli hərəkət etmək

Qəhrimanlıx burdadır, bütün şərəf bardadır,
Düşman ahu-zardadır, buzi xoş Ərzurumun.
Quşlar yapar yuvayi, çox eyləriz dəvayi,
Heş olmayiz mirayi izi xoş Ərzurumun.

Biz şairiz, atariz bali yağa qatariz,
Düşmannara çatarız sazi xoş Ərzurumun.
Hər saltanat burdadır, bütün könül kardadır,
Bu də extidardadır, yozi[513] xoş Ərzurumun.

Ehsani muhabbəti almış başdan himməti,
Seviyor şecaəti güzü xoş Ərzurumun.

***Mevlut Ehsani***
***(Ərzurum: Ali Paşa məhəlləsi)***

## SƏRƏNCƏM

Vaxti zamanında bizim Sultan Süleyman[514] həzrətləri var idi. Bu taxtində oturduği zaman axlına bir quruntu gəldi. Bu dedi çi:

– Bən atmış-yetmiş yaşındayam. Bir züryətim olmadi çi, qaxa da[515] bu maxluqatıma sahab ola.

Bu sözü belə derçən bir fikrə daldi. O dalmada olsun, laləsi içəri girdi. Səlam verdi padişahına. Bu səlami verdi, amma çi almadi. Lalə getti, cəndi isgəmləsinə oturdi. Oturduği zaman bir səlam daha verdi. Sultan hazrətləri başini qaldırdı qiyam etti. Lalə dedi çi:

